**İLHAM ƏLIYEV**

# İNCƏ DƏRƏSI

**(roman)**

**Redaktor:** **Bəhruz Quliyev**
*Fəlsəfə üzrə fəlsəfə doktoru.*

**Korrektor:** **Qismət İsmayılov**
*Jurnalist*

**Komputer yığıcısı: Afət Tahirqızı**

**İLHAM ƏLIYEV. İNCƏ DƏRƏSI (roman)**



# ÖN SÖZ

Füsünkar təbiətə malik Azərbaycanın coşub çağlayan çayları, laləli düzləri, sıldırımlı qayaları bu məkanın sirli, qaynar, möcüzələrlə dolu gözəlliyindən danışır. Ölkəmizin istənilən məkanında bu gözəlliyi duymamaq mümkün deyil. Hər bir yaradıcı şəxs Tanrının bizlərə bəxş etdiyi nadir gözəlliyi fərqli boyalarla əks etdirərək, Azərbaycan torpağının zənginliyi içində boya-başa çatan insanların mənəvi-əxlaqi dəyərlərini, adət-ənənələrini bədiiləşdirərək nəzmə çəkir, nəsrə çevirirlər.

Yazıçı-publisist İlham Əliyevin qələmə aldığı "İncə dərəsi" romanında da Azərbaycan təbiətinin gözəlliyi, Boz dağın ətəyində yerləşən Çayqovuşan meşələrindən Ulu Tanrının heç nəyi əsirgəmədiyi bədii təsvir vasitələrinin köməyi ilə qələmə alınmışdır. "Göz oxşayan mənzərələr", "aramsız yağan yağışların yaratdığı cığırlar" Azərbaycan təbiəti ilə bağlı təsəvvürləri daha da genişləndirir. Müəllif məhz belə bir təbiətin qoy-

nunda yaşayan insanların cəmiyyətdə öz əməli fəaliyyəti, şəxsi keyfiyyətləri ilə seçildiyini yaratdığı obrazların timsalında ifadə edə bilmişdir.

Müəllif romanda qəhrəmanlarının keçdiyi yolu, onların arzu və düşüncələrini, xəyallarını ifadə etməklə yanaşı, təzadlı, ziddiyyətli zamanda rast gəldikləri çətinlikləri də oxuculara təqdim edir. Onun özünəməxsus düşüncə tərzinə malik olan qəhrəmanlarına həssaslıqla yanaşması, hər fərdin insani tərəflərini, mənfi və müsbət cəhətlərini üzə çıxarması oxucuda hər bir obraza qarşı maraq hissini artırır. Bu onun güclü müşahidələrinin nəticəsidir ki, qəhrəmanlarının dolğun portretini yaratmağa müvəffəq olur. Heç şübhəsiz ki, yüksək bədii təsir gücü ilə tarixi keçmişimizə boylanır. Belə ki, müxtəlif xalqların nümayəndələrini romanda canlandıraraq, Azərbaycan xalqının tarixini, mədəniyyət və adət-ənənələrini diqqətə çəkir və öz məqsədini gerçəkləşdirməyə nail olur. Elə romanın əvvəlində yazıçı tarixi mənbələrdən, daş kitabələrdən bizə gəlib çatan bir faktı belə qələmə alır: “1254-cü ildə Fransiskanlar təriqətindən olan katolik rahib Vilyam Rubkov Şamaxıya gəlmiş, 5 il burada qalmış və bu yerləri qarış-qarış gəzmişdir. Parisə qayıdan Vilyam Rubkov qələmə aldığı kitabında Azərbaycan xalqının adət-ənənələrini, mədəniyyətini, meşəsini, təbiətini ifadə etmişdi”.

Bununla yanaşı, İlham Əliyev Azərbaycanda tanınmış səyyahların, iş adamlarının olduğunu da xatırladır. Qərhəmanı Mətinin dili ilə ifadə olunan fikirlərin arxasında müəllifin torpağına olan sevgisinin böyüklüyü hiss olunur. Ayazın Amandinaya qarşı kişiyana hərəkətləri romanda səmimi, obrazlı şəkildə öz əksin tapmışdır.

Romanı vahid süjet xətti üzrə davam etdirən İlham Əliyev iki xalqı təmsil edən qəhrəmanları qarşılaşdırdığı səhnələrdə onların fərdi keyfiyyət və düşücələrini üzə çıxarır, oxucuları ilə baş-başa qoyur. Hər tipi xarakterinə uyğun düşdüyü vəziyyətdə canlandıraraq müxtəlif məkan və məqamlarda qəhrəmanlarının simasını ortaya qoymuş olur. İstənilən situasiyada əsərin qəhrəmanları Əfqan müəllimi, Lui Santanı, eləcə

də Mətin və Ayazı güclü və təmkinli şəkildə canlandırmaqla cərəyan edən hadisələr fonunda məqsəd və düşüncələrinin ifadəsinə çalışır.

Romanın əvvəlində cərəyan edən hadisələr və onların dərinləşməsi sonda açılmağa başlayır. Mövcud düyünlərin açılmasının öhdəsindən gələn yazıçı odun-alovun, çətinliklərin içindən çıxan qəhrəmanının dərin psixoloji məqamlarının, hiss və düşüncələrinin, daxili mənəvi gücünün ifadəsinə nail olur.

Tanrının yaratdığı varlıqların ən çətin məqamlarında köməyinə qəlbinin səsi gəlir. Ən təlatümlü anlarda, hisslərin haray qopardığı bir zamanda insanın düşüncəsinə, əqlinə səs verən onun qəlbi olur. Əminliklə deyə bilərəm ki, İlham Əliyevin qələmə aldığı "İncə dərəsi" romanı da oxucuların qəlbinə yol taparaq onların stolüstü kitabına çevriləcək.

***Valeh Məhərrəmli,***
***Əməkdar jurnalist***



# İNCƏ DƏRƏSİ

## ROMAN

Boz dağın ətəyində yerləşən Çayqovuşan meşələrindən Ulu Tanrı heç nəyi əsirgəməyib. Buranın altı xəzinə, üstü qəlbləri riqqətə gətirən, göz oxşayan təbiət muzeyidir. Soyuq, şaxtalı hava bu yerlərə erkən gəlsə də göz oxşayan mənzərələr, həmişə olduğu kimi, yenə də könül oxşayır. Aramsız yağışların yaratdığı cığırlar dağ silsiləsinə xüsusi gözəllik verir, xalı üzünə həkk edilən naxış görüntüsü yaradırdı. Belbağından güllə darağı, çiynindən qoşalülə tüfəng asılan Əfqan müəllim ehtiyatlı addımlarla cığırla dağ yuxarı irəliləyirdi. Arada dayanıb, geriyə boylanır, arxasınca addımlayan Mətinə və Lui Santaya nəzər yetirirdi. Deyəsən, onlar yorulmuşdular. Bu, onların aramsız tövşümələrindən açıqca hiss olunurdu. Hətta Lui Santanın ağzının-burnunun suyu bir-birinə qarışmışdı. Bu mənzərədən xoşhal olan Əfqan müəllim Lui Santaya baxıb qımışdı. Bunu başa düşən Lui Santa tələsik, çətinliklə də olsa,

sağ cibindən əl dəsmalını çıxarıb, heç nə olmamış kimi, ağız-burnunu sildi. Sonra da fikrini düzgün ifadə etmək üçün nəfəsini ciyərlərinə çəkib dedi:

- Yorğunluğa və gərginliyə baxmayaraq misilsiz gözəlliklər diyarını seyr etməkdən doymaq olmur. Bu gözəl yerlər məni özünə məftun edir.

Əfqan müəllim geri çevrilib, tövşüyə-tövşüyə dedi:

- Şərik, bütün günü başımızı soxuruq kağız-kuğuzun arasına, göz oxşayan mənzərələri seyr etməkdən məhrum oluruq.

- Hə, düz deyirsən, - deyə Santa dostunun sözünə qüvvət verdi. Sonra da - bəlkə də yeganə xarici ölkə vətəndaşıyam ki, min bir dərdin dərmanı olan bu bulaqların suyundan içir, nadir və zəngin meşələri gəzir, göz oxşayan dağ yamaclarının zirvəsinə qalxıram, - deyə bildirdi.

- Səhvin var, - deyə arxadan gələn Mətin Santanın sözlərinə düzəliş verdi.

- 1254-cü ildə Fransiskanlar təriqətindən olan katolik rahib Vilyam Rubrok Şamaxıya gəlmiş, 5 il bura-





da qalmış və bu yerləri qarış-qarış gəzmişdir.

Mətin Lui Santanın ayaq saxlayıb diqqətlə onu dinlədiyini görüncə söhbətini davam etdirdi:

- Vilyam Rubrokun bu yerlərə səfərinin məqsədi missionerlik fəaliyyəti ilə məşğul olmaq olsa da, Parisdə qələmə aldığı kitabında Azərbaycan xalqının adət-ənənəsi, mədəniyyəti, torpağı, meşəsi, dağları haqqında çox düşündürücü fikirlər söyləyib.

Mətin dayanmaq bilmirdi. Gah Fransa ədəbiyyatının görkəmli nümayəndələri Aleksandr Dümadan, Nader Xanikovdan, gah da səyyah Jül Lokkerikdən, eləcə də 1883 – cü ildə Bakıda Xəzər – Qara dəniz neft sənayesi və ticarət şirkəti yaradan Rotşild qardaşlarından danışırdı.

Əfqan müəllimin - deyəsən, yağış yağır, geri qayıtmaq lazımdır, - deməsi Mətini sözlərinə ara verməyə məcbur etdi. Santa isə Mətinin geniş elmi təfəkkürə malik olmasından bərk təəccüblənmişdi. Ona görə də sanki Əfqan müəllimin xəbərdarlığını eşitmədi.

- Mətin, bu tarixi məlumatları hardan öyrənmisən?



- Axı mən sənə demişəm, universiteti bitirdikdən sonra iki il kənddə müəllim işləmişəm. Sonradan gördüm ki, müəllimin bir qara qəpiklik hörməti yoxdur, həm də dolanışığı süpürgəçinin dolanışığından da aşağı səviyyədədir, müəllimliyi sahibkarlıq peşəsi ilə əvəzlədim.

Uşaqlıq illərini dağlar qoynunda keçirən və dağ havasının dəyişməsi ilə havanın necə olacağını az-dan-çoxdan müəyyənləşdirə bilən Əfqan müəllim indiki hava şəraitinə görə güclü yağış yağacağını anlamışdı. Ona görə də Mətin və Santanın qızışmaqda olan söhbətlərinə müdaxilə edərək dedi:

- Çənəniz qızışıb söhbətə, amma başa düşmürsünüz ki, az sonra güclü yağış yağacaq.

Mətin Əfqan müəllimin həmişə hörmətini saxlayır, onun bir sözünü iki etmirdi. Bu münasibət yalnız Əfqanın xalası oğlu və şirkətin direktoru olmasına görə deyildi. Əfqan müəllim həm də qayğıkeş, mehriban insan və dəyərli dost idi. Ona görə də onun sözünün üstünə söz demədən - nə təklif edirsən? - deməklə kifayətləndi.

- Aşağı enib, meşədəki çadıra qayıtmalıyıq - deyə Əfqan müəllim təklifinin nədən ibarət olduğunu dostlarına çatdırdı.

Bu dəfə Santa dilləndi:

- Yağışdır, yağır da. Yağış bərəkətdir, insanda xoş təəssüratlar yaradır.

Əfqan müəllim:

- Düzdür. “Daha çox yağış yağanda, dualar qəbul olunur” deyimini səbəbsiz yerə deməyiblər ki, amma bu dəfə gözlənilən yağış o mənada olmayacaq.

- Yəni necə olacaq? - Santa sual etdi.

- Güclü yağış dağlarda sel yaradacaq ki, bu da bizim həyatımız üçün təhlükəlidir.

Mətin ağzını açıb Lui Santa ilə Əfqan müəllimin söhbətinə müdaxilə etmək istəyirdi ki, ildırımın çaxması onun sözünü ağzında qoydu. Həmin an da iri yağış damcıları başlarını və bədənlərini islatmağa başladı. Havanın gözlənilmədən dəyişməsindən duruxan Mətin gözlərini çaşqın halda sanki torpağa çatmaq üçün yarışırmış kimi, bir-birini ötmək istəyən ley-





san damcılarına dikdi. Onu bu dalğınlıqdan Əfqanın, - tələsmək lazımdır, - deyə bildirməsi ayıltdı. Amma deyəsən, artıq gec idi, xırda, aramla yağan yağış, güclü leysana çevrilmişdi. Dostlar geri çevrilib, sürətli addımlarla aşağıya enməyə çalışsalar da enişin dar, həm də sürüşkən olması onların hərəkətinə mane olurdu. Yağış isə getdikcə güclənir, sanki bununla ovçulara öz gücünü, qüdrətini göstərmək istəyirdi.

- Bu yağış da yağmağa vaxt tapdı da, - deyən Lui Santa, bununla yaranan narahatlığı, təşvişi aradan qaldırmağa çalışdı. Amma o fikrini tamamlamamış gözlənilmədən Mətinin ayağı sürüşdü. Santa əlini uzadıb Mətinin qolundan tutmasaydı, bəlkə də az sonra onun səsi dərənin dibindən gələcəkdi. Ancaq "sən saydığını say, gör fələk nə sayır". Dostlar təzəcə təhlükədən qurtarmaqlarına sevinirdilər ki, arxadan Santanın vahimə dolu qışqırığı eşidildi.

- Əfqan, Mətin, yıxılıram, kömək edin.

Asta addımlarla aşağıya enən Əfqan geri - Santaya tərəf dönərək uca səslə qışqırdı.



- Santa, yovşandan möhkəm yapış, gəlirəm.

- Artıq taqətim qalmayıb, deyəsən, gedirəm.

- Çalış çiynindəki tüfəngini mənə uzadasan - deyə Santaya yaxınlaşmaqda olan Əfqan dilləndi.

- Əlimi yovşandan çəksəm, dərə aşağı yuvarlanmağımın qarşısını heç nə ala bilməyəcək.

- Döz, Santa – deyən Əfqan Mətinə göstəriş verdi. - sən yana tərəf çəkil və sağ əlini mənə ver.

Mətin göstərişə əməl edib, yana tərəf iki addım atdı, sonrada sağ əlini Əfqana tərəf uzatdı. Əfqan müəllim sol ayağını yovşan koluna dirəyib sağ əli ilə Mətinin ona tərəf uzanan əlindən tutdu. Sonra da qoşalülə tüfəngini sol əli ilə Santaya uzatdı. Bir neçə dəfə Lui sağ əlini koldan buraxıb, tüfəngin lüləsindən tutmaq istədi. Amma ayağı dərəyə sallandığından, qamətini saxlaya bilmədi.

- Bir az cəsarətli ol, sağ əlini ehmalca buraxıb, tüfəngin lüləsindən yapış, - deyə bu dəfə Mətin dilləndi. Nəhayət, Santa çağırışlara risk etməklə cavab vermək istədi. Ancaq sağ əlini yovşan kolundan çəkmə-

siylə dərə aşağı yuvarlanması bir oldu. Bu anda Əfqan özünü Santanın arxasınca atmaq və dostunu yıxılmaqdan xilas etmək istədi.

- Sən nə edirsən, Əfqan müəllim, artıq Santanı xilas etmək mümkün olmayacaq, - deyən Mətin sağ əli ilə onun əlindən tutmaqla kifayətlənməyib, sol əli ilə də gödəkcəsinin yaxasından möhkəm yapışdı. Əfqan dərəyə tərəf boylanıb, - Santa, Santa, eşidirsənmi məni, - deyərək var gücü ilə bir neçə dəfə qışqırdı. Santadan cavab eşidilməyincə, - bu nə müsibətdir, bu nə bəladır biz düşdük, Mətin? - deyə ağlamsınırmış kimi xalası oğluna baxdı.

Mətin sağ qolu ilə sol gözündən yanağı aşağı süzülən göz yaşını və yağış damcılarını silib dedi:

- Əfqan müəllim, olacağa çarə yoxdur. Bizim də həyatımız təhlükədədir, tez buranı tərk etməliyik.

- Sonra necə olsun, Santanı buradamı qoyaq?

- Başqa çıxış yolu yoxdur, gedək, İncilli çəmində köç salan çobanların yanına, onlardan kömək istəyək.

- Ora sən tək gedəcəksən, - deyən Əfqan Mətinlə



üzbəüz dayanıb, onun yaxasından tutdu.

- Eşit Mətin, mən dərəyə enirəm. Sən isə kömək üçün ya Məşədi Əlibaba bağlarındakı, ya da İncilli çəmindəki çobanların yanına gedərsən.

- Özünü təhlükəyə atırsan, Əfqan müəllim. Görürsən ki, getdikcə güclənən sel suları dərəyə tökülür.

- Mətin, mən Santa ilə çörək kəsmişəm, o, mənə, mən isə ona qardaş demişik. Birlikdə nəinki Fransada, Azərbaycanda, ümumilikdə, Avropanın 20 şəhərində parfüm mağazalar şəbəkəsi yaratmışıq. Mən kəsilən çörəyə xəyanət edə bilmərəm. Həyatım bahasına olsa da, dərəyə enib, onun taleyi ilə maraqlanacağam.

- Heç olmasa, mən burada qalım.

- Yox, mən aşağı enirəm, sən isə kömək üçün çobanların yanına gedirsən.

Əfqan sözünü bitirib, sağ əlini Mətinin çiyninə qoyub dedi:

- Söz ver, and iç ki, xahişimi yerinə yetirib çobanların yanına gedəcəksən.

Mətin cavab verməyə macal tapmamış yenidən

Əfqan dilləndi:

- Xalaoğlu, əgər bəxtimiz gətirməsə, ölsək, heç olmasa meyitimizi tapıb elin-obanın adət-ənənəsinə uyğun qaydada dəfn-kəfin edərsiniz.

Mətin indi Əfqanın nə fikirləşdiyini başa düşdü. Yanaqlarından süzülən göz yaşlarına əhəmiyyət vermədən üzünü ona tutub dedi:

- Əfqan müəllim, qurbanın olum, ölüm haqqında danışma, onsuz da biz yetimliyin, sahibsizliyin acısını dadmışıq, yenidən bizə acılardan danışma.

Ondan iyirmi yaş kiçik olmasına baxmayaraq, Mətinlə yaxın dost, sirdaş kimi davranan Əfqan onun boynunu qucaqlayıb:

- Yaxşı, kişi ol, ölümdən sözgəlişi dəm vurdum. Aşağı enib Santanı xilas edib evimizə gedəcəyik. Hələlik isə, sən İncilli çəminə, çobanların yanına get...

Mətin başa düşdü ki, Əfqan son sözlərini, sadəcə, ona ürək-dirək vermək üçün deyir.



***

Baş çoban Xanış kişi aramsız yağan yağışdan narahat olduğundan mal-qaranı rahatlamağı uşaqlara etibar etməyib, özü tövləyə gəlmişdi.

- ...34, 35, 36, hə, iribuynuzlu mal-qara yerindədir, - deyə öz-özünə söyləndi. Sonra da qapıdan içəri daxil olmaqda olan Xalidə üzünü tutub dedi:

- Oğul, bu leysan dağıntılar yarada bilər. Ona görə də, təcili Vaqiflə Vahidi götür, tindəki heyva ağacının dibindən qazılan arxı talaya doğru 7-8 metr qazın.

- Bu yağışda arx qazmaq çox çətin olar - deyə Xalid yağışdan qorunmaq üçün əyninə geyindiyi kombinzonun sinəsindən süzülən yağış suyunu çırpa-çırpa söyləndi.

- Başqa çıxış yolu yoxdur. Arx qazılmasa, bu gecə sel qoyun aulunu, mal tövləsini, hətta yaşadığımız evləri də sulara qərq edib dağıdacaq.

“Ağlına gələn başına gələr” deyiblər. Xanış kişi sözünü tamamlamamış Vaqif tövlənin qapısından içə-

ri girər-girməz - dədə, ay dədə, sel quzuların damını dağıtdı. Vahid orada olan 15 baş quzunu çıxartdı. Nə edək? - deyə tövşüyə-tövşüyə məsləhət istədi. Eşitdiyi xəbərdən narahat olan Xanış kişi - tez olun, arx qazmağa! - deyə hövlanak səslə Xalidə və Vaqifə göstəriş verdi. Dərhal da tövlə qapısının önündəki beli götürüb yarımçıq qalan arxa doğru qaçdı. Vaqif və Xalid də hərəyə bir bel götürüb, Xanış kişinin arxasınca addımladılar. Vahid atasının əsəbi səslə neçə gündür deyirəm ki, bu arxı qazıb, talaya çatdırmaq lazımdır. Amma başısoyuqluq edib, mənim sözümü söz etmirlər, - deyə söylənməsini eşidib qoyun aulundan çıxıb, heyva ağacına sarı boylandı.

- Bu Xalidin huşu haralardadı, bilmək olmur da, - deməklə dədəsinə haqq qazandırdı. Sonra da tələsik addımlarla yaxınlaşıb, - dədə, sən get evə, biz qazarıq, - deyə dədəsinin əlindəki belin dəstəyindən yapışdı.

- Yox a bala, onsuz da səhərdən çöldə qoyun-quzunun arxasındasan. Bu yağış da səni lap əldən salıb. Ona görə də, get alaçığa, anan yemək-içmək hazırla-





yıb, ye, əynini də dəyiş.

- Eh dədə, ötən il əsgəri xidmətdən gəldiyim günlərdə yaxınlıqdakı Qozlu çayının daşması yadından çıxıb? Neçə gün əziyyət çəkdik? O əziyyətlərin yanında bu nədi ki?

- Yaxşı, ay oğul, söz güləşdirmə, nə deyirəmsə, ona əməl et! - deyərək, Vahidə acıqlandı. Sonra da üzünü Xalidə tutub dedi:

- Selin qarşısını almaq çətin olacaq. Nə edək?

Arx qazmaqda davam edən Vaqif əl saxlayıb qamətini düzəltdi. Aşıb-daşan sel sularına baxıb dedi:

- Tövlənin arxasındakı peyin kisələrini gətirib, alaçığın önündən talaya qədər düzmək lazımdır.

- Axı Mahal müəllim o peyini Bakıya, bağ evinə aparmaq üçün hazırlatmışdı.

- Peyin qurtarmadı ki, yağış kəsər, yenidən kisələrə peyin dolduraraq.

Xanış kişi ağlabatan təkliflə razılaşmaqdan başqa çıxış yolu görmədi:

- Onda tələsmək lazımdır, sel daha da güclənir, -



deyərək, peyin kisələrini gətirmək üçün tövləyə tərəf addımladı. Himə bənd imiş kimi Xalid və Vaqif də Xanış kişinin ardınca addımladılar. Kisəni çiyninə qoyan Xanış kişi alaçığın yanına çatanda, onu yerə qoydu. Çobanlar gözlənilən təhlükənin qarşısını almaq üçün o dərəcədə cəld hərəkətlə işləyirdilər ki, itlərin hürməsinə, uzaqdan: - Ay ev yiyəsi, kimsə məni eşidirmi? - çağırışlarını eşitmirdilər. Nəhayət, Vaqif peyin kisəsini heyva ağacının önündə yerə qoyub: - Dədə, kimsə bizi çağırır, - deyə səs gələn tərəfə boylandı.

- Hə, a bala, get gör kimdi?

Xalid üzünü səs gələn tərəfə tutub:

- Yaxşı qışqırma, kar deyilik, gəlirik, - deyərək, yağış selləməsindən  çətin görünən qaraltıya tərəf əl-qolunu ölçə-ölçə acıqlandı. Sonra da: - Yəqin Məşədi Əlibaba meşəsində köç salan çobanlardandır. Bu vaxt xeyirliyə gəlməzlər, - deyə öz-özünə deyindi. Sən də adət etmisən deyinməyə tələsmə, gəlsin, görək kimdir, nə istəyir - deyə Xanış kişi dilləndi. Vaqifin arıq, uzun boylu, sarışın bir gənc oğlanla geri qayıtması Xalidin

fərziyyələrini puça çıxardı.

- Salamun-əleykum, yorulmayasınız, - deyə Mətin titrək səslə salam verdi.

Tamam suyun içində olan bu yad adama təəccüblə baxan Xanış kişi, - əleykum-salam, a bala, kimsən, bu yağışda-boranda buralarda nə gəzirsən?

- Əmi, başımız dərddə, işimiz müşküldədir. Köməyinizə ehtiyacımız var. Nə istəyirsiniz, pul-para, canımı belə sizlərə girov qoyaram...

Xanış kişi aşağı əyilib selin gətirdiyi kötüyü götürüb, peyin kisəsinin üstünə qoyub dedi:

- A bala, bazarlığı sonraya saxla, əl-qərəz elə görək nə baş verib?

- Dostumuz dərəyə yuvarlanıb, - deyə nəhayət, özünü ələ alan Mətin fikrini çobanlara çatdıra bildi.

Xalid hövsələsizlik edib:

- Bu yağışda dağda nə gəzirdiniz ki, dərəyə də yuvarlanasınız?

Mətin acıqla onu süzən Xalidə imdad dolu nəzərlə baxıb dedi:





- Qardaş, gözləmirdik yağış yağacaq, biz də bəlaya düçar olacağıq.

Xanış kişi Xalidə göz ağardıb, üzünü Mətinə tutub dedi:

- Adın nədir?

- Mətin.

- Mətin, bala, indi bizdən nə istəyin var?

- Dərəyə enib, onlara kömək etmək lazımdır.

Bu arada Vahid alaçıqdan çıxıb, söhbət edənlərə yaxınlaşdı.

- Sizsiniz? Salam, xeyir ola, - deyə mehriban şəkildə Mətinlə görüşdü.

- Deyəsən, siz tanışsınız, - Xanış kişi dilləndi.

- Hə dədə, qoyun otararkən, dağda tanış olmuşuq.

Mətin, deyəsən, sual-cavabdan yoruldu. Üzünü Xanış kişiyə tutub, yalvarış dolu səslə dedi:

- Əmi, qurbanınız olum, kömək edin.

- Oğul, əlimizdən nə gəlirsə, kömək edəcəyik. İndi isə keçin alaçığa, əyninizi-başınızı dəyişin, isti çay için, biz də gəlirik. Oturub bir-iki dəqiqəlik də olsa, onları



xilasetmə tədbirləri barədə məsləhətləşmə apararıq.

- Əmi, əzizlərim dardadır, məni onlar düşündürür, başqa heç nə.

- Yaxşı, deyə bilərsənmi hansı istiqamətdədirlər?

Mətin üzünü dağlara tərəf çevirib, dumanlı-çənli boz zirvəni əli ilə göstərdi.

- Dünən rastlaşdığımız yer yadındadırmı? - deyə Vahid Mətinə sual etdi.

- Bəli, bəli, yadımdadır. O yerdən 30-40 metr sağa doğru.

- Bildim dədə, "Pırçik"lə "Çıraqlı" pirlərinin aşağı hissəsi, İncə dərəsi deyilən yer.

- Ora sıldırım qayanın ətəyidir ki, - deyə Xanış kişi Xalidə nəzər yetirdi. Bununla sanki "Sən nə fikirləşirsən?" demək istədi.

Eyhamı başa düşən Xalid:

- Ümidsiz olmağa dəyməz dədə, hər nə olursa-olsun, ora getməliyik.

Bu sözlərdən Mətinin gözlərində sanki ümid qığılcımı yandı. Bir an əvvəl faydasız insan hesab etdiyi

Xalidi mərhəmətli bir adam kimi ürəyində alqışladı.

- Hə, düz deyirsən, - deyə Xanış kişi Xalidin təklifi ilə həmrəy olduğunu nümayiş etdirdi. Sonra da Mətinə təkid etdi.

- Biz işimizi yekunlaşdırmaq üzərəyik. Siz Vahidlə alaçığa keçin, heç olmasa bir stəkan çay için.

Etiraz etməyin mənasız olduğunu başa düşən Mətin təklifə tabe olmaq məcburiyyətində qaldı. Vahidin arxasına düşüb alaçığa doğru addımladılar. Qapını açıb içəri daxil olarkən, ilk eşitdiyi söz - Allah bizlərə, dünyamıza salamatlıq nəsib et, - duası oldu. İçərisi palçıqdan suvanıb ağardılmış alaçığın yuxarı küncündə 50-55 yaşlarında bir qadın namazını yekunlaşdırıb, əllərini göylərə qaldıraraq Allaha dualar edirdi.

Mətinin ürəyindən keçdi ki, kaş o da namaz qılaydı və Allaha Əfqan və Santa üçün dua edə biləydi. Namazını bitirib ayağa duran gözəl, nurani simalı qadın Mətini görüncə: - xoş gəlmisiniz, keçin əyləşin, indi sizə çay gətirərəm.

- Əziyyət çəkməyin ana, gedəcəyik.



- Üzündən təlaşlı, narahat görünürsən, bir çətinliyinmi var?

- Var anacan, var, özü də ağırından. Dostumuz dağdan sürüşüb dərəyə aşıb. Başqa bir yaxınımız da onu xilas etmək üçün dərəyə enib. Mən də onlara kömək edilməsi üçün buraya gəlmişəm.

- Uşaqlıq etmisiniz bala, bu yağışda da dağa-daşa çıxmaqmı olar? Nə isə, olan olub, bəs indi nəyi gözləyirsiniz?

Vahid gah qınayıcı, gah sualedici fikirlər söyləyə - söyləyə onların qarşısına çay qoyan anasının sualına cavab verməli oldu.

- Dədəmgil həyətdə selin qarşısını almaq üçün bənd qururlar...

Vahid sözünü bitirməmiş Vaqif içəri daxil olub dedi:

- Dədəm deyir ki, qaş qaralır, qaranlıq düşməmiş dağa qalxmaq lazımdır, əlli tərpənsinlər.

Mətin çaya görə, qadına təşəkkür edib, ayağa qalxdı. Üzünü Vahidə tutub dedi:

- Mən hazır, Vahid, qardaş, çıxaq.

- Yaxşı, tələsmə, çıxart köynəyini, bunları əyninə geyin, narahat olma təzədir, ötən həftə Bakıdan almışam, - deyən  Vahid əlindəki köynəyi və yun polveri ona uzatdı. Mətin bərk islandığından, canında bir üşütmə hiss edirdi. Ancaq Əfqanla bağlı narahatçılığı bütün daxili hisslərini alt-üst etmişdi. Vahidin təklifini rədd etməklə onun xətrinə dəymək istəmədi. Nişan verilən arxa otağa keçib gödəkcəsini, daha sonra köynəyini və yun polverini çıxarıb, səliqə ilə alaçığın küncünə qoydu. Vahidin verdiyi köynəyi və polveri geyinib, otağa qayıtdı. Vahid yenidən dilləndi: - Al bu sukeçirməz kombinzonu da əyninə geyin.

Bu məqamda qadın bir stəkan da  çay süzüb, Mətinə uzatdı:

- Ay oğul, ayaqüstü də olsa iç, canın qızsın.

- İçərəm anacan, içərəm. Yola çıxırıq, bir xahişim var, bizlər üçün dua et. Deyirlər mömininin dualarını Allah tez eşidər. Allah xatirinə, mömin ana, o yeri-göyü, yerlə göy arasındakı bütün canlı-cansızın yaradıcısı olan Allahdan təvəqqə et ki, Əfqan xalaoğlumu və



ailəmizin dostu Santanı birliyinə bağışlasın, onları hifz etsin.

Qadın ona ümid verdi:

- A bala, daşlı qayalarda ağaclar bitirən, susuz səhralarda yaşıllıqlar salan o uca Allah inşaallah ki, İncə dərəsində köməksiz vəziyyətdə olan dostlarına yardımçı olar.

İsti otaqdan həyətə çıxanda Mətinin canına bir üşütmə düşdü. Çətinliklə də olsa, özünü ələ alıb Xanış kişiyə yaxınlaşdı:

- Nə etmək fikrindəsiniz, - deyə ümidli nəzərlə sual etdi.

Xanış kişi kəndir topasını kisəyə yığı-yığa dedi:

- Min fikir bir borcu ödəməz, oğul. Dağa çıxandan sonra orada nə etmək lazım olması barədə qərar verərik, hələlik isə haydı, tərpənin.

Mətin bir söz deməyib dağa doğru istiqamət aldı. Taladan çıxıb meşə ərazisinə daxil olmağa az qalmış arxadan səs eşidildi:

- Dədə, mən də sizinlə gedirəm, yox demə, - yü-

yürə-yüyürə onlara yaxınlaşmaqda olan Vaqif dilləndi.

Xanış kişi geri çevrilib, oğluna acıqlandı:

- Yağış kəsmək bilmir, qarşıda isə bizi keçilməsi çətin olan dağ silsiləsi gözləyir. Sən isə bu sədləri keçməyə hələ uşaqsan, qayıt geri. Vahid də qardaşının xətrinə dəyməmək üçün sakit səslə dedi:

- Vaqif, dədə düz deyir, sən geri qayıtsan yaxşı olar, ana da təkdir.

Dədəsinin ardınca Vahidin də ondan geri qayıtmasını israr etməsi Vaqifi, könülsüz də olsa, alaçığa qayıtmağa məcbur etdi. Yağış isə kəsmək bilmirdi. Əksinə, daha da güclənmişdi. Boz dağın ətəyindən meşəyə gur sel suları axırdı. Mətin gərgin bir durumda Boz dağın zirvəsinə qalxdıqca, Allaha yalvarırdı ki, kaş gedib görəydi ki, Əfqan müəllim Lui Santanı dərədən çıxarıb, iri qayanın altında onları gözləyir. Əgər onlara bir şey olsa, Bakıya necə qayıdacaq, qohumlara nə deyəcək? - ürəyində öz-özünü danladı. Dərhal - Allah eləməsin - deməklə bəd fikirləri özündən uzaqlaşdırmağa çalışdı. Bu məqamda Xalidin səsi eşidildi.



- Elə bil bu yerlərdə yel əsib, qoz tökülüb. Çatan qaçır Çayqovuşan meşəsinə, Boz dağın ətəyinə, hərənin də əlində bir tüfəng, vallah, bu dövlət lap başını itirib.

Vahidin səsi eşidildi:

- Dövlət neyləsin ki?

- Ə, xəbərin var ki, indi ceyranın, cüyürün bala verən vaxtıdı? Yəni bunu dövlət bilmir. Niyə qarşısını almır? Çünki qadağa varlı adamlara, vəzifəli şəxslərə sərf etmir.

Mətin atmacaların onlara da ünvanlandığını başa düşdüyündən dedi:

- Xalid qardaş, biz kəklik, ördək və qaz ovuna çıxmışdıq. Kamıllı bağında çadır qurmuşuq. Orada vurduğumuz 3 ördək, 4 ədəd də kəklik var.

Xalid yenidən dilləndi:

- Qardaş, sizə görə demirəm. Sadəcə, bizim kimi biçarələrin rahatlığı pozulub. O gün Bakıda vəzifədə olanlardan biri dağda otlayan keçilərimizi gülləyə tutub. Yaxşı ki, Vaqif həmin məqamda su içmək üçün alaçığa gəlibmiş, yoxsa uşağa da xətər yetirə bilərdi.





Eşitdiyi xəbərdən təəccüblənən Mətin qeyri-ixtiyari sual etdi:

- Dediyin o vəzifəli adam etdiyi yaramazlığa necə haqq qazandırdı?

- İçkili olduğundan keçiləri dağ keçisi biliblər.

- İçkili olublar? - Mətin yenidən sual etdi.

- Hə, amma o harın vəzifəli adam başa düşmür ki, ovçuluğun qızıl qaydalarından biri də ova içkili getməməkdir.

- Ziyanı ödədimi?

Bu dəfə Xanış kişi dilləndi:

- Təklif etdi, amma biz istəmədik. Üç keçimizi vurmuşdu. Biri yaralı olduğundan özümüz yedik. İkisi isə bıçağa gəlmədi, itlər yedi.

Bu anda Mətin ayaq saxlayıb özündən asılı olmayaraq:

- Əfqan müəllim, Əfqan müəllim, Santa, Santa, - deyə var gücü ilə çağırdı. Səs gəlmədikdə, yenidən çağırdı. Bu hal iki dəfə təkrarlandı. Hövsələsizlik edən Xalid, - özünü yorma, dediyin yerə az qalır, dayan-

maqla vaxt itiririk, tələs gedək, - deyə Mətini yolunu davam etdirməyə səslədi. Mətinin nişan verdiyi dərəyə yaxınlaşdılar. Öndə gedən Xanış kişi əlində fənər asta addımlarla arxadan gələn Vahidə dedi:

- Oğul, ayağının altına bax, diqqətli ol.

- Narahat olma, ay dədə, mən səndən nigaranam.

Xalid söz atdı:

- Maşallah, dədəmiz turp kimidir, yerə vursan, yer dağılar. Sonra da - tfu, tfu, pis gözlərə, - deyib, dədəsi ilə fəxr edirmiş kimi qürrələndi. İri qara daşın yanına çatanda Mətin dedi:

- Bu daşın yuxarısı yaxınlarımın düşdüyü dərənin önüdür.

Mətinin kədərli, solğun çöhrəsinə baxan Xalid onun ümidlərini alt-üst edən fikir söylədi:

- O yer əlçatmaz, qorxulu yerdir. Onların sağ qala biləcəklərinə ümidim azdır.

Xanış kişi Xalidə acıqlandı:

- Bəsdir, zəhlətökən atmacalarınla uşağı üzdün.

- Hər şeyə hazır olmalıyıq, dədə.



- Oğul, ümid sonda ölür. Allahın izni olmadan ağacdan bir yarpaq belə düşməz.

Xanış kişinin arxasınca addımlayan Mətin:

- Oğlunuz çox sərbəst, həm də dəlisovdur - dedi.

Xanış kişi gecənin qaranlığında gülümsədi:

- A bala, həyatda iki cür dəli var: birincisi həqiqi dəli, ikincisi isə dəli kimi görünən ağıllı. Xalid ikincilərdəndir.

Dağın ətəyini gülüş səsi bürüdü. Xalid pərt olmadı, əksinə, gülənlərə qoşulub ürəkdən güldü. Sonra da dedi:

- Dəli kimi görünən oğlun Əfqanıstanda qanlı-qadalı döyüşlərdə şücaət göstərib, Qarabağ döyüşlərində ad çıxarıb. Ceyranın ölümü isə məni mənən sındırdı, daxilən əzdi.

Vahid müdaxilə etdi:

- Xalid, axı biz danışmışdıq ki, bu mövzuya bir də qayıtmayacağıq. Sən isə...

Üzünə düşən yağış damcılarını sağ əlinin içi ilə silməyə çalışan Xalid kövrək, ağlar səslə dedi:

- Qardaş, bu, elə dərd, elə yaradır ki, onun məlhəmi yalnız ölümdür.

Xanış kişi söhbətin gözlənilmədən qanqaraldan mövzuya yönəlməsindən narahat oldu. Söhbəti dəyişmək üçün Mətinin eşidə biləcəyi uca səslə dedi:

- A bala, Mətin, deyirdin onlardan biri dağlara, daşlara, qayalara, uca zirvələrə bələddir?

- Bəli, Xanış əmi, Əfqan müəllimin uşaqlığı axar çayların sahillərində, sıldırım qayaların qoynunda keçib.

- Elədirsə, ona xətər toxunmaz. Fransız üçün isə onu demək çətindir. Ən yaxşısını isə Allah bilər.

Mətin geri çevrilib Vahidə:

- Qardaş, o fənəri ver mənə - dedi.

- Buyur, - deyə Vahid əlindəki fənəri Mətinə uzatdı.

Mətin fənəri alıb, işığını sağa-sola tuşladı. Bir nöqtədə saxlayıb:

- Buradır, Xanış əmi! - deyib üzünü dərəyə tərəf tutub, var gücü ilə qışqırdı: Əfqan müəllim, Santa, eşidirsiz məni?



Xalid Mətinin hay-həşirinə, qışqırığına fikir verməyib, dərəyə enməyə hazırlıq gördü:

- Dədə, kəndiri belimə bağlamağa ehtiyac yoxdur. Fənər olsa kifayət edər.

- Söz güləşdirmə, kəndiri belinə bağla, - deyən Xanış kişi səsini qaldırdı.

Vahid Xalidi dürtməklədi, asta səslə dedi:

- Nə deyir elə də, adət etmisən öz bildiyini etməyə.

Xalid bir söz deməyib, kəndirin ucunu belinə bağladı və aşağıya enmək üçün ilk addımını atdı...

***

Cavad Tahirzadə arxaya söykənib, dərindən nəfəs aldı. Bir-iki dəqiqə dinib-danışmadan gözlərini pəncərəyə zillədi. Onu xəyaldan yenicə otağa gətirilən Qəzənfərin xırıltılı səslə öskürməsi ayırdı. İki əlini stola dayayıb, amiranə şəkildə, - ayə, qoduq, dünən deyirdin, it küçüyü Əfqan bu gün Bakıya gələsidir, nə oldu? - deyə döyülməkdən sifəti göyərmiş Qəzənfərə ikrah

dolu nəzərlərlə baxdı.

Qısa sükutdan sonar Qəzənfər asta səslə dedi:

- Rayona gedəndə demişdi ki, bu gün günortayadək gələcək. Həm də bu gün axşam "Parfum of Frans" şirkətinin rəhbəri Lui Santa Parisə uçmalıdır.

- Onu düz deyirsən, o Fransa agentinin bu gün axşama bileti var. Amma bizimkilər araşdırıblar ki, onlar hələ Bakıya gəlməyiblər. Rabitə sistemində də onların harada olduğunu müəyyənləşdirmək mümkün olmayıb.

Qəzənfər müəllim MTN müstəntiqinin mobil telefonlar vasitəsi ilə kimin harada olduğunu müəyyənləşdirə bildiklərini anladığından, təəccüblənmədi. Boğazını iki-üç dəfə xırıldadıb, zərbələrin təsirindən göyərmiş sifətinə əl gəzdirərək sakit səslə dedi:

- O, mütləq bu gün gələsidir.

- Onların rayonda qalmağa ev-eşikləri, yaxud dost-tanışları varmı?

- Bildiyim qədər Əfqan müəllimin ova getdiyi o rayonda nə evi, nə də dostu yoxdur.



Cavad başını qaldırdı və qəzəblə dilləndi:

- Sabah axşama qədər Əfqandır, nə zibildir, üzə çıxmasa, nəslinizdə bir başı papaqlı qalmayacaq, hamısını zirzəmiyə atacağıq, rəisin əmridir, başa düşürsən?

Qəzənfər müstəntiqin səsini qaldırmasından narahat oldu. Düşündü ki, Cavad yenidən ona yaxınlaşıb küçə söyüşləri ilə təhqir edəcək, bununla da kifayətlənməyib qarnına bir təpik, sifətinə yağlı bir şillə vuracaq. Ona görə də, sadəcə, qaşlarını düyüb, sakit nəzərlərlə hadisələrin sonunun necə olacağını gözlədi.

- Ayə, qoduq, it küçüyü, eşitmirsən səninləyəm, yoxsa dilini açmaq üçün məngənədə əzilmək istəyirsən?

Təhqirlərə dözməyən Qəzənfər müəllim başını qaldırıb müstəntiqin qırmızı sifətinə baxdı. Sonra asta səslə dedi:

- Təhqirlər nəyə lazım, mən hacıyam, özü də atanız yaşdayam...

- Allah eləməsin ki, mənim atam sizin kimi əclaflardan olsun. Ancaq özünüzü düşünürsünüz, milyonlar

yığmısınız. Nəyin hesabına, təbii ki, oğurluğun, talançılığın.

- Cavad müəllim, biz oğru deyilik, halallıqla bir parça çörək qazanırıq.

- Ə, qoduq, vergidən yayınmaq üçün yüz minlərlə manat maxinasiya etməmisiniz? Gömrük rüsumunu az ödəmək üçün malın dəyərini aşağı qiymətlərlə göstərməmisiniz? Sosial müdafiəyə və vergiyə az ödəniş etmək üçün işçilərin yarıdan çoxu ilə əmək müqaviləsi də imzalamamısınız.

Qəzənfər müəllim:

- Şirkətimiz sahibkarlığın inkişafı üçün yaradılan bərabərhüquqlu şəraiti yüksək qiymətləndirir. Fəaliyyətimizi də qanunvericiliyin tələblərinə uyğun qururuq.

- Ə, düdük, mənə nə moizə söyləyirsən? Azərbaycanda manatın zibilə dönməsindən sui-istifadə edib, kosmetika və parfümeriya məhsullarının pərakəndə satış şəbəkəsində qiymətləri kəskin surətdə artırmağınıza nə ad verirsən?



Qəzənfər bir anlıq cəsarət nümayiş etdirib, - manatın hörmətdən düşməsi, özəl sektorun çökməsi sizin soyğunçuluğunuzun nəticəsidir, - demək istədi. Amma bu ahıl yaşında cəsarətli sözlərinin cavabının ağır olacağından ehtiyat etdiyindən, sadəcə, - biz Fransadakı partnyor şirkətdən kosmetika və parfümeriya mallarını avro və dollarla aldığımızdan, qiymətləri cüzi də olsa, artırmağa məcbur olduq, - deməklə kifayətləndi.

- 60 faiz artımı cüzi hesab edirsən?

- 2-2,5 dəfə artımla müqayisədə cüzi hesab etmək olar. Bizdə bir ətirin orta qiyməti 20-55 manat arasında dəyişir. Əslində isə bu qiymət 110-120 manat olmalıdır.

Qaba hərəkətindən əl çəkməyən Cavad Tahirzadə kinayə ilə dedi:

- Ay mən deyən, sən dedin mən də inandım, hay-hay... Ə, necə olur ki, ötən illə müqayisədə bu il mal dövriyyəniz 100 faiz artıb? Gəlirləriniz də 2 milyondan 4 milyona yüksəlib?!

Qəzənfər izahat verməyə məcbur oldu:





- Şirkətimizin dövri fəaliyyəti ilə bağlı bütün sənədlər sizin əlinizin altındadır, baxa bilərsiniz. Heç bir saxtakarlıq və qanunsuzluq yoxdur.

Qəzənfərin dirəniş göstərdiyini görən müstəntiq hücuma keçdi:

- Ötən ilin yayında Fransanın Saint Malo şəhərindən, ümumilikdə, 2 milyon manat mal gətirmisiniz, amma gömrük bəyannaməsində 570 min manat göstərmisiniz. Eyni maxinasiyanı ötən ayın 16-da təkrar etmisiniz. Liondan 1 milyon manatlıq kosmetika gətirmisiniz, amma yenə də gömrük bəyannaməsində 245 min manat göstərmisiniz. Bu, qaçaqmalçılıq deyilmi? Bu, cinayət deyilmi? Buna baxmayaraq, biz sizə qarşı humanistlik göstərir, əməllərinizi bağışlayırıq.

- Nəyin qarşılığında? - deyə Qəzənfər özündən asılı olmadan sual etdi.

- 2 milyon manat və 20 qutu Versace, Creed, Loris Azoraro, Hermes, Gucci, Versace, Hüqo Boss, Sisley ətirləri verəcəksiniz.

Qəzənfər bu yaramazın dövlətin resurslarına arxa-

lanıb reketçilik etməsinə ürəyində acıdı. Düşündü ki, Tahirzadə kimilərin kütləvi xarakter daşıyan qəddarlıqlarının qarşısı alınmasa, özəl sektor tamamilə çökəcək.

- Ə, səninləyəm, nə qərara gəldin? - deməsi Qəzənfəri xəyaldan ayırdı. Bir anlıq onun insanlıqdan uzaq olan sifətinə nəzər yetirib dedi:

- Mən qərar vermək gücünə malik deyiləm.

- Deməli, iki gündür boğazımızı yırtmağımız boş yerə olub?

- Niyə ki? Əfqan müəllim gəlsin, birlikdə tələbinizi dəyərləndirərik.

- Ə, cüvəllağı, indi deyirsən sizi buraxaq? - deyə Tahirzadə söz atdı.

Qəzənfər xahiş etdi:

- Məni həbs edin, məhkəməsiz-filansız, barmaqlıqlar arxasına göndərin. Lap istəsəniz güllələyin, amma uşaqları buraxın.

- Ə, qoca köpək, kimə gəlirsən? Haqqınızda cinayət işi qaldırılıb, ittiham irəli sürülüb.



Qəzənfər təhqirlərə dözə bilmədiyindən, - pulumuzu da, canımızı da alırsınız, özümüzü də söyüb, təhqir edirsiniz? Qorxun Allahdan, axirətinizdən - sərt şəkildə bildirdi. Müstəntiqin susduğunu görüncə, əlavə etdi: - Mən böyük bir nəslin ağsaqqalıyam, özüm də hacıyam...

Tahirzadə onun sözünü kəsib kinayə ilə dedi:

- Ə, hansı hacılardansan, o hacı pivəsi içən, hacı kolbasası yeyən, yoxsa 20-25 yaşlı qızlarla kef edən hacılardansan?

Tahirzadə fikrini tamamlamamış yaxınlaşıb Qəzənfərə sağ əlini uzadaraq, - mən ölüm vur bura ey, əsl mən deyən lotulardansan, - deyə onu məsxərəyə qoydu. Tez də yerinə qayıdıb oturdu, ciddi görkəm alıb sərt şəkildə dedi:

- Ə, lotu hacı, bura teatr səhnəsi deyil ki, aktyorluq məharətini ortaya qoyub, şou yaradasan. Mən rəisimin tələbini sənə çatdırdım. İndi isə rədd ol zirzəmiyə.

Müstəntiq ultimativ tələbini sona çatdırıb, telefonla harasa zəng edib, - bunu aparın stanoka, sonra da sa-

bah axşama qədər yemək-içmək vermədən saxlayın – deyə tapşırıq verdi.

Qəzənfər zirzəmidəki mini-həbsxanada onu hansı cəzalar gözlədiyini bilsə də, buna əhəmiyyət verməyib, son dəfə cəhd etdi:

- Novxanıdakı bağ evimi Ayazla Şamilin buraxılması müqabilində sizin adınıza sənədləşdirə bilərəm.

Eşitdiyi təklifə laqeyd qalmayan müstəntiq yenicə içəri girib Qəzənfəri sürüyüb aparmağa hazır olan iki idmançı görkəmli gəncə üzünü tutub dedi:

- Siz bir dəqiqəlik gözləyin.

Amiranə tələbi eşidincə idmançı görkəmli MTN əməkdaşları qapını açıb dəhlizə çıxdılar.

- Sözündən qaçsan, bütün nəslini oda atıb yandırarıq. General zarafatı xoşlamır, - müstəntiqin sərt sözləri eşidildi.

- Onların üzərindən bütün ittihamlar götürülsə, vədimə əməl edəcəyəm. O bağ evi mənimdir. Şirkətin sahibi isə Əfqan müəllimdir.

Müstəntiq dəhlizdə onun əmrini gözləyənləri səslə-



di. Qəzənfər aparılarkən üzünü müstəntiqə tutub dedi:

- El məsəlidir, "hər işi tutdun, heç olmasa insafı əldən qoyma".

Cavad Tahirzadə tövrünü pozmadan əlini yelləyib, - cəhənnəm ol burdan, - dedi. Yerində əyləşincə, daxili telefon zəng çaldı. Danışan mühafizəçi idi. Cavad Tahirzadə, - Kim? Milli qəhrəman Xasay Məhərrəmli? Oğlu Cabirin ölümü ilə bağlı? - deyə sorğu-sual etdi. Bir anlıq fikrə getdikdən sonra, - yaxşı gəlsin - mühafizəçiyə göstəriş verdi.

***

Boz dağın zirvəsindən axan sel suları İncə dərəsinə, ordan da İncilli cəminə, Acı çayına istiqamət alırdı. Aramsız yağan yağışın, qayalardan çırpına-çırpına yuxarıdan aşağı gurultulu səslə axması vahiməli vəziyyət yaradırdı. Mənzərəni seyr etdikcə, insanın bədəninə üşütmə gəlirdi. Lal-dinməz, sakit görünən ana təbiətin bu cür qəzəbli üzünün olduğunu düşündükcə heyrətlənirsən. Xalid fənərin işığını aşağı əyməklə cığır tapma-

ğa çalışırdı. Ancaq cəhdi əbəs idi. Sel suları bütün cığırları yuyub aparmışdı. Xalid ümidini ancaq ehtiyatlı hərəkət etməsinə bağladı. Adi ehtiyatsızlıq ona həyatı bahasına başa gələ bilərdi. Bu məqamda yuxarıdan səs eşitdi, deyəsən, dədəsi idi.

- Xalid, salamatçılıqdır?

Xalid sağ ayağını yanpörtü ardıc koluna dirəyib, başını yuxarı qaldırmaqla, - narahat olmayın, hər şey yaxşıdır, - deyə dədəsini nigarançılıqdan qurtarmağa çalışdı.

- Əfqangildən bir xəbər varmı?

Bu, Mətinin səsi idi.

Xalid cavab verməyə tələsmədi. Aşağıya doğru bir neçə addım atıb, fənərin işığını dərənin müxtəlif istiqamətlərinə tuşladı.

- Aha, deyəsən, qaraltı var, özü də tərpənir. Deməli, sağdılar, - deyə sevincək səslə öz-özünə pıçıldadı.

Deyəsən, aşağıdakılar fənərin işığını görmüşdülər. Kimsə zəif-zəif əl edirdi. Xalid də sağ əlini qaldırıb, - gəlirəm, bir dəqiqə də dözün, - deyə var gücü ilə qışqı-





rıb, aşağıdakını məlumatlandırmağa çalışdı. Sonra da başını yuxarı qaldırıb:

- Dədə, ay dədə, eşidirsiniz məni, aşağıdakıları görürəm, deyəsən, onlar sağdılar, - deyə bildirdi və bunu bir neçə dəfə təkrarladı.

Vahid qardaşının nə dediyini başa düşdü. Muştuluq alırmış kimi, üzünü Mətinə tutub dedi:

- Onlar sağdılar, Xalid belə deyir.

Eşitdiyi xəbərdən gözləri dolan Mətin üzünü qibləyə tutub, dizləri üstə yerə çökdü. Əllərini göylərə qaldırıb, - ilahi, sənin qüdrətin və qüvvətin qarşısında hər şey acizdir. Şükür böyüklüyünə, şükür kərəm və kəramətinə ki, bizi öz pənahında saxladın, - deyə ağlar səslə dodağında pıçıldadı. Sonra ayağa durub, yeni xəbərlər ümidi ilə gözlərini İncə dərəsinə dikdi.

Xalid artıq Əfqan müəllimə yaxınlaşmışdı:

- Vəziyyət necədir? Salamatlıqdırmı?

- Hələ ki, hə. Amma beş-on dəqiqə belə davam etsə, artıq bunu demək mümkün olmayacaq.

- Bunun olmaması üçün nə edək - deyə selə girib



ehtiyatlı addımlarla Əfqan müəllimə yaxınlaşmaqda olan Xalid sual etdi.

Əfqan müəllim – mənim bildiyim bir şey yoxdur – deməklə ümidsiz və çarəsiz bir vəziyyətdə olduğunu nümayiş etdirdi.

Bütün bədəni selin içində olan Lui Santa Əfqan müəllimin çiynindən tutub hərəkətsiz dayanmışdı. Hərdən - vay ayağım, öldüm, - deyə qışqırırdı. Xalidi görən kimi, onun gözlərinə sanki işıq gəldi.

- Kömək et, qardaş, son nəfəsimizdir, - deyə yalvarıcı tərzdə onu cəld olmağa çağırdı.

Əfqan müəllim dostunun səsindəki qorxunu hiss etdiyindən duyğulandı. Ona təskinlik vermək üçün:

- Mən öz canıma qıyaram, sənə xətər dəyməyinə imkan verməərəm, - deyə onu narahatçılıqdan qurtarmağa çalışdı.

Xalid isə bir az da yaxınlaşıb, fənərin işığını Əfqan müəllimin və Santanın üzünə tuşladı. Hər ikisinin simasındakı təşviş və vahimə hissi açıqca görünürdü. Əfqan müəllim xırıltılı, yorğun səslə, kimliyini bilmə-

diyi şəxsə vəziyyəti başa salmağa çalışdı:

- Santanın ayağının üstünə qaya parçası düşüb, onu qaldırmaq lazımdır, bacararsanmı?

Xalid:

- Allahın izni ilə, çalışarıq, - deyə ümidverici cavab verdi.

Sonra da suyun soyuq olmasına baxmayaraq, Santanın ayaqlarının yanında tam şəkildə yerə oturdu. Santanın ayaqlarına əl gəzdirdi. Sol ayağına əli toxunanda, Santadan dəhşətli qışqırıq qopdu. Xalid vəziyyətin ağır olduğunu dərk etdi. Amma fikirləşməyə vaxt yox idi. Nə yolla olursa-olsun, Santanın ayağını balaca, ağır qaya parçasının altından çıxarmalı idi. İlk öncə, əllərini qaya parçasının altına salıb Santanın qışqırmasına baxmayaraq, güc verdi. Bu cəhdini bir neçə dəfə təkrarladı, amma qaya parçası tərpənmədi. Ən dəhşətlisi o idi ki, yağış getdikcə güclənir və dərədə sel artırdı. Bir anlıq fikrə gedən, Xalid düşündüyünü tapıbmış kimi cəld hərəkətlə belinə doladığı kəndiri açıb aşağı əyildi. Qaya parçasının altından üst qatına tərəf iki dəfə kən-



diri doladı, sonra düyün vurdu. İpin son ucunu isə öz çiyninə bir dəfə dolayıb selin axınına doğru dörd-beş addım atdı.

- Əfqan müəllim, onun çiynindən möhkəm yapışın, qışqırmasına da fikir verməyin, - deyib ipi axına tərəf çəkmək üçün gücünü səfərbər etdi. Sonra da - Allah, Məhəmməd, ya Əli, - deyib var gücü ilə ipi çəkdi. Birinci həmləsi uğursuz olsa da, hiss etdi ki, qaya parçası yerindən tərpəndi. Sağ ayağını yerə möhkəm dirəyib, axan selin yarada biləcəyi növbəti dalğanı gözlədi. Yeni  dalğa Santanın ayağının üstündə olan qaya parçasının bərabərində olanda, Xalid növbəti dəfə ipi çəkdi. Bu dəfə qurduğu plan uğurlu oldu. Ancaq özünü ələ almasaydı, sel onu dərədən aşağı atacaqdı. Onu bəladan Santanın ayağının üstündən qaldırılıb boşluğa atılan qaya parçasının dərənin ortasında bitən yabanı ağaclara ilişməsi xilas etdi.

Özünü ələ alan Xalid belinə bağladığı kəndiri kənara atıb Əfqan müəllimin və ağrılardan qışqırığı aləmə yayılan Santanın yanına tələsdi. Əfqan təlaşla onları

ölümün pəncəsindən xilas edən Xalidə:

- Qardaş, kömək et, onu seldən kənara, bax, o daşın dibinə çəkək, ehtiyatlı ol, deyəsən, ayağı sınıb, - deyə məsləhət verdi.

Xalid nə qədər ehtiyatlı davransa da Santanın ayağından tutanda onun bağırtısı göylərə yüksətdi. Düşünmək yeri deyildi. İlkin yardım göstərilməli idi. Gecikmək sınmış ayaqda qanqrena yarada bilərdi. Xalid cəld hərəkətlərlə onun ayaqlarını əlinə alıb, Əfqan müəllimin nişan verdiyi daşın yanına çəkməyə çalışdı. Çətin olsa da, nəhayət, istədiklərinə nail oldular. Santanı yerə qoyub uzun çəkmələrini, daha sonra corablarını çıxardı. Santanın ağrıdan vay-şivən qurmasına baxmayaraq, sol ayaq barmaqlarından dizinə qədər asta və zərgər dəqiqliyi ilə yoxladı.

- Ayağının baş və orta barmağı çıxıb, topuğundan təqribən bir qarış yuxarıdan isə sınıb, - deyə Xalid diaqnozunu elan etdi. Əfqan müəllimin cavabını gözləmədən dedi: - Ona ağrıları daha çox çıxan barmaqları verir. Bu dəqiqə onu ağrıdan xilas edərik.



Xalid fikrini tamamlayıb, yun jaketini də əynindən çıxararaq, Əfqan müəllimə uzatdı. Əfqan müəllimin gücü yalnız, - qardaş, niyə soyundunuz, sətəlcəm ola bilərsiniz?! - deməyə çatdı. Xalid isə işində idi. O, Santanın ayağını dizinə qoyub, əlləri ilə çıxan barmaqlarını ovxaladı.

- Bu, yerinə keçdi, indi də baş barmağa baxaq, - deyib, təqribən iki-üç dəqiqə ara vermədən hey qışqıran və - Əfqan, bunu rədd et, - deyən Santanın ayaq barmağını əlləşdirdi.

Xalid:

- Bunu da yerinə saldıq, - deyib əlini çəkincə, Santanın da qışqırığı kəsildi. Bununla işini yekunlaşdırmayıb, ehtiyatla Santanın ayağını daşın üstünə qoyub, iki-üç dəqiqəlik qaranlıqda gözdən itdi. Əlində şam ağacının iki budağı ilə qayıtdı. Dərhal da Santanın sınan ayağının müxtəlif yerlərinə düzüb şalvarının belindən çıxardığı kəməri ilə bağladı. Üstündən də əynindən çıxardığı yun jaketini doladı. Yalnız bundan sonra başını qaldırıb Əfqan müəllimin yağış damcıları altında

güclə görünən sifətinə baxdı. Əfqan müəllim təşəkkür əlaməti olaraq sağ əlini onun çiyninə qoyub, iki dəfə döyəclədi.

- İndi qalır yuxarı qaldırmaq, - deyən Xalid fənəri Əfqana uzadıb, - alın fənəri, selə tuşlayın ki, mən xilasımız olacaq kəndiri qaya parçasından açıb gətirə bilim, - deyə selə girməyə hazırlaşdı.

Əfqan müəllim özünü saxlaya bilməyib onlara görə həyatını riskə atan bu cəsur oğlana - qardaş, bu, gözgörəsi özünü ölümə atmaqdır deyincə, Xalid - mənim beş il bundan əvvəl ruhumu dəfn ediblər, hərəkət edən sadəcə cismimdir, deyib, Əfqan müəllimin əlini qolundan çəkərək sel sularına girdi.

Əfqan müəllimi fikir götürdü:

- Bu nə danışır, nə ruh, nə cisim? Niyə bu oğlan ölümə meydan oxuyur? Bunun ailəsi, uşağı yoxdurmu?

- Alın - gözlənilmədən peyda olan Xalid kəndiri Əfqan müəllimə uzatdı. Çaşqın halda kəndiri alan Əfqan müəllim, - nə edim? - deyib matdım-matdım onun üzünə baxdı.



- Mən onun çiynindən qaldıracağam, siz kəndiri qoltuğunun altına dolayıb, bağlayın.

Əfqan müəllim deyilən kimi də etdi. Bundan sonra Xalid kəndirin ucunu əlinə alıb yuxarı dırmaşmağa başladı. Qətiyyət və əzmkarlıq bu dəfə də uğurla başa çatdı. Dağın yamacına qalxıb - zəhmətimiz hədər getmədi, - deyib kəndirin ucunu dədəsinə verdi. Dərhal da Vahidə:

- İki-üç metr aşağı en, Əfqan müəllimə yuxarı qalxmağa kömək et, - göstərişini verdi.

Mətin Əfqan müəllim adını eşidincə, - mən aşağı enərəm, deyə bildirdi.

Xanış kişi onu fikrindən daşındırdı.

- Bu, sənlik deyil. Vahid öhdəsindən gələr.

Bir qədər sonra Santa, ardınca da Əfqan müəllim və Vahid göründü. Mətin Əfqan müəllimə yaxınlaşıb, onu bağrına basdı üzündən, gözündən öpdü.

- Necəsən, Əfqan müəllim, yaxşısanmı?

- Ə, yekə kişisən, ağlama, ayıbdır. Artıq hər cür bəla arxada qaldı. Sağ olsun o sirli, amma məğrur oğlan.

Mətin birdən qollarını Əfqan müəllimin boynundan aralayıb, əlini gödəkcəsinin yan cibinə saldı.

- Al, bu dərmanı, susuz da olsa iç. Qolunu da aç, iynəni vurum.

Əfqan müəllim Mətinin uzatdığı dərmanı ağzına atıb uddu. Sonra da çətinliklə də olsa, plaşını, pencəyini, yun jaketini çıxarıb, köynəyinin qolunu yuxarı çırmaladı. Mətin hazır gətirdiyi şprislə Əfqan müəllimin sol qoluna iynə vurdu. Məhz bundan sonra Əfqan müəllim rahat nəfəs almağa başladı. Mətin şəkər xəstəsi olan Əfqan müəllimin sakitləşdiyini görüb, Lui Santaya yaxınlaşdı. Onun kefini-əhvalını soruşub, vəziyyəti ilə maraqlandı. Santa dilucu, - sağ olsun o oğlan, bizi ölümün cəngindən xilas etdi, - deməklə kifayətləndi. Mətin də dərinə getməyib, sualları ilə onu yormaq istəmədi.

...Alaçığa gəlib çatanda, gecənin yarısı idi. İtlərin hürməsinə Vaqif həyətə çıxdı. Dədəsini görüncə onu sual atəşinə tutdu:

- Məni niyə özünüzlə aparmadınız? Uşaq deyirsiniz mənə? Necə uşağam ki, 2750 qoyun-quzunu etibar edib, Boz dağın sıldırım qayalarına yola salırsınız? Necə uşaq deyirsiniz ki, sürüyə hücum edən 10 canavarı qovub, bu yerlərdən uzaqlaşdırmışdım? Bu uşaq...

Vahid kiçik qardaşının üstünə qışqırdı:

- Yaxşı, bəbə deyilsən, görmürsən, yad adamlar bizimlədir?

Sanki Vaqif səhvini indi anladı. Yad adamlara - axşamınız xeyir, - deyib, üzrxahlıq etdi. Yenidən dədəsinə yaxınlaşıb qulağına nəsə pıçıldadı.

Xanış kişinin Vahidə baxaraq, xəfifcə gülümsəməsindən belə başa düşdü ki, Vaqif onun haqqında nəsə şeytançılıq edir. Vaqif yenə nəsə demək istədikdə, Xanış kişi - yaxşı, sabah onu tənbeh edərəm, - deyib Vaqifi bir növ başından edib, alaçığa daxil oldu.

Palçıq kərpicdən tikilən alaçıq üç otaqdan ibarət olmaqla, çox səliqəli idi. Qonaqları bir dəmir çaypayının və balaca masanın olduğu otağa dəvət etdilər. Lui Santa narahat qonaq olduğu üçün alaçığın yeganə çarpayısını ona təklif etdilər.

Az sonra Nərgiz xala gətirdiyi tavanı və kətanı Xanış kişiyə uzatdı. Xanış kişi kətanı masanın üstünə sərib, un və yumurta sarısından hazırlanmış məhlulu onun üstünə sürtdü. Daha sonra kətanı ehtiyatla çarpayıya uzanan Santanın ayaq barmağından diz qapağına qədər doladı. İşini bitirdikdən sonra, - artıq buna zaval yoxdur, - deyə bildirdi. Lui Santa bir qədər sakitləşsə də, ara-sıra zarıyırdı.

Gözlənilmədən, Xanış kişi iti addımlarla otağı tərk etdi. Geriyə əlində dərmanla qayıtdı:

- Ağrıkəsici dərmandı, içər rahat yatar. Səhər oyananda, hər şeyi unutmuş olar.

Bunu deyib Xanış kişi dərmanı və su dolu stəkanı Lui Santaya uzatdı. Fransız dərmanı ağzına atıb, stəkandakı sudan içdi. Sonra da başını yastığa qoyub, yatmaq üçün gözlərini yumdu. Əfqan müəllim də bərk yorulduğu üçün islanmış paltarlarını soyunub, yatmağa hazırlaşdı. Amma Xanış kişi imkan vermədi.

- Arvad, yaxşı quzu ətindən qovurma bişirib. Süfrə hazırdır, keçək çörəyinizi yeyin, yatarsınız.



Əfqan müəllim səhərdən onların min bir əziyyətlərini, zillətlərini çəkən bu ailənin təklifinə qarşı çıxa bilmədi. - Yaxşı, - deyib onların arxasınca süfrənin qurulduğu otağa addımladı. Dadlı yeməkdən sonra süfrəyə çay gəldi. Əfqan müəllim böyük bəladan qurtulduqlarına görə, Allaha dualar edir, Bakıya qayıtdıqdan sonra, kasıb-kusuba nəzir-niyaz paylayacağını bildirirdi.

Gözlənilmədən Əfqan müəllim danışdıqlarına ara verib Xanış kişiyə sual etdi:

- Böyük oğlunuzun adı nədir?

- Xalid.

- Nə işlə məşğuldur?

- Çobançılıq edir, necə ki? Əvvəllər sürücü də işləyib. Amma başına gələn bir hadisə onun həyatını alt-üst etdi.

Əfqan müəllim indi başa düşdü ki, Xalidin həyatında çox ciddi, müəmmalı hadisə baş verib. Maraq ona güc gəldiyindən, müəmmalı hadisəni öyrənməyə can atdı. Ona görə də, sual verdi:

- Biz yad adamlar yəqin ki, müəmmalı hadisəni bil-

məli deyilik?

- Niyə ki, sizlər daha çox bilməlisiniz. Çünki siz ovçuluğu özünüzə əyləncə bilib, ondan zövq alanlardansınız.

Əfqan müəllim kinayəli atmacaya əhəmiyyət verməyib soruşdu:

- Bir desəniz nə baş verib?

Xanış kişi dərindən köks ötürüb fikrə getdi. Sağ əli ilə ağ saqqalına sığal çəkib, dedi:

- Əfqan müəllim, bir zaman əlləri xınalı, gözləri sürməli, yarlı-yaraşıqlı gəlin-qızımız vardı. Onun iki göyərçin balası vardı. Xalid çoxlarının qibtə edəcəyi, paxıllıq keçirəcəyi o ailənin başçısıydı. Bir gün Xalid idarə etdiyi "Kamaz"la Bakıdan buraya gələrkən, Məşədi Əlibaba bağının üstündə bir ceyrana rast gəlir. Gecənin qaranlığında yoldan çıxmayan ceyran təqib olunmasına imkan yaradır. Qozlu çayına enəndə, ceyran gözlənilmədən dayanır, Xalid də maşından düşür. Çaydan su içən ceyranın gözlənilmədən ürəyi partlayıb ölür. Xalid müsəlman adətiylə bismillah, deyib ceyranı



kəsir. Alaçığa gətirdiyi ceyranın yarısını bişirib ailəlikcə yedik. Səhər Vahid sürünü dağa aparanda iki balaca ceyran balası tapır. Qoyunların südü ilə onları əmizdirib meşəyə buraxır.

Xanış kişi sözünü tamamlaya bilmədi. Onu qəhər boğdu. Xalid də başını aşağı salıb, hıçqırtı ilə ağladı. Hələ də heç nə başa düşməyən Əfqan müəllim - o iki bala ceyran təqib olunan ana ceyranın balaları olub? - deyə sual etdi. Göz yaşlarını sağ əlinin içi ilə silən Xanış kişi - bəli - deyə cavab verdi. Sonra da ah çəkərək dedi:

- Ana ceyran balalarını təhlükədən qorumaq üçün özünü qurban verdi. Amma biz də itirdik. Ceyranın ətini yeyib qurtarmamış o əlləri xınalı, yarlı-yaraşıqlı gəlin-qızımız 23 yaşında dünyasını dəyişdi.

Əfqan müəllim çox mütəəssir oldu. İndi başa düşdü ki, Xalid niyə gərgindir, əsəbidir. Sanki itirəcəyi bir şey yoxmuş kimi ölümün üstünə gedir. Əfqan müəllim nə deyəcəyini, ataya necə təskinlik verəcəyini bilmədi. Xanış kişinin ağlamasına, Xalidin göz yaşı tökməsinə

dözməyib, duyğulandı. Gözləri nəmləndi. Bir neçə dəqiqə bu vəziyyətdə başıaşağı qaldı. Mətin Əfqan müəllimin gərginlikdə olması ilə şəkərinin qalxacağından ehtiyat etdiyindən, ayağa durub ona yaxınlaşdı. Əlini çiyninə qoyub - Əfqan müəllim, qəzavü-qədərin işidir, biz nə elə bilərik ki? Durun gedək, yeriniz hazırdır, yatıb dincəlin, - deyib ona ayağa qalxmaqda kömək etdi. Əfqan müəllim etiraz etmədi, ayaq üstə olan Mətinin əlindən tutub ayağa qalxdı. Yatmağa getməmişdən əvvəl, bir anlıq ev yiyələrinə baxıb, - Heç kim harada və necə öləcəyini bilmir. Hər şeyi bilən və hər şeydən xəbərdar olan tək Allahdır. Allah gəlin qızımıza rəhmət etsin, balalarına isə uzun, xoşbəxt ömür bəxş etsin, - deyib yatmaq üçün yan otağa keçdi.

Mətin isə onlara dost qucağı açan, ölümdən xilas edib, yüksək qonaqpərvərlik göstərən, darısqal alaçıqlarında yatmağa yer ayıran saf ürəkli, geniş qəlbli ailə üzvləri ilə xeyli söhbət etdi. Yatmağa gedəndə, artıq dan yeri ağarırdı. İsti, səliqəli otaqda yerdən salınmış yerinə girincə, fikirləşməyə imkan tapa bilmədi. Bir-i-



ki dəqiqə sonra xorultusu otağa yayıldı. Mətin bir də gözlərini açdı ki, başının üstündə Vaqif dayanıb, onu səsləyir:

- Mətin, qalx, Əfqan müəllim sizi çağırır.

Mətin gözlərini yarı açıb, matdım-matdım Vaqifə baxdı, amma az sonra yenidən gözlərini yumub, xoruldamağa başladı. Deyəsən, Vaqif onu oyada bilməyəcəyini başa düşdüyündən, deyinə-deyinə otağı tərk etdi. Bu zaman artıq özünə gəlib, çarpayıya uzanan Lui Santanın səsi eşidildi:

- Ey qəhrəman, dur, artıq gün günortanı keçib.

Vaqif yenidən içəri daxil olub, Mətinin başının üstünü kəsdirdi. Bir-iki ağız Mətini oyatmaq üçün çağırdıqdan sonra onun çiyinlərini silkələməyə başladı. Gözlərini açan Mətin təəccüblü nəzərlərlə onu süzdü. Bu zaman həyətdən şaqqanaq gülüşlə, - üstünə soyuq su tökün, su tökün, - sözləri eşidildi. Mətin gözlərini qıyıb, qulaq kəsildi. Öz-özünə, - hə, qız səsidir, amma kimdir, hardan gəlib? Dünəndən burdadır, qız-filan görməyib heç səsini də eşitməyib. Yenə də öz-özünə

beynini yordu, - yəqin qohum-əqrəbalarındandır, qonaq gəlib.

Mətin yerinin içində gərnəşib, Vaqifə sual dolu nəzərlərlə baxıb dedi:

- Saat neçədir ki?

- 3-ə işləyir.

- Yəni mən bir o qədər dərin yuxuya getmişəm?

Vaqif ayağa durmaqda olan Mətinə başının hərəkəti ilə, - hə dedi. Daha sonra əlavə etdi:

- Evdə-eşikdə adam qalmadı səni oyatmağa gəlməsin.

Mətin gödəkcəsini geyinib çarpayıda uzanan Lui Santaya yaxınlaşdı. Əyilib qardaş məhəbbəti ilə onun uzundən öpdü. Kefi-əhvalı, sağlamlıq durumu ilə maraqlandı.

Lui Santa əllərini çarpayının yanlarına dirəyib başını bir balaca yuxarı qaldırdı. Mərhəmətli nəzərlərlə Mətinə baxıb dedi:

- Sağ olun, sizlərin sayəsində sağ qaldım.

Mətin əlini onun çiyninə qoyub nəvazişlə dedi:



- Biz, siz, onlar yoxdur. Bir ailə var, ailə üzvləri bir-birini qorumağa, dayaq durmağa borcludur.

- Etiraf edim ki, bu, yalnız sizdə belədir. Bizdə axşam Xalidin və onun ailəsinin etdiyi fədakarlığı yalnız xilasedicilər edə bilərdilər. Bu da ki, onların vəzifə borclarıdır. Fərdi adamlar heç bir halda gecənin qaranlığında dağa çıxıb, soyuq sel sularının içində həyatını riskə atıb kimisə xilas etməyə can atmazdı.

Mətin, - çörək yemisən, - deməklə söhbəti yekunlaşdırmağa çalışdı.

Lui Santa:

- Bu insanlar məni gün yarı olmamış iki dəfə məcburi yedizdirib-içirdiblər, - deyə ondan uzaqlaşmaqda olan Mətinə cavab verdi.

Mətin:

- Yastığın yüngül olsun, - deyib həyətə çıxdı.

Artıq yağış kəsib göyün üzü açılmışdı. Xalidlə Əfqan müəllim heyva ağacının altında söhbət edirdilər. O talvarın altında yemək bişirən Nərgiz xalaya salam verib, Əfqan müəllimgilə yaxınlaşdı.

Mətin ilk öncə Əfqan müəllimin sağlamlıq durumu ilə maraqlandı. Müsbət cavab aldıqdan sonra Xalidə əl verib, axşam çəkdiyi zəhmətə görə təşəkkürünü bildirdi. Haqqını halal etməsini xahiş etdi. Xalid heç nə olmamış kimi, Mətinə baxıb dedi:

- Qardaş, mən insanlıq borcumu yerinə yetirmişəm. Bundan sonra da sizin kimi dəyərli dostların istənilən əziyyətini çəkməyə hazıram.

Mətin, - sağ ol, - deyincə, talvardan onlara tərəf baxan Nərgiz xalanın səsi eşidildi:

- A bala, ay oğul, aclıq səni haldan salmadı bəyəm? Gəl, gəl, bir tikə çörək ye.

Mətin istədi, - aclığım yoxdur, - desin, amma Əfqan müəllimin - Mətin, get çörəyini ye, - deməsi onu naz etmək fikrindən daşındırdı.

Yaxınlaşıb taxta dirəkdən asılmış əlüzyuyanda əl-üzünü yudu. Geri çevrilincə diksindi.

Qıvrım saçlı, 18-19 yaşlı sarışın bir qız, - buyurun, alın, - deyib əlində tutduğu dəsmalı ona uzatdı. Mətin bir anlıq nə edəcəyini bilmədiyindən çaşqın halda ona





baxdı. Qızın ədalı səsi eşidildi:

- Nə gözünü döyürsən, al da?!

Mətin udqunub, dəsmalı almaq üçün əlini qabağa uzatdı. Qız dəsmalı onun qoluna atıb çömçə ilə yemək qazanını qarışdıran anasının yanına getdi. Mətin özünü ələ alıb yemək üçün otağa keçdi. Süfrənin arxasında oturmuşdu ki, yenidən o sarışın gözəl əlində çay peyda oldu. Çayı Mətinin qabağına qoyub, - nuş olsun, - dedi. Geri dönüb qapıdan həyətə çıxdı. Az sonra bal, qaymaq və soyutma yumurta ilə qayıtdı. Gətirdiklərini səliqə ilə süfrənin üstünə düzüb, Mətinə dedi:

- Bəs dedilər sənin ayağın sınıb?

Mətinin dinmədiyini görüb söz atdı:

- Sənin, deyəsən, dilində problem var.

Mətin bu qızın getdikcə onu daha çox təhqir etməyə başladığını görüb, çaydan bir qurtum içib dedi:

- Deyəsən, bizim gəlişimiz şəxsən sizə narahatçılıq gətirib? İstəsəniz, elə bu dəqiqə yır-yığış edib gedə bilərik.

Qız Mətinin sözlərindən tutuldu. Oğlanın fikrində



ciddi olacağından ehtiyat etdiyindən dedi:

- Şəhərlilərin küsmək üçün bəhanə axtardıqlarını bilirdim. Amma sizin aradan çıxmaq üçün qarışqadan fil düzəldə biləcəyinizi düşünmürdüm.

Əsnad otaqdan çıxmağa hazırlaşdı. Ancaq çıxmamışdan əvvəl, üzünü Mətinə tutub dedi:

- Xahiş edirəm, getməyin, nolar, getməyin. Qardaşlarım məni qonağı qovduğuma görə, cəzalandırarlar. Xətrinizə dəydimsə, bağışlayın.

Başqa vaxt olsa idi Mətin yalandan, məkrdən çox-çox uzaq olan bu qızı bir qədər gərginlikdə saxlayardı, təhqiramiz sözlərinə görə Vahidə, Vaqifə şikayət edəcəyini deməklə, onun haldan-hala düşməsinə ürəyində xeyli gülərdi. Ancaq qız otaqdan çıxırdı. Çətin ki, yaxın saatlarda bir daha onunla ikilikdə söhbət edə biləydi.

- Zor gücünə də bizi bu evdən çıxara bilməzsiniz. Axşam quzu ətindən qovurma, səhər bal-qaymaq, gözəl də təbiət. Bundan hansı axmaq imtina edər. Biz hələ bir neçə gün burdayıq, - gülə-gülə bildirməklə Əsnadı nigarançılıqdan qurtarmağa çalışdı. Eşitdiyi xəbərdən

razı qalan Əsnad:

- Sağ ol, dədəmə deyəcəm, sənə mükafat olaraq bir quzu versin, - deyib qaça-qaça gözdən itdi.

Mətinin 22 yaşı olsa da, qızların iç dünyasını tanımaq üçün kifayət qədər təcrübəsi vardı. Niyə də olmasın. Yaxşı maaş alır, üçotaqlı evi, altında "Prado"su vardı. Qızlar onunla ünsiyyət qurmağa, şənlənməyə, birgə gün keçirməyə daha çox səy göstərirdilər. Ömür gedirdi, Mətin isə həyatını tüfeyli kimi keçirmək istəmirdi. Bir də subayçılığın sonu olmalı idi, ya yox? Dəfələrlə bu barədə düşünmüş, ancaq konkret fikrə gələ bilməmişdi. Əfqan müəllim - Mətin, gözaltın varsa, nişan ver, elçiliyə gedək, - desə də, müxtəlif bəhanələrlə boyun qaçırmışdı.

Mətin o qədər özünə qapanmışdı ki, Nərgiz xalanın içəri girdiyini hiss etmədi.

- A bala, nə fikrə getmisən, elə bil dəryada gəmin batıb, çörəyini yesənə, - deyə Nərgiz xala onu fikirdən, xəyaldan ayırmağa çalışdı.

Mətin tez özünü ələ alıb, - narahat olmayın, yeyirəm, - deyib, lavaş çörəyinin arasına qaymaq və bal qoyub, ağzına apardı. Könülsüz də olsa, yeməyini tez bitirib, ayağa durmağa və yenidən o sarışın gözəli görməyə tələsdi. Süfrədən qalxıb alaçığın çıxışına yaxınlaşanda, əlində çay içəri daxil olmaqda olan Nərgiz xala ilə rastlaşdı.

- A bala, bu çayı o gavura ver, yazıqdı, susuzluğu olar birdən, - deyib çay stəkanını ona uzatdı.

Mətin heç bir söz demədən çayı alıb Santaya vermək üçün qarşı otağa keçdi. İki-üç dəqiqə onun yanında yubandıqdan sonra, həyətə çıxdı. Əfqan müəllim gözə dəymirdi, narahat oldu.

- Nərgiz xala, Əfqan müəllimgil hara getdilər?

İsti qalması üçün samovarın gözünü qarışdıran Nərgiz xala başını qaldırmadan, - onlar İncilli çəmindən maşınınızı gətirməyə getdilər, indilərdə gələrlər, - deyə bildirdi.

Mətin əlavə sual verməyib, selin qarşısını kəsmək üçün peyin kisələrindən düzəldilən xəndəyi keçib talaya çıxdı. Havanın soyuq olmasına baxmayaraq, sakit-

lik idi. Təqribən 8-10 quzu iki bir-üç bir ağacların dibində otlayırdı. Qaz, hinduşka və toyuqlar da havanın sakitliyindən istifadə edib, kol-kosun dibində eşələnir, yaşıl otlardan qırpıb yeyirdilər. Mətin hündür təpəciyin üstünə qalxıb, ətrafı seyr etdi. Gözləri Əsnada sataşdı. O, evin qızdırılması üçün istifadə edilən gərmələri talvarda özü ilə gətirdiyi tabaga yığırdı. Az sonra tabağı başına qoyub, nazlı-ədalı yerişlə alaçığa tərəf gəlməyə başladı. Mətin etika xətrinə qızın qabağına yeriyib gərmə tabağını ona verməsini xahiş etdi.

Qız atmaca atdı:

- Sizin gücünüz çatmaz.

Mətini tər basdı, amma yenidən özünü ələ alıb, gərmə tabağını ona verməsini xahiş etdi.

Qız yenə də dilini dinc qoymadı:

- Yaxşı olar ki, siz gedib meşədən Bakıya aparmaq üçün güldən-çiçəkdən yığasınız.

Cəsarətini toplayan Mətin əl atıb, zorla tabağı onun başından götürdü, sonra da sərt şəkildə:

- Mən Tural deyiləm ki, dağdan-meşədən gül-çiçək



toplayım, - deyə bildirdi.

Qızın çaşqın, yanaqları pörtmüş halda ona baxdığını görüb, daha bir "zərbə" vurdu:

- Elə bir adamım da yoxdu ki, ona gül-çiçək toplayım.

Qız dodaqlarını büzüb, başını yellədi. Bir kəlmə də söz demədən Mətinin yanıyla alaçığa tərəf addımladı. Mətin isə özündən razı halda qucağına aldığı gərmə tabağını alaçığa aparıb, qapının önündə yerə qoydu. Həyətə çıxanda, Xalidin idarə etdiyi maşın alaçığa dönüb heyva ağacının qarşısında dayandı. Mühərrik söndükdən sonra, öndə oturan Əfqan müəllim qapını açıb aşağı düşdü. Arxada oturan Vaqif də əlində zənbil və bir neçə salafan paketlə qapını açıb yerə düşdü. Əfqan müəllim:

- Mətin, sən də kömək et, arxa baqajda nə varsa boşaldın, - deyə ona göstəriş verdi. Mətin irəli yeriyib maşının arxa oturacağında və baqajda ov qabağı yüklədikləri yemək-içməyi, qab-qacağı, pal-paltarı yerə, oradan da alaçığa daşıdı. Bu ərəfədə Xanış kişi və Va-

hid sürünü örüşdən yatağa gətirdilər. Ailə üzvləri birləşib qoyun-quzunu, iribuynuzlu heyvanları yer-yataq elədilər. Mətin də bekar qalmayıb, quzuların analarını əmməsinə, inəklərin mıxçada bağlanmasına kömək etdi. Həyət-baca işi yekunlaşdıqdan sonra alaçığa keçdilər. Kişilər, Lui Santa üçün rahat olsun deyə, alaçıqda yeganə olan masa arxasına toplaşdılar. İlk olaraq süfrəyə Boz dağın ətəyindən toplanan kəklik otundan dəmlənən çay gəldi. Çay içdikdən sonra Əsnad bozbaş, daha sonra isə qoyun ətindən bişirilən qovurmanı boşqablarda gətirib süfrəyə düzdü. Adətə uyğun olaraq, qonaqlar ləziz yeməklərə qonaq edildikdən sonra Nərgiz və Əsnad gərmə sobasının yanında süfrə açıb qovurmadan çəkib qabaqlarına qoydular. Ana-bala kişilər yeyib ayağa durana qədər şirin söhbət edə-edə yeməklərini yedilər.

***

Əfqan müəllim gecə yata bilməmişdi. Dan yeri sökülənə qədər yerində o yan-bu yanı üstə çevrilmiş, ürəyində uşaqları ilə danışmış, şirkətdəki vəziyyətlə bağlı əməkdaşlarla söhbət etmişdi.



- Əfqan, ay Əfqan, səninləyəm, oyan, - deyə Santa Əfqanı silkələyərək, yuxudan oyatmağa çalışdı.

- Nə olub, nə baş verib, yuxu görürdün?

Qan-tər içində hövlnak yuxudan oyanan Əfqan təəccüblə gözlərini ona dikən Santaya baxdı. Sonrada balışa dirsəklənib dedi:

- Lui Santa, Bakıda nəsə xoşagəlməz olaylar baş verir. Zəhrimara qalmış telefonlar da tutmur ki, uşaqlarla bir hal-əhval tutaq, şirkətlə maraqlanaq.

- Siz azərbaycanlılar beləsiniz də, xəyalanızda özünüz üçün problem yaradıb, beyninizi onunla məşğul edirsiniz.

- Yeddinci hissim deyir ki, yaxınlarımızın ətrafında nəsə xoşagəlməz hadisələr baş verir.

- Mənimsə səkkizinci hissim deyir ki, Əfqan müəllim yanılır, yatsa yaxşıdır, - deyə gülümsəyərək yerinə qayıdıb, uzandı.

Əfqan yorğanı üstündən atıb, ayağa durdu, paltarı-

nı geyinə-geyinə yola çıxmağa hazırlaşdı:

- Getmək lazımdır.

Santa gözlərini açıb maraqla onu süzdü:

- Günortadan sonra getmək olmazmı?

- Çox narahatam, Santa. Cavab gözləmədən alaçığın yuxarı küncündə yatan Mətinə yaxınlaşıb, - dur, Mətin, dur, gedirik, - deyə iki-üç dəfə Mətini silkələdi. Mətin gözlərini açıb təşvişlə Əfqana baxdı.

- Əfqan müəllim, nəsə olub?

- Heç nə olmayıb, sadəcə, getmək lazımdır. Bəsdir bu ailəyə yük olduq.

Mətin əlavə sual verməyib yorğanı üstündən kənara atdı. Ayağa durub şalvar-köynəkdə yatdığı üçün yun jaketini, üstündən isə dəri gödəkcəsini geyinib çıxmaq üçün qapıya addımladı. Arxadan Santanın səsi eşidildi.

- Kömək et, mən də yatağımdan qalxa bilim.

Mətin geri dönüb qardaşlarından biri hesab etdiyi Santaya yaxınlaşdı. Salam verdikdən sonra ona paltarını geyinib, çarpayıdan qalxmaqda kömək etdi.

- Sınan ayağına güc düşüb, ağrı yaratmasın deyə



Vahidin ağacdan düzəltdiyi əsanı ona uzatdı. Özü də sol qolundan tutub həyətə çıxmasına kömək etdi. Bu gün də ev sahibləri səhərin yenicə açılmasına baxmayaraq, hamılıqla yuxudan oyanıb, hərəsi bir işlə məşğul olmağa başlamışdı. Yalnız Xalidin uşaqları yatırdılar. İydə ağacının altında Əfqan müəllimlə Xanış kişi nədənsə söhbət edirdilər. Xalid və Vahid mal tövləsindən peyini təmizləyir, Vaqif isə samovar qaynadan anasına odun-ocaq tədarükündə kömək edirdi. Əsnad isə talanın yaşıllıq hissəsində quzularla qaçdı-tutdu oynayırdı. Qızı əsla ətrafda baş verənlər maraqlandırmırdı. Özünün, şən və qayğısız həyatını yaşayırdı.

Xanış kişinin səsi eşidildi:

- A Nərgiz, qonaqlarımız getmək istəyirlər, yaxşı bir səhər yeməyi hazırla, yeyib, yola çıxsınlar.

- Bıy, başuva dönüm, nə tez gedirlər, bu gavurun ayağı hələ sağalmayıb axı, - deməklə Mətinin nəyə qımışdığının fərqinə varmayıb, maraqlı nəzərlərlə gavur dediyi fransızı süzdü. Sonra da Mətinə - bala, o gavura da kömək edin, keçin içəri çay-çörək yeyin, - deyə bil-

dirdi.

Nərgiz xala içəri keçib az sonra həyətə çıxaraq Əsnadı səslədi.

- A canıyanmış, gəlib bir əl-ayaq versənə.

Əsnaddan səs çıxmadığını görüncə, - dayan, dayan, bu qonaqlar getsin, gen dünyanı sənin başına dar edəcəyəm, - deyib hələ də balaca uşaq şıltaqlığı ilə tullanıb-düşən Əsnadı hədələdi.

Bu dəfə Vaqif bacısını səslədi.

- Əsnad, a...z, Əsnad, eşitmirsən, ana səninlədi?

Deyəsən, nəhayət, Əsnad eşitdi. Dərhal da quzulardan aralanıb, tələsmədən ahəstə addımlarla alaçığa gəlməyə başladı. Vaqifin yanına çatanda, - nə olub, nə qışqırırsan? – deməklə kifayətlənməyib, ona kinayəli nəzər də yetirdi. Vaqif özünü sındırmayıb, - dayan, ana səni yandıracaq, özü də benzinsiz-zadsız – deməklə ipə-sapa yatmaq istəməyən Əsnadı susdurmağa çalışdı. Əsnad isə təslim olmaq istəmirdi:

- Dəvədən böyük fil olan kimi, sizdən də üstün dədəm var, onun canı sağ olsun.



Vaqif “dədə” sözünü eşidən kimi - yaxşı, yaxşı, söz güləşdirmə, get anaya kömək elə, - deyə bildirməklə mübahisəni bitirməyə çalışdı. Santanın süfrə arxasında oturmasına kömək etdikdən sonra həyətə çıxan Mətin bacı-qardaş arasında gedən deyişməni izlədikcə, içini xoş bir duyğu çulğadı. Dədəsinə arxalanıb, qardaşına meydan oxuyan bu qızın şıltaqlığına ürəyində güldü.

Mətin Xalidlə Vahidin vedrələrdən boçkaya sulu məhlul tökdüklərini görüb, onlara yaxınlaşdı.

- Vahid, boçkaya tökdüyünüz o köpüklü su nədir?

- Qoyun-quzunu bit-birədən təmizləmək üçün onları dezinfeksiya edəcəyik. Ona görə də, sürünü örüşə aparmamışıq.

- Kömək lazımdırmı?

- Yox, qardaşım, sağ ol.

- Qağa, ay qağa, dədəm deyir ki, gəlib çörəklərini yesinlər, - deyə Əsnadın səsi eşidildi.

- Ac deyilik, amma bizə çay gətir, - deyən Xalid, sonra da üzünü Mətinə tutub dedi: - Mətin, qardaşım, gedin evə, çörək yeyin.

Mətin:

- Yox, aclığım yoxdur.

- Əsnad, ay Əsnad, çayı üç stəkan elə, bir stəkan da qaynanmış süd, - deyə Vahid alaçığın qapısından içəri girməkdə olan Əsnada səsləndi. Əsnad əlini yellətməklə, Vahidi başa düşdüyünə işarə verdi. Bir qədər sonra Əsnad yaxınlaşıb, əlindəki çay dəstgahını kötüyün üstünə qoydu.

- Qağa, gəlin, soyumamış için.

Çağırışa əməl edən qardaşlar yaxınlaşıb, hərəyə bir stəkan çay götürüb qurtumladılar.

- Niyə kənarda durmusan, yaxın gəl, çayını iç, - deyən Vahid Mətinə təklif etdi.

- Çay yox, südü məmnuniyyətlə içərəm, - deyən Mətin süd stəkanını əlinə alıb dodaqlarına yaxınlaşdırdı. Süddən bir qurtum içib, - Bu yerlər çox gözəldir, həm də tarixi qədimdir, - deyə söhbətinə giriş verdi.

Vaqif:

- Hə, bu yerlərin hər daşında-dağında bir tarix yatır.

Əsnad da bu yerlərin tarixi haqqında bilgilərə malik



olduğunu göstərmək üçün dedi:

- Qağa, bu yerlərdə Qaraqoyunlular hökmdarı Qara Yusifin əshabəsi bir vaxtlar yurd salıb, özləri üçün yaşayış qurub.

Vahid başı ilə onun sözlərinə, - hə, hə, elədir, - deyə dəstək verdi. Bundan ruhlanan Əsnad sözünə davam etdi. - Teymurləng Qaraqoyunluların paytaxtı Vanı viran qoyduqdan sonra bəzi tayfalar 1392-cü ilin yazından 1405-ci ilin yayına qədər bu yerlərə sığınmışlar.

Bayaqdan bu qızı dilsiz-ağızsız, elmdən uzaq hesab edən Mətin indi onun tarixdən, Qaraqoyunlu tayfalarından danışmasına mat-məəttəl qalmışdı. Heyran-heyran onun qüsursuz gözəl simasına baxıb, qeyri-ixtiyari sual etdi:

- Xanım, siz bu məlumatları hansı mənbədən götürmüsünüz?

Əsnad ona baxmadan:

- Mənim adım xanım deyil, Əsnaddır, - deyə ona iradını bildirdikdən sonra ağızdan-ağıza eşitdiyini dilə gətirdi. Sonra əlavə etdi. - Şifahi xalq deyimləri bəzən

yazılı ədəbiyyatı üstələyir.

Mətin "xanım" müraciətinə Əsnadın iradını müzakirə mövzusuna çevirməyə ehtiyac duymadı. Ancaq söhbətini davam etdirməyə çalışdı:

- Nədən əminsiniz ki, bu yerlərdə Qaraqoyunlu tayfaları yaşayıblar.

Əsnad özündən razı görkəm alıb təkəbbürlə dedi:

- Teymurləng öldükdən sonra Qaraqoyunlu tayfaları Şirvanşah İbrahimin torpaqlarını tərk ediblər. Ancaq burda köç saldıqları varxtlarda yerli əhali ilə qaynayıb-qarışmış, qız verib, qız almışlar. Bu gün də onların nişanəsi olan yer adları qalmaqdadır. Məsələn, "Qarataxta", "Qarabulaq", "Qarayazı", "Qaraçuzlü", "Qaradaş", "Qaraqobu", "Qara Qoç" və bu kimi 10-a yaxın "qara" ilə bağlılığı olan yer adları.

Xalid Əsnadın tarixi hadisələri məntiqlə, həm də aramla izah etməsinə gülümsəyib, məmnunedici halda şəstlə dedi:

- Mənim elmli bacım, əhsən sənə.

Mətin isə bu qızın xarici görkəmi kimi daxili aləminin, dünyagörüşünün zənginliyinə məəttəl qalmışdı. Hansısa şairin dediyi "çadırda da böyük şəxsiyyət, dahi insan doğula bilər" sözləri yadına düşdü. Öz-özünə düşündü ki, bu dağların və meşələrin əhatəsində özlərinə məskən quran ailələrdən niyə də ali təhsil alan, biliyi, savadı ilə vətəninə, millətinə xidmət göstərən gənclər yetişməsin. Onu bu düşüncələrdən Əfqan müəllimin - Mətin, haydı, maşını işə sal, gedirik, - sözləri ayıltdı. Mətin tarixlə bağlı söhbəti yekunlaşdırıb, maşına yaxınlaşdı. Arxadan Vaqifin səsi eşidildi:

- Mətin, baqajı aç, bunu qoyum.

Mətin ağ mələfəli bükülünü görüncə, - bu, nədir? - deyə soruşdu.

- Qoyun ətidir.

Mətin baqajı açа-açа:

- Axı buna nə ehtiyac vardı? - deyə narazı halda söyləndi.

- Dostum, adət-ənənə var, tərəkəmə qonağını zəhmətinin bəhrəsi ilə yola salar.

Mətin:

- Allah malınıza min bərəkət versin, - deyib baqajın qapısını örtdü, tələsik addımlarla irəliyə yeriyib, Lui Santanın maşına minməsinə kömək etdi. Sonra da ailə ilə sağollaşmaq üçün onlara yaxınlaşdı. Nə hiss idisə daha çox Əsnadı görmək istədi.

Bir anlıq hər iki gəncin gözləri bir-birinə sataşdı. Onun baxışlarında bir saymazlıq, özündən razılıq vardı. Dərk etdi ki, yanaqları qızarıb, içində bir təlaş yaranıb, əlləri əsir, dodaqları isə titrəyir:

- İlahi, bu nədir? - deyə xoş düşüncələr içində vargəl etdi.

Sonra da özünü ələ almağa, onları ölümün cəngindən xilas edən bu saf, təmiz, dünyanın gah coşan, gah da sakitləşən olaylarından xəbərsiz ailənin qarşısında ədəbsiz görkəmə düşməməyə çalışdı. Yolüstü Xanış kişi Əfqan müəllimlə kənara çəkilib, nə ilə bağlısa söhbət edirdilər. Mətin düşündü ki, kaş onların söhbətləri uzun çəkəydi, saatlarla, lap günlərlə. "Niyə?" Yenə öz-özünə sual etdi? Çox baş sındırmadı? Deməli, kitablarda yazıldığı kimi, bu qıza bir baxışdan, bir könüldən-min könülə vurulub. "Hə, hə" vurulmuşam. Yəni mən sevə bilirəm. Yox-yox, bu, sadəcə ötəri hissdir ki, buranı tərk etdikdən sonra hər şey unudulacaq". Başını qaldırıb, nəzərləri ilə Əsnadı aradı. Onu görməyəndə sanki içində boşluq yarandı, narahat baxışlarla sağa-sola boylandı. Bu məqamda Əfqan müəllim Xanış kişi ilə sağollaşıb maşına doğru addımladı. Mətin narahat oldu, heç olmasa, sonuncu dəfə Əsnadı görmək istədi.

- Vaqif, qardaşım, utanıram da deməyə, ılıq su varsa gətirin, ciyərim susuzluqdan yanır, - deyə xahiş etdi.

Vaqif - Bəlkə, ayaqüstü bir stəkan çay içəsən, - deməklə Mətinin fikrini öyrənmək istədi.

Mətin:

- Yox, mənim çayla bir o qədər aram yoxdur. İlıq su olsa kifayət edər.

- Əsnad, ay Əsnad, Mətinə bir stəkan qaynanmış ılıq su gətir -  deyə Vaqif səsləndi.

Alaçığın qapısı önündə görünən Əsnad, - nə istədin, Vaqif? - deyə soruşdu.

Bu dəfə Nərgiz xala dilləndi:

- Uşaqlara o bacanın üstünə qoyulan, bankadakı qaynanmış sudan bir stəkan gətir.

Bu anda Mətin ürəyindən keçirdi ki, kaş stəkanı başqası deyil, Əsnad gətirib ona verəydi. Arzusu reallığa çevrildi. Az sonra alaçıqdan əlində stəkan dolu su ilə çıxan Əsnad birbaşa Mətinə yaxınlaşıb stəkanı ona uzatdı. Mətin hiss etdi ki, bu anda əl-ayağı titrəyir. Ala gözlü, al yanaqlı bu qızın qarşısında rüsvay olmamaq üçün tez özünü ələ alıb, stəkanı qızdan aldı. Dili topuq vura-vura - sağ olun - dedi. Sonra da suyu içmək üçün dodaqlarına yaxınlaşdırdı. Amma həyəcandan və əllərinin əsməsindən stəkandakı suyun bir hissəsi yerə dağıldı. Ən pisi isə ayağının sürüşməsi oldu. Bu anda az qaldı ki, müvazinətini itirərək yıxılsın. Vahidin irəli atılıb, qolundan yapışması onu hər kəsin gözü qarşısında rüsvay olmaqdan xilas etdi. Bu anda Əsnadın dodaqlarından şaqraq gülüş qopdu. Dərhal da özünü ələ alıb, yaşlı qadınlarsayağı başındakı yaylığı ilə örpəndi. Nərgiz xala Əsnadın hərəkətlərindən alındı, yaxınlaşıb, onun böyründən çimdik götürdü. Bu Mətinin gö-



zündən yayınmadı, xəfifcə gülümsədi.

Vahid Mətinin üzləşdiyi pərtliyi aradan qaldırmaq üçün bacısına acıqlandı:

- Yaxşı yenə şıltaqlığın tutmasın, get su gətir, - deyə bu iki gündə dostlaşdığı Mətinə arxa durdu.

Mətin:

- Yox-yox, lazım deyil, artıq əziyyət olar, - deməklə Əsnadın incidilməsinə və ondan narazı qalmasına imkan vermək istəmədi. Amma az keçməmiş Əsnad əlində su ilə dolu stəkanla Mətinin qarşısında dayanıb, - ala iç, bu dəfə dağıtsan, özün öz başına çarə qılmalı olacaqsan, - deyərək, bu uca boylu, qara saçlı, gözəl simalı oğlana oğrun-oğrun baxdı. Mətin stəkan dolu suyu başına çəkib, Vahidə baxdı - sağ olun, heyif ki, bir daha sizləri görə bilməyəcəyik ki, xəcalətinizdən çıxa bilək, - deyə pərişan halda stəkanı Əsnada qaytardı. Sonra da qəlbinə və ürəyinə, ümumilikdə isə bütün duyğularına hakim kəsilmiş uzun kirpikli, badamı gözlü bu füsunkar gözəli oğrun nəzərlərlə süzdü.

Ürəyindən keçirdi ki, kaş bu qızla söhbət edə, hə-

yatdan, olanlardan danışa biləydi.

Onu xəyaldan Vahidin gülə-gülə - dostum, deyəsən, aradan çıxmaq istəyirsən, axı Əfqan əmi deyir bizə çadır gətirəsisən - deməklə sağ əlini Mətinin çiyninə qoyaraq, ona xəcalətdən çıxmaq üçün qabaqda imkan olduğunu xatırlatdı. Atmacanı tutan Mətin pörtmüş halda - onu bilmirdim, mənə çadırın gətirilməsi tapşırılsa, mütləq gətirəcəyəm, - deyə sağollaşmaq məqamı olduğundan Vahidlə, daha sonra isə Xalid və Vaqiflə görüşüb, Xanış kişiyə yaxınlaşdı. Əl verib, Xanış kişi ilə öpüşdü, istədi Nərgiz xala ilə də, öpüşüb sağollaşsın. Ancaq ehtiyat etdi. Fikirləşdi ki, yaxşı qarşılanmaz, nə qədər də olmasa, yenicə tanıdığı qadındır. Sadəcə, üzünü Nərgiz xalaya tərəf çevirməklə - haqqınızı halal edin, anacan, hər şeyə görə sağ olun, - deyərək maşına tərəf addımlamaq istədi. Ancaq Nərgiz xala yaxınlaşıb, - a bala, sən də mənim üçün Vahid və Vaqif kimisən, - deyərək onun üzündən öpdü. Sonra da - a bala, al bunu, çadırı gətirəndə bu canıyanmışa duxi alıb gətirərsən, gələn ay kənddə dayısı oğlunun toyu olacaq,



- deyə əlində tutduğu pulu Mətinə uzatdı.

“Duxi və canıyanmış” sözlərini eşidən Mətinin gözlərinə sanki işıq gəldi. Deməli, yenidən Əsnadı görmək üçün fürsət olacaq. Çaşqın halda - Nərgiz xala, pul lazım deyil, alıb gətirərəm, - deyə onun əlini geri qaytardı. Bu dəfə Xanış kişi dilləndi:

- A bala, Bakıda pul küçələrə səpələnməyib ki, yığıb nəsə alasan.

- Əmi, pul olmasa da, parfümeriya mallarımız çoxdur. Azərbaycanda onlarla duxi, odekolon və kosmetika dükanlarımız var, adam axtarırıq onları sırımağa.

Mətinin son sözləri gülüşə səbəb oldu.

- Yaxşı, sən deyən olsun,  deyə Nərgiz xalanın səsi eşidildi.

Mübahisənin xoş sonluqla yekunlaşmasından sevinən Vaqif səhərdən demək istədiyini dilə gərirdi.

- Əgər sırımağa adam axtarırsınızsa, bir odekolon da mənə gətirib sırıyarsan. Əvəzində dədəmin bir quzusunu kəsib kabab edərik, - deməsi ilə yenidən gülüş qopdu.

Mətin Vaqifə baxıb gülümsədi. Ona - baş üstə - deyib, yenicə isinişdiyi ailədən ayrılınca, hiss etdi ki, Əsnad gizlin nəzərlərlə onun hərəkətlərini izləyir. Bu məğrur, özündən razı qızın diqqətini özünə cəlb etdiyinə sevindi. Bu, qələbənin yarısıdır, - deyə düşüncələr içində sükan arxasına keçib mühərriki işə saldı. Maşın yerindən tərpənincə, arxada yarı uzanmış halda oturan Lui Santa - dostum, deyəsən, bura gəlməyimiz daha çox sənə düşdü, - deyə gülə-gülə söz atdı. Əfqan müəllim Santanın nəyə işarə vurduğunu anladığından söhbətə nöqtə qoymaq üçün - çox mehriban, həm də halal ailədir, - deyərək, mobil telefonunu qurdaladı. Set yoxdur, - deyəndə, artıq Boz dağın ətəyindəki Çayqovuşan meşəsi arxada qalmışdı...

***

Ortalığa çökmüş sükutu eyvandan otağa daxil olan Ayaz pozdu:

- Onları ancaq pul maraqlandırır. Şəmistan müəllimə ağız açmağa, onu bu işlərə qoşmağa dəyməz.



Nəzakət xanım, yanıqlı bir aha çəkib oğluna iradını bildirdi:

- Nə vecinə ey, oturmusan isti evdə, Allahın verənindən yeyib-içib rahatca da yıxılıb yatırsan. O yazıq kişi isə min bir zillət, əziyyət çəkir, özü də xəstə. İndi ona dərmanını içməyə belə imkan vermirlər. Görüm onları kor gülləyə tuş gəlsinlər.

Mahal kişi qızına etiraz etdi:

- Sən də bir ağacda oturub, min bir budağı silkələyirsən. Bu uşağın əlindən nə gəlir ki?

- Heç olmasa, dilini dincə qoysun, hər işə bir qulp qoyur, hər deyiləndən bir əmma çıxarır.

Bu dəfə əlində çay mətbəxdən otağa daxil olan Müşkünaz xanım dilləndi:

- Ay Nəzakət, bəd danışıqlarınla bu uşaqları da çərlətmisən. Səhərdən Gülsüm uşaq bir tikə çörək yeməyib, özü də əmzikli. Seyran uşaq bu vay-şivənə dözməyib səhər evdən çıxandı. Sən Allah bəsdir, gəl otur, bir tikə çörək ye, bu biçarələr də sənə baxıb çörək yesinlər. Gəl, gəl, Nəzakət, bəsdir, bu yazıq tifilləri çərlətdin.

Nəzakət böyük bacısına etiraz etmədi, gözlərindən süzülən yaşı silib, ağı deyirmiş kimi, hönkürə-hönkürə dedi:

- Bir qarın ac, bir qarın tox, bir tapanda iki tapmadıq, özümüzə gün ağlayanda, onu da canı yanmışlar bizə çox gödülər. Yazıq Əfqan dörd divar arasında indi görən nə çəkir?

Mahal qızına acıqlandı:

- Bəsdir Nərgiz, yasxanaya döndərmisən evi, pul istəyirlər, onu da tapıb verəcəyik. Gəl otur çörəyini ye!

Mahal kişi sözünü bitirib divandan ayağa durub, yemək masasının arxasına keçdi. Bozbaş kasasını qabağına çəkib Ayaz və Gülsümü səslədi:

- Bala, ananıza fikir verməyin, keçin əyləşin, çörəyinizi yeyin, görək, o ağlaşması ilə başımıza nə bəlalar gətirəcək.

Babalarının təkidli tələbindən sonra Ayazla Gülsüm süfrə arxasına keçdilər. Ancaq çörəyə əl uzatmağa tələsmədilər, sanki yad adamlar idilər. Lazım idi ki, ev yiyələrindən kimsə - bismillah eləyin, - desin. Belə də



oldu.

Qabağına çəkdiyi yemək kasasına çörək doğrayan Müşkünaz:

- A bala, süfrə arxasında elə oturmusunuz ki, elə bil, yeddi arxa dönənimizin tör-töküntüsüsünüz. Hə, bismillah eləyin, - deyə bildirdi.

Ayazla Gülsüm könülsüz halda kasanı qabaqlarına çəkib, qaşığı əllərinə götürdülər. Yenidən Mahalın səsi eşidildi.

- A Nəzakət, sən gorbagor olmuş ananın ruhu, gəl, çörəyini ye.

Nəzakət acıqla dilləndi:

- Sən də bu ağır günümüzdə dərdimizə dərd qatma. Bu dünyada yazıq anamıza bir gün vermədin, barı o dünyada dinc burax.

Nəzakət sözünü bitirib, qəzəblə üzünü Ayaza tutub dedi:

- Zəhərlən, sonra dur gedək Şəmistan müəllimin yanına.

Ayaz başı ilə, - yaxşı, - işarəsi verib cibində olan

telefonunu çıxarıb Şəmistan müəllimin adını aradı.

-Ana, qoy  zəng edim görüm iş yerindədirmi, - deyə hər kəsin eşidə biləcəyi tonda söyləndi.

Müşkünaz isə Nəzakəti yemək masasında oturtmaq üçün növbəti cəhdini etdi:

- A qız, Nəzakət, bəsdir, bizə, atamıza bu qədər hörmətsizlik etdin. Gəl, əyləş, bir tikə də olsa, çörək ye.

Deyəsən, Müşkünazın sərt şəkildə Nəzakəti tənbeh etməsi, nəhayət, nəticəsini verdi. Nəzakət əyləşib, çay stəkanını qabağına çəkdi. Bir qurtum isti çay içdikdən sonra Ayaza:

- Hə, nə oldu, cavab vermir?

Ayaz:

- Çağırır, amma götürmür.

Nərgiz:

- Bir də zəng et.

Ayaz bu anda otaqdakılara əli ilə sakit olmaq işarəsi verib həmin andaca:

- Salam, Şəmistan müəllim, Ayazdır ey, Əfqan müəllimin oğlu, - deyə bildirdi.



Telefon söhbəti iki-üç dəqiqə çəkdi. Ayaz sağollaşıb telefonu qapadıqdan sonra anasına:

- O, bizi universitetdə gözləyir, - deyə bildirdi. Xəbəri eşidən kimi Nəzakət oturduğu stuldan cəld ayağa qalxıb, otağı tərk etdi. Mahal kişi yenə söz atdı.

- Bu Nəzakət başa düşmür ki, onlar adam cildindən çıxdıqları üçün ziyalı sözünü eşitməzlər. Deyilənə görə, çekstlər cox saylı iş adamını, vəzifəli   şəxsləri tutub salıblar dama, bir az çək çevirdən, təhqir və təddindən sonra pullarını alıb, buraxıblar. Şəhərdə danışırlar ki, yeraltı tunellərin böyüyünün oğlunu və qardaşı uşaqlarını MTN-ə aparıb döyüb, işgəncə verdikdən sonra, 3 milyon manatını alıb buraxıblar. Hansı ki, tunellərin boyüyünün əli çox uzun olub. Onu sındırıblarsa, Şəmistan müəllimi, ümumiyyətlə, saymazlar.

Bu məqamda dəhlizdə peyda olan Nəzakət:

- Ədə, dur-dur, bu baban adət edib bəd danışmağa, - deyib Ayaza səsini qaldırdı. Mahal kişi istədi Nəzakətə iradını bildirsin. Amma Müşkünazın yalvarış dolu nəzərlə ona baxıb him-cimlə danışmamasını xahiş et-

məsi, onu fikrindən daşındırdı. Mahal kişi ancaq başını sağa-sola yelləməklə kifayətləndi.

Nəzakət dayısı oğlu Şəmistanın yanına böyük ümidlə gedirdi. Onun nəzərində dayısı oğlu, AMEA-nın müxbir üzvü, tanınmış universitetin rektoru kimi bağlı qapıları açmaq, ciddi problemləri aradan qaldırmaq gücünə malik idi. Üzeyir Hacıbəyov küçəsinə çatanda, Ayazın səsi eşidildi.

-Ana  mən də gəlimmi?

- Yox, sən maşında gözləyərsən. Tez də fikrini dəyişdi.

- Sən də gəl, - deyə Ayaza nə etməli olduğunu başa saldı. Ayaz anasının gərgin durumda olduğunu, istənilən sualının onda əsəbilik yaradacağını bilsə də, yenə də dilini dinc qoymadı.

- Nə oldu, ay ana, əvvəl dedin Şəmistan müəllimlə görüşə sən getməyəcəksən, amma tez də fikrini dəyişdin. Səbəb nədir?

Nəzakət oğlunun sualını cavabsız qoymadı.

- Şəmistan müəllimin gözəl-göyçək qızı var. Bu,



həm də olsun oğlangördüsü.

Ayaz başını yelləyib gülümsədi.

- Ay ana, indi biz bura elçiliyə gəlmişik, yoxsa atamıza görə xahişə?

Nəzakətin sərt səsi eşidildi:

- O, mənim işimdir. Sən isə maşını teatrın qarşısında saxla.

Ayaz əlavə sual verməyib, hadisələrin sonunu gözləməyə qərar verdi. Maşını saxlayıb yerə düşdü. Nəzarətçini çağırıb ona iki manat verdi:

- Yəqin burada maşına dəyib-dolaşan olmaz?

Nəzarətçi ani nəzərlə “Mersedes” S-Klassın sahibini süzüb dedi:

- Qardaş, narahat olmayın, yəqin tez gələrsiniz?

- 15-20 dəqiqə çəkəcək, - deyə yolu keçməyə hazırlaşan Ayaz bildirdi. Nəzakət xanım isə Şəmistan müəllimlə söhbətə necə və haradan başlayacağını düşünürdü.

- Nəzakət xanım?

- Bəli, - deyə yenicə qəbul otağına daxil olan Nə-

zakət onları xoş, gülərüzlə qarşılayan gənc oğlanın heyrətlə ona baxdığını görüb cavab verdi.

Köməkçi:

- Keçin, Şəmistan müəllim sizi gözləyir, - deyə rektorun otağını göstərdi.

Nəzakət xanımla Ayaz geniş, səliqəli otağa daxil olanda, professor Şəmistan Əlizadə kresloda yanpörtü oturub, kompüterdə nəyəsə baxırdı. Qohumlarının içəri daxil olması ilə gözünü kompüterdən çəkib:

- Gəl, gəl, ay bibi qızı, gəl, - deyib ayağa durdu. Kreslonu arxaya itələyib, qohumlarına yaxınlaşdı. Əvvəlcə Nəzakət xanımla, sonra Ayazla görüşüb-öpüşdü. Daha sonra kənarda qoyulmuş yumşaq oturacaq dəstinə tərəf addımlayıb sağ tərəfdəki oturacaqda əyləşdi. Qonaqlarına da yer göstərdi. Sanki onların yerbəyer olmalarını gözləyirdilər. Əlində çay-konfet və mürəbbələr  dolu podnislə modelyerə oxşayan arıq, sarışın, qıvrımsaç qız içəri daxil olub gətirdiklərini masaya düzdü. Gəldiyi kimi də podiumda moda nümayiş etdirirmiş kimi, sakit addımlarla otağı tərk etdi. Deyəsən,



Nəzakət katibənin otağı tərk etməsini gözləyirdi, dərhal da söhbətə keçdi.

- Ay dayı oğlu, evdə-eşikdə nə var-nə yox, Xalidə necədir?

- Sizlər soruşandan yaxşıyıq, sağ olun. Xalidə yazıq iki həftə xəstə yatdı.

- Bıy, nə olmuşdu ki?

- On iki barmaq bağırsağında yırtıq əmələ gəlmişdi. Yazıq ölümdən qayıtdı. Almaniyada əməliyyat olundu.

- Heç xəbərimiz olmayıb.

- Olmaz da, dünya dəyişdikcə insanlar da dəyişir, qohumluq əlaqələri də itir.

Nəzakət qəbahətli əməlinin cəzası olaraq günahkarcasına müəllim qarşısında dayanan şagird kimi başını aşağı əyib gözlərini çay stəkanına dikdi.

Şəmsəddin müəllim ağ saçlarına sağ əli ilə sığal çəkib dedi:

- Səndə günah yoxdur. Gərək biz ağsaqqallar gedək-gələk ki, sizlər də yolumuzu təkrarlayasınız. Nə isə, bu uşaq, yəqin oğlundur?

- Hə, oğlumdu, adı Ayazdı.

- Çox yaxşı, ağıllı uşağa oxşayır. Allah saxlasın, evləndirməmisən?

Nəzakət ovçu bicliyi ilə cəld başını yuxarı qaldırıb dedi:

- Yox, hələ nə yaşı var ki?! Universiteti bitirən kimi, hərbi xidmətə getdi. Gəldiyi heç 3-4 ay yoxdur. Şirkətdə atasına kömək edirdi.

Şəmistan "edirdi" sözünü eşidincə, təəccüblə sual etdi:

- Sonra nə oldu ki?

- Allah evlərini dağıtmışlar qoymadılar. İki gündür Əfqanı və şirkətin üç əməkdaşını həbs ediblər.

Şəmistan müəllim çaydan içib, bir anlıq fikrə getdi. Qaşlarını çatıb üzünü Ayaza tutdu:

- MTN-də saxlanılır?

Ayaz:

- Bəli, - deyə cavab verdi.

Nəzakət:

- Ay dayı oğlu, bu tifili də aparıb salmışdılar o xaraba qalmış yerə. Uşağa o qədər işgəncə vermişdilər ki, yatanda da sayıqlayır.



Şəmistan müəllim yalnız indi Nəzakətin onun yanına niyə və hansı xahişə gəldiyini təxmin etdi.

Nəzakət sözünə davam etdi:

- Analar uşaq dünyaya gətirir ki, ərsəyə gələndən sonra hansısa qanı erməni qanından olan harın onu tutub şikəst eləsin və ya ömrü boyu canından silinməyəcək psixoloji travma yaratsın. Bu dövlətin yiyəsi yoxdur?

- Ay Nəzakət, mərdimazardan Allahın xəbəri olmayan kimi, onlara verilən səlahiyyətlərdən sui-istifadə edib, quldurluq edənlərdən də dövlətin məlumatı yoxdur.

Nəzakət bu məqamdan istifadə edib birbaşa mətləbə keçdi.

- Səni deyib gəlmişik, Əfqanı o quldurların əlindən xilas et.

Şəmistan gülümsəyib söz atdı:

- Atalar misalıdır, "içim özümü, çölüm özgəni yan-

dırır".

Nəzakət bir şey başa düşmədiyindən, təəccüblə sual etdi:

- Yəni siz Əfqan müəllimi o vəhşilərin caynağından qurtara bilməzsiniz?

- "Uman yerdən küsərlər" deyiblər. Siz də mənə güvənib gəlmisiniz. Amma mən çarəsizəm. Çünki indiki məqamda onlara güc çatmaz.

Sözlərindən Nəzakətın çox pərişan olduğunu görən Şəmistan müəllim açıq söhbətə keçdi:

- Nəzakət, bibiqızı, biz bir ağacın budaqları olduğumuz üçün səninlə açıq danışacağam.

Şəmistan Əlizadə Nəzakətın gözlərini döyə-döyə onu dinləməsini görüb, sözünü davam etdirdi:

- Yadındadır, ötən ayın 15-i Xavər xalanın nəvəsi Mədinənin toyu?

Nəzakət başını tərpətməklə, - hə, - dedi.

- Mən də, Xalidə də çox istəsək də o toyda iştirak edə bilmədik. Bilirsiniz niyə?

Şəmistan müəllimin verdiyi suala özü də cavab verdi:



- Çünki Əfqanı və Əfqan kimi neçə-neçə iş adamını, vəzifəli şəxsi oğurlayıb MTN-ə aparan mütəşəkkil dəstə məni də zirzəmidə bir gün "qonaq" etmişdi.

Eşitdiyi xəbərdən dəhşətə gələn Nəzakət az qaldı ayağa durub qışqıra-qışqıra "bu, ola bilməz" desin. Amma tez də özünü ələ alıb, susmağa üstünlük verdi.

Professor Şəmistan Əlizadə isə yanıqlı ah çəkib, aram-aram sözünə davam etdi:

- Ötən ayın 15-dən 16-sı axşam saat 6-ya qədər şəxsiyyətimi alçaldıb, təhqir etdikdən sonra buraxdılar.

Bu məqamda özünü saxlaya bilməyən Ayaz qeyri-ixtiyari sual verməli oldu.

- Bağışlayın, Şəmistan müəllim, sizdən ötrü onlardan kimsə xahiş etdi:

Şəmistan müəllim onun yanına böyük ümidlə gələn ailəyə nəyə görə kömək edə bilmədiyini göstərmək üçün sifətindən hələ də işgəncə izləri getməyən Ayaza baxıb səmimi şəkildə etiraf etdi:

- Bala, onlar heç dədələrinin də xahişini eşitməzlər. 2 milyon manatımı alıb, heç nə olmamış kimi buraxdılar.

Nəzakətin matı-qutu qurumuşdu. Nə deyəcəyini, nə danışacağını bilmirdi. Şəmistan müəllimin söylədikləri sanki Nəzakəti qəflət yuxusundan ayıltdı. İndi dərk etdi ki, onları ancaq pul düşündürür. Tələb etdiklərini almasalar Əfqanı buraxmayacaqlar.

Şəmistan Əlizadənin, - Əfqan müəllimdən nə qədər tələb edirlər - sualı Nəzakəti beynindəki qaçdı-qovdu söz güləşindən xilas etdi.

- 2 milyon manat.

- Nəyə gücünüz çatırsa, aparın verin. Yoxsa əl çəkməyəcəklər. Onlar elə bir vəhşi quldurlardır ki, istədiklərini əldə etmək üçün hər cür yaramazlıqdan istifadə etməkdən çəkinməzlər.

Ayaz başını qaldırıb kinayə ilə anasına baxdı. Gücü, cəsarəti çatsaydı deyərdi. - Keşiş ağzına söymürdük ki, biz də deyirdik ki, pul verilməsə, onlar əl çəkməyəcəklər. Hanı 2 milyon? Bizim o qədər pulumuz yoxdur. Sənə nə var ki, tələbələrdən yığırsan, dövlət büdcəsindən qapırsan, işə götürdüyün müəllimlərdən alırsan...

Başa düşdüm, - deyən Nəzakət son olaraq sual etdi:



- Dediyiniz mütəşəkkil dəstə Əfqanı MTN-də nə qədər saxlaya bilər və istədiklərini ala bilməsələr, saxta məhkəmə qurub onu azadlıqdan məhrum edə bilərlərmi?

- Yox, onlar bunu etməzlər. Nə qədər lazımdırsa, o qədər də Əfqanı məhkəməsiz, prokurorun həbs qətimkan tədbiri haqqında orderi olmadan MTN-in zirzəmisində saxlayacaqlar.

Nəzakət sanki indi özünə gəldi, sakitlik tapdı. - Deməli, Əfqanı həbsə atmazlar. Mənzilləri, bağ evini, qızıl-zinət əşyalarını, maşınları satıb verərik, təki Əfqanın canı sağ olsun, - deyə Nəzakət ürəyində qərar verdi.

Ayağa durarkən Şəmistan müəllim əlini Ayazın çiyninə qoyub, ağsaqqal nəvazişi ilə dedi:

- Çox keçməz o cinayətkarlar ifşa edilər və məhkəmə qarşısında oturdulub, layiq olduqları cəzanı alarlar.

Sağollaşıb ayrılarkən Ayaz, - bu cür özbaşınalıq, başqalarına pislik etməklə varlanmaq nə zamana qədər

davam edəcək, - deyə Şəmistan müəllimə sual etdi.

Şəmistan müəllim:

- Yunan filosofu Platonun fikrincə, “şər biliklərin azlığından yaranır”. O, əsərlərində inamla dönə-dönə qeyd edirdi ki, “insanlar xeyirin xeyir olduğunu anladıqları zaman pisliklərə heç zaman yol verməyəcəklər”. Mənə, sənə, Əfqan müəllimə və digərlərinə pislik edənləri zaman cəzalandıracaq, “bu dünyanın cəzası o dünyaya qalmaz” məsəli səbəbsiz yerə deyilməyib.

Nəzakət xanım sağollaşarkən.- Dayıoğlu, xahiş edirəm, Xalidəyə, uşaqlara məndən salam de, mütləq gəlib onlara dəyəcəyəm, - deyə onunla görüşüb, öpüşüb ayrıldı.

Universitetdən ayrılarkən Ayaz səsini aldığı telefonuna baxarkən, - ay aman, - özündən asılı olmadan söyləndi.

Nəzakət təlaşla:

- Nəsə olub? - deyə oğlunun qarşısını kəsib, sual dolu nəzərlərlə ona baxdı.

Ayaz:



- Heç nə, ay ana Lui Santadır, düz altı dəfə zəng edib. Yəqin xəstəxanada nəsə problem yaranıb, - deməklə anasının qarışqadan fil düzəltməsinə imkan vermədi. Anasının rahat nəfəs aldığını görüncə, Santanın telefonuna zəng etdi. Qısa salam-kalamdan sonra Ayazın, - baş üstə, aeroportdan evə gətirərəm, dincələr, səhər gələrik xəstəxanaya sənin yanına, - deyə telefon söhbətinə yekun vurdu.

Maşına minərkən Nəzakətin səsi eşidildi:

- Kimdir gələn?

- Lui Santanın bacısı Amandina Santa.

Xəbər Nəzakətin üzünü güldürdü. Tez sual etdi:

- Nə zaman gəlir?

- Bu gecə saat 12-də.

Nəzakət:

- Onda yemək-içmək hazırlamaq, onun üçün otaq bəzəmək lazımdır. MTN-də saxlanılan Əfqan da xəbəri eşidib sevinər.

Nəzakət sözünü bitirib, Ayaza göstəriş verdi:

- Sür bazara.

Ayaz anasının iki gün ərzində ilk dəfə kefinin açılmasından sevincək oldu. Bu xoş ovqatla da maşını işə salıb magistral yola çıxdı.

***

Otaqda var-gəl edən Baş prokurorun müavini Zahid Zamanov istintaqa nəzarət idarəsinin rəisi Yaşar Məmmədovun içəri daxil olması ilə qayıdıb kreslosunda əyləşdi. Sonra da, - gəl, gəl, Yaşar, keç əyləş, - deyə şöbə prokuroruna yer göstərdi. Yaşar Məmmədov rəisi ilə salamlaşıb, göstərilən stulu çəkib əyləşdi. Qısa salam-kəlamdan sonra Zahid Zamanov qaşlarını çatıb, narahat formada birbaşa  mətləbə keçdi:

- Daxili işlər nazirinin müavini Xəyyam Əsgərov israrla iddia edir ki, milli qəhrəman Xasay Məhərrəmlinin oğlu Cabir Məhərrəmli həddindən artıq narkotik qəbul etdiyindən ölüb. Onun deməsinə görə, ekspert rəy verib ki, qəhrəmanın oğlu narkotik aludəçisi olub və yüksək dozada narkotik maddə qəbul etdiyi üçün həyatını itirib.



Yaşar Məmmədov ani olaraq gülümsəyib, açıq sezilən istehzayla dedi:

- Təəccüblü deyil, ənənəvi rəydir.

- Nə demək istəyirsən?

- Zahid müəllim, Cabir Məhərrəmli oktyabrın 14-də MTN-də olub, çox çək-çevir edilib, döyülüb-söyüldükdən sonra tələb olunub ki, 1 milyon manat pul versin. Bədbəxt də qardaşına zəng edib, o da ancaq 560 min tapıb gətirə bilib. Razılığa gəlinib ki, Cabir Salyana gedib, nəyi varsa satsın və ya borc edib, qalan pulu düzəltsin.

- İstintaq materiallarında o danışdığın hissə yoxdur axı, - deyə səbirsizlik edən Zamanov Məmmədovun sözünü kəsməli oldu.

- Cənab prokuror, istintaq materiallarında çox şey yoxdur. Bununla bağlı tərəfimizdən istintaq-təhqiqat işləri davam etdirilir. Araşdırmaların nəticələrinə uyğun olaraq, qanuna zidd əməllərdə iştirak etmiş şəxslər barədə sizə məruzə edəcəyik.

Bu məqamda daxili telefon zəng çaldı, dəstəyi qal-

dıran Zahid Zamanov qısaca, - hə, gəlsinlər, - deyə bildirdi və dəstəyi qoydu. Qapının döyülməsi ilə Aran bölgəsi üzrə kurator, prokuror Faiq Məcidov və Baş pokurorluğun polisə nəzarət şöbəsinin prokuroru Şöhrət Kərimov içəri daxil oldular, yaxınlaşıb görüşdülər. Əyləşdikdən sonra Zahid Zamanov üzünü Yaşar Məmmədova tutub dedi:

- Deməli, istintaq materiallarında mühüm sənədlər yoxdur? Sonra səsinin tonunu qaldırıb əsəbi halda, sağ əlini Məmmədova tuşlayıb, - elə isə sən hara baxırsan, niyə vəzifəni düzgün icra etmirsən, - deyə bildirdi. Narahat görkəm alan Məmmədov yerində qurcalanıb, pörtmüş halda dedi:

- İmkan vermirlər, açıq şəkildə təhdid edirlər.

- Kim?

- MTN-dəkilər. Generallar Cavadov, Əliyev, Xasayev və onların tabeçiliyində olan əməkdaşlar. Orada dərəbəylik, özbaşınalıq, rüşvətxorluq və qanunsuzluq hökm sürür. Kimi istəsələr oğurlayır, kimi istəsələr həbs edirlər. Bir sözlə, o nazirlik ölüm kabusuna, işgəncə maşınına çevrilib. Daxili İşlər Nazirliyi də, az qala o nazirliyin bir şöbəsidir. Ordan nə deyilsə, burdan da onlar "ləbbeyk" deyirlər.



Məmmədovun heç bir sədd qoymadan MTN-nin ünvanına ittihamlar söyləməsi polisə nəzarət şöbəsinin prokuroru Şöhrət Kərimovun ürəyincə olmadı. İcazəsiz söhbətə müdaxilə etdi:

- Hüquq-mühafizə orqanlarında işləməyən şəxs kənardan sizin danışığınızı dinləsə, onda elə təsəvvür yaranar ki, sanki dövlət qurumları arasında amansız kriminal "razborka" gedir.

- Əslində necədir? - deyə Yaşar Məmmədov şöbə prokurorunun üzünə baxmadan sual etdi.

- Araşdırmaq mənim səlahiyyətimə aid deyil, - deməklə Zamanovun qarşısında özünü pis vəziyyətdə qoymaq istəmədi. Ancaq gec idi. Ox yayından çıxmışdı. Bunu Zahid müəllimin - Nəsə demək istəyirsənsə, açıq de, çəkinmə, - deməsi də təsdiqlədi.

Dilini sakit qoymadığından, özünü işə saldığını dərk edən Şöhrət Kərimov - Əslində, biz bura hüquq-müha-

fizə orqanları arasında soyuq münasibətləri müzakirə etmək üçün gəlməmişik, - deməklə söhbətin mövzusunu dəyişməyə ümid etdi.

Zahid Zamanov gülümsəyib, başını buladı. Sonra da üzünü Yaşar Məmmədova tutub dedi:

- Yaxşı, “Nilsa” şirkətinin sahibi Cabir Məhərrəmlinin necə öldüyü bəllidirmi?

- Bəli, cənab prokuror. Amma o ekspertin verdiyi rəydə yazıldığı kimi deyil, döyülərək öldürülüb.

Zamanov hiss ediləcək dərəcədə ah çəkib, əlini-əlinə vurub dedi:

- Deyəsən, o bədbəxt təzəcə ailə qurubmuş, yazıq.

- Elədir ki, var, Zahid müəllim, iki ay əvvəl özünə toy edibmiş. Nişanlısı da türk dünyasında çox yaxşı tanınan şair Məmməd Sahiblinin qızı idi.

Yaşar Məmmədov bir anlıq fikrinə ara verib, ətrafına gizli nəzər yetirdi. Hər kəsin maraqla onu dinlədiyini görüb sözünə davam etdi:

- Cabir Məhərrəmli dövlət səviyyəli “reket”lərin pulunu çatdırmaq üçün şirkəti satışa qoyur, amma alıcı olmur. Vaxtında pulun çatmadığını görən MTN generalları rayon polis idarəsinin rəisinə zəng edib onun tutularaq, bölməyə gətirilməsini əmr edirlər. Adını da qoyurlar ki, guya iş adamının hansısa xarici ölkə agenturası ilə gizlin əlaqəsini aşkarlayıblar. Polis rəisinin dediyinə görə, əməliyyat keçirib, Cabiri həbs edərək idarəyə gətiriblər. Gecə saat üç radələrində isə Bakıdan MTN-dəki kriminal mini-ordunun nümayəndələri gəlib, ayrıca otaqda Cabirlə söhbət aparıblar. Səhərə yaxın isə bədbəxtin keçindiyi məlum olub. Cinayətlərini ört-basdır etmək üçün isə meyidi, aparıb “Zənginlər” restoranının yanında maşınına qoyublar.

- Bəs rayon polis rəisi və prokuror nə deyir? - deyə Zamanov bu dəfə üzünü Aran bölgəsi üzrə kurator, prokuror Faiq Məcidova tutub sual etdi.

- Onları Bakıya dəvət etmişik, bu saatlarda gələsidirlər. Yaşar müəllimin yanında da o bölgədəki vətəndaşları ciddi narahat edən korrupsiya cinayətlərinin və hüquqpozmayla bağlı, eləcə də, son günlərin səs-küylü cinayətləri və milli qəhrəmanın oğlu Cabir Məhərrəm-

linin ölümü ilə əlaqədar istintaq müşavirəsi keçiriləcək.

- Nəticə barədə mənə məruzə edərsiniz, - deyə Zahid Zamanov üzünü Yaşar Məmmədova tutdu.

- Baş üstə, - deyən Məmmədov daha bir məsələ üçün müavindən izn istədi.

- Buyur Yaşar, nə demək istəyirsən?

- Zahid müəllim, bizim, daha doğrusu, dövlətimizin Fransa ilə problemi yarana bilər.

Təəccüblü nəzərlərlə şöbə prokuroruna baxan Zahid Zamanov başını sağa-sola yelləyə-yelləyə:

- Niyə ki? - deyə sual etdi.

- Zahid müəllim, Azərbaycanda olan Lui Santa adlı iş adamı həmin kriminal generallar tərəfindən təhqir olunub, işgəncəyə məruz qalıb.

Zamanov hadisələrdən, təxmini də olsa məlumatlı olsa da, yenə də eşitdiyi xəbərləri dəqiqləşdirmək üçün sual etdi:

- Səbəb nədir?

- Eyni ssenari, eyni dəst-xətt - rüşvət, korrupsiya,



başqasının əmlakını ələ keçirmək .

- Dövlətlərarası əlaqələrə mənfi təsiri var bunun?

- Bəli, cənab prokuror, günorta Fransanın Azərbaycandakı səfiri Jak Lukeyler mənim yanıma gəlmişdi. Fransa vətəndaşının qanunsuz dindirilməsindən, təhdid və təhqir olunmasından şikayət etdi.

- Nə cavab verdin?

- Siyasətçi olmasam da dövlət maraqlarımız baxımından məsələnin araşdırılacağı və müvafiq cavab veriləcəyini bildirdim.

Zamanov ayağa durub sağ əlini çənəsinə dirəyib qayğılı və narahat formada otaqda pəncərəyə və əks-istiqamətə iki-üç dəfə gedib-gəldi. Sonra da Yaşara üzünü tutub, asta səslə dedi:

- Prezident Aparatında bu məsələdən məlumatlıdırlar?

- Hələ ki yox, amma səfirin dediyinə görə, qondarma cinayət işi ləğv olunmasa və Lui Santaya qarşı təhdidlər dayandırılmasa, Prezident Aparatına şikayət edəcək, ölkəsinin rəsmi qurumları tərəfindən Azərbay-

canın Xarici İşlər Nazirliyinə etiraz notası təqdim olunacaq.

- İttihamın motivi nədir?

- Vergidən yayınma və qaçaqmalçılıq.

- Bu ki Vergilər Nazirliyinə aid olan işdir.

- Bəli, elədir, əslində, başlıca motiv tamahdır.

- Ondan nə qədər istəyiblər? - deyə Zahid Zamanov ironiya ilə soruşdu.

- Zahid müəllim, fransız iş adamı tək deyil. Onunla birlikdə "Parfum of Azərbaycan" şirkətinin rəhbəri Əfqan Hüseynov və şirkətin bir neçə əməkdaşı da generalların hədəfində olanlardandır. Onlardan tələb olunan məbləğ isə 2 milyon manatdır.

- Sən belə elə, dövlətin imicinə xələl gəlməsin deyə həmin işi MTN-dən al, - deyə Zahid Zamanov Yaşar Məmmədova tapşırıq verdi.

- Hansı işi? Ortada heç bir cinayət işi, araşdırma materialı yoxdur. Sadəcə, şifahi şəkildə hədə-qorxu gəlib, pul istəyiblər.

- Dediyimi elə, çalış o fransızı onların cəngindən



xilas et.

- Baş üstə, Zahid müəllim. Onların arxasında böyük güclər dayansa da, tapşırığınızı yerinə yetirəcəyəm.

Zahid Zamanov qaşlarını çatıb qətiyyətlə dedi:

- Məsəl var: "Gücün kimin tərəfində olmasının əhəmiyyəti yoxdur, əhəmiyyəti olan odur ki, qanun kimin tərəfindədir". Qanun sizin, bizim, bu dövlətin maraqlarını qoruyan kəslərin tərəfindədir. Sizi əmin edirəm ki, MTN-dəki kriminal rəhbərlik ifşa olunacaq. Bununla da bütün bağlı cinayətlərə obyektiv qiymət veriləcək.

Masa arxasında əyləşənlər müzakirənin bitdiyini başa düşdüklərindən ayağa durdular. Sağollaşmazdan əvvəl Zahid Zamanov Şöhrət Kərimovun narahat simasına sərt nəzərlə baxa-baxa söz atdı:

- Milli təhlükəsizliyi şəxsi mənafeyinə qurban verənlərə başa salın ki, haqqın şər üzərində qələbə çalmasına az qalıb.

Sözlər Şöhrət Kərimova güllə kimi dəydi. İstədi cavab versin. Amma vəziyyəti daha da ağırlaşdıracağını düşündüyündən, susmağa üstünlük verdi. Pörtmüş və

dili topuq vura-vura, - elədir ki var, Zahid müəllim, - deməklə kifayətləndi...

***

Parisdən gələn təyyarənin yerə endiyi elan olunanda, Ayaz bufetdə kofe içirdi. Məlumatı eşidən kimi kofedən bir qurtum da içib, fincanı nəlbəkiyə qoydu. Sonra da stolun söykənəcəyindən asdığı dəri gödəkcəsini geyinib gözləmə zalına keçdi. Giriş qapısına yaxın oturacaqlarda özünə yer edib əyləşdi. Gözlərini sərnişinlərin çıxacağı qapıya zillədi. Az sonra Parisdən gələn sərnişinlər qapıdan keçib dəstə ilə onlara tərəf gəlməyə başladılar. Ayaz qonağını qarşılamaq üçün ayağa durdu.

- Bu, Amandinadır, Santanın bacısı, - deyə, 20 yaşlarında sarışın, başında beret olan simasından və yerişindən təkəbbürlülük görünən xanıma yaxınlaşdı.

- Xoş gəlmisiniz, - deyə ona salam verdi.

Fransız xanım dilucu salamı alıb, - sizin adınız Ayazdır? - əvvəlki tövrünü və yerişini dəyişmədən sual etdi.





- Bəli, - cavabını alınca, xidmətçiyə uzadırmış kimi əlindəki çamadanı ona uzatdı. Ayaz hörmət əlaməti olaraq çamadanı onun əlindən alıb, çıxış qapısına addımladı. Onu təəccüb bürümüşdü. Axı saytlardan, qəzetlərdən fransız xanımlarının gözəl, yaraşıqlı, həm də son dərəcə nəzakətli olduğunu oxumuşdu. Amma Amandina onun oxuduqlarını ilk məqamda alt-üst etmişdi. Gözəl, qəşəng olmasına baxmayaq, nəzkətli davranışından söhbət gedə bilməzdi. Ancaq Ayaz tez-tələsik düşüncəsində Amandina ilə bağlı ilkin fikrində yaranan səhvi redaktə etməyə çalışdı. - Ola bilər ki, yol yorğunluğu var. O da ola bilər ki, sərhəd-keçid məntəqəsində və ya sərnişin salonunda kimsə onu əsəbləşdirib, - özünə təskinlik verməyə çalışdı. Hava limanının dayanacağında saxladığı "S" klass "Mersedes"inə yaxınlaşanda, Ayaz hiss etdi ki, Amandina onunla danışmaq belə istəmir. Çünki söhbət üçün körpü olsun deyə - necə gəldiniz, yorulmadınız ki, oralarda havalar necədir? - sualları cavabsız qaldı. Ayaz buna da fikir verməyib, maşının arxa "baqajı"nı açıb



çamadanı ora qoydu. "Baqaj"ın qapısını örtüncə, hiss etdi ki, Amandina arxa qapını açıb əyləşməsi üçün onu gözləyir. - Hər şey qurban olsun Lui Santaya, - deyib, fransız qızın istəyini yerinə yetirdi.

Ayaz qızların xasiyyətinə bələd idi. Onlarla nə danışmaq, özünü necə aparmaq lazım gəldiyini yaxşı bilirdi. Ona görə də kifayət qədər qız dostları vardı. Bu işdə ona uca boyu, idmançı görkəmi, cazibədar olması da yardımçı olurdu. Amma deyəsən, daş qayaya rast gəlmişdi. Amandina ipə-sapa yatmayan qızlardan idi. - Əgər evdə də bu qız qaşqabaqlı, zəhlətökən atmacalarını davam etdirsə, yəqin ki, ana onun otunu-suyunu verməli olacaq ki, bu da uzun illərin dostluğunun bitməsi ilə nəticələnəcək, - özlüyündə düşündü. Bu düşüncələr içində o, maşının mühərrikini işə salıb, qabaq işıqları qoşdu. Sağa-sola boylandı, maneənin olmadığını aydınlaşdırınca, Mərdəkan-Bakı magistral yoluna çıxdı. Arxadan Amandinanın səsi eşidildi:

- Laçi necədir?

Ayaz qızın qardaşının sağlamlığı ilə bağlı verdiyi

sualında bir yumşalma duydu. Ona görə də, eyni sakit səs tonu ilə, - çox şükür, salamatçılıqdır, - deyə cavab verdi.

- Nə şükür-filan salmısınız? Laçinin qıçını şikəst edib, xəstəxanaya salmısınız, hələ bir şükürdən danışırsınız?!

Ayaz duruxdu, güzgüdən onun parıldayan əsəbi gözlərinə, ani də olsa baxıb dedi:

- Əssasız yerə bizi ittiham edirsiniz. Lui Santa bizim ailənin dostudur...

Amandina onun sözünü ağzında qoydu:

- Yaxşı-yaxşı, o nağılları polisə deyərsiniz.

- Siz nə danışırsınız?..

- Mən nə danışdığımı çox yaxşı bilirəm. Səhər Fransa səfirliyinə gedib, oranın vəkilləri vasitəsi ilə sizlərdən polisə şikayət edəcəyəm.

Ayaz təəccübünü gizlədə bilmədi:

- Bu, sizin fikrinizdir, yoxsa Lui Santa da sizin kimi düşünür? - şübhəli nəzərlərlə Amandinanın nə cavab verəcəyini gözlədi.



- Laçi avamdır, o sizin əsl simanızı tanımır. Mən isə, bu işi belə qoymayacağam.

Ayaz rahat nəfəs aldı.

- Deməli, Lui Santa bu qızın sayıqlamasından xəbərsizdir. Bununla belə, onu narahatçılıq bürüdü. - Əgər bu qız, hissə qapılıb, polisə şikayət etsə, onda vay bizim halımıza, MTN-dəkilər, onsuz da əlavə ittiham üçün bəhanə axtarırlar - öz-özünə düşündü. Bundan sonra iki-üç dəqiqə sakitlik yarandı. Cansıxıcı sakitliyi yenə də Ayaz pozdu:

- Əsəbi olmağınızın səbəbini başa düşə bilmirəm, gedək evdə dincəlin, səhər danışarıq.

Amandinanın sərt səsi eşidildi:

- Siz azərbaycanlılar başqa millətin insanlarını təhqir etməkdən, alçaltmaqdan, deyəsən, zövq alırsınız. Əsəbi deyiləm, digər tərəfdən, mən sizin evdə qala bilmərəm. Ən yaxşısı oteldir, ora isə Lui Santaya dəydikdən sonra gedəcəyəm.

Ayaz Amandinanı fikrindən daşındırmaq üçün beynində çox var-gəl etdi, amma çıxış yolu tapa bilmədi.

Qızın əsəbi danışıqları isə ara vermirdi.

- Sizə ağırdırsa, saxlayın, mən taksi ilə Laçiyə dəyib, oradan otel axtarışına gedərəm, - deyə gözlənilməz bəyanat verdi.

Ayaz narahat olmağa başladı. - Bu, lap biabırçılıq olar, əgər Amandina taksi ilə Lui Santanın yanına getsə, - düşüncələr içində var-gəl etdi.

- Saat ikiyə işləyir, indi Lui Santa yatır, başa düşürsünüz? - Ayaz fransız qızını fikrindən daşındırmaq üçün son dəfə cəhd etdi. Amma Amandina fikrində israrlı idi. Hiddətlə yumruğunu qabaq oturacağa vurub dedi:

- Nə qədər gönü qalın insanlarsınız? Yəni sizləri başa salmaq üçün əli silahlı rus olmaq lazımdır?

Ayaz bu qızın getdikcə azğınlaşaraq, milli heysiyyətə toxunan fikirlər söyləməsinə artıq dözə bilmədi:

- Amandina, yadından çıxarma ki, Fransanın faşizmdən xilas edilməsində azərbaycanlıların, o çümlədən, Müqavimət Hərəkatının lideri olmuş Şarl de Qolla eyni mübarizədə iştirak etmiş, sizlərin Armed Mişel



adlandırdıqları Əhmədiyyə Cəbrayılovun xüsusi şücaəti, qəhrəmalığı olub. Heç olmasa haqqı danmayın.

Deyəsən, Amandina kobud səhvə yol verdiyini başa düşdü. Ona görə də xırıltılı səslə dedi:

- Yaxşı, unudun, bunu mənim kobud səhvim kimi qəbul edin.

Ayaz Amandinanın geri çəkildiyini görüb, bir qədər də onun üzərinə yeridi:

- Adını unutduğum filosofun belə bir kəlamı var: "Həyat yuxudan məyus halda oyanmaq üçün çox qısadır. Ona görə də sənə düzgün davranış göstərən insanları sev, bunu etməyən kəsləri unut". Çox təəssüf ki, ilk baxışdan mədəni göründüyünüz halda, əslində, qaba davranışa malik birisiniz.

Amandina isə dinmədi, susmağa üstünlük verdi. Artıq Neftçilər Xəstəxanasına çatmışdılar. Ayaz maşını sağa verib, xəstəxananın giriş qapısı önündə saxladı. Bu dəfə Amandina üçün maşının qapısını açmağa ehtiyac duyulmadı. Ayaz mühərriki söndürüb yerə düşüncə, Amandina əl çantasını və salafan paketi götürüb,

dinməz-söyləməz maşının qapısını açıb aşağı düşdü. Sonra da Ayaza üzünü tutub, sual etdi:

- Neçənci palatadır?

- 54-cü.

- Arxa baqajı açın, çantanı götürüm. Siz isə hər şeyə görə sağ olun, gedə bilərsiniz.

Ayaz eşitdiyi sözlərdən tutuldu, bir anlıq fikrə getsə də, tez də özünü ələ alıb, sərt şəkildə dedi:

- Tələsməyin, bundan sonrakılarla bağlı qərarı Lui Santa verməlidir.

Amandina yenə də dilini dinc qoymadı:

- Biz kölə deyilik. İstər kişi, istərsə də qadın bu günü və sabahı, ümumilikdə isə taleyi ilə bağlı qərarlarını özü verir. Biz demokratik ölkənin azad vətəndaşlarıyıq.

Ayaz acı kinayə ilə söz atdı:

- Hansı azadlıqdan danışırsan ki, Fransa qadınlara seçib-seçilmək hüququnu müstəqillik aktının qəbulundan 134 il sonra verib. Köləliyi isə müstəllik aktından 146 il sonra ləğv edib.



Amandina bir anlıq təəccüblə, Ayaza baxdı. Ayaz isə qızın susduğunu görüb, şüşəli qapıya yaxınlaşdı. Bir-iki dəfə qapını döyüncə ağ xalatlı qadın onlara yaxınlaşdı. Deyəsən, yuxulu idi. Üz-gözündən yorğunluq yağırdı. Deyinə-deyinə qapını açıb salamsız-kalamsız: - Gecənin bu vaxtı nə axtarırsınız, nə lazımdır? - deyə vaxtsız gələn qonaqları sorğu-sual etdi.

Ayaz çənə-boğaz olmaq üçün heç də münasib vaxt olmadığını bildiyindən, 20 manatlığı onun cibinə qoyub, - xəstəmiz var, təcili ona dəyməliyik - deyib artıq yumşalan nəzarətçi tibb bacısının yanından keçib, ikinci mərtəbəyə qalxdı.

Arxadan tibb bacısının səsi eşidildi:

- Ehtiyatlı olun, çalışın səsiniz çıxmasın.

Ayaz yavaş səslə, - narahat olmayın - deyib ikinci mərtəbənin dəhlizinə girdi. Asta addımlarla irəliləyib Santanın yatdığı palatanın qapısını iki dəfə barmağı ilə döyəclədi. İçəridən səs gəldi.

- Gəlin.

Gecə lampasının işığında kitab oxuyan Lui Santa

Ayazın, ardınca isə Amandinanın palataya daxil olduğunu görüncə dikəldi. İlk öncə Ayazla əl verib doğma qardaşlar kimi görüşüb öpüşdülər. Daha sonra Amandina ilə salamlaşdı, onu bağrına basıb üzündən-gözündən öpdü. Amandinanın hıçqırtısı eşidildi:

- Bu vəhşilər səni nə hala salıblar, Laçi?

Santa Ayazın pörtmüş simasını görüncə, başa düşdü ki, Ayazın bacısı ilə yol yoldaşlığı heç də asan keçməyib. Nəyi də olmasa, bacısının azərbaycanlılara qarşı münasibətinin heç də yaxşı olmadığını bilirdi. Dəfələrlə onu yanlış mövqeyindən çəkindirməyə çalışsa da, faydası olmurdu.

Ayaz kənarda dayanıb Amandinanın qardaşını qucaqlayaraq hıçqıra-hıçqıra ağlamasına, arada ittiham xarakterli fikirlər səsləndirməsinə tamaşa edirdi. Lui Santa başını qaldırıb Ayaza baxanda, onun narahatçılıq keçirdiyini başa düşdü. Müdaxilə etməsə, vəziyyətin gərgin xarakter ala biləcəyini düşündü. Ona görə də:

- Ayaz, üzr istəyirəm, dərman qoxusu səni haldan salacaq, eyvana keçin, rahat nəfəs alın, - deyərək diplomatik jestlə bacısı ilə ikilikdə qalmasına işarə vurdu. Bu anda anasının zəng etməsi, Ayazın da eyvana keçərək danışması üçün bir imkan oldu. Eyvana çıxınca şaxtalı qış havası onun sifətinə vurdu, nəfəsini içinə çəkib, ciyərləri dolusu hava uddu. Sonra da telefonu qulağına tutub, anası ilə bir xeyli danışdı. Santanın yanında olduqlarını, beş-on dəqiqəyə evə gələcəklərini anasına deyəndə, özü də Amandinanın onlara gedəcəyinə şübhə ilə yanaşırdı. Amma bu barədə anasına bir kəlmə də söz demədi. Eyvanın şüşəsi döyüləndə, başa düşdü ki, getmək vaxtıdır. Qapını açıb, palataya daxil olanda Amandina ağlamağını kəsib sakit nəzərlərlə qardaşına baxırdı. Onu görəndə, utanırmış kimi gözlərini aşağı dikdi, amma bu, az çəkdi. Yadına nəsə düşmüş kimi, dərhal da ayağa qalxıb bayaqdan küncə qoyduğu salafan paketi açdı. Oradan fransız təamları olan “Jülyen”, “Baget”, “Eskarqo”, “Ratatua” çıxarıb masanın üzərinə düzdü. Sonra da:

- Laçi, gəl bu yeməklərdən ye, - deyə onu masaya dəvət etdi.

- Aclığım yoxdur, bayaq Mətin isti düşbərə və kabab gətirmişdi, o ki var yemişəm, - deyərək yeməkdən imtina etməyə çalışdı.

Amma Amandina israr etdi:

- Laçi, bunları azərbaycanlı aşbazlar deyil, ana və mən bişirmişəm.

Lui Santa bacısının köntöy danışığının ara verməsi üçün çaypayıdan durub masaya yaxınlaşdı.

- Ayaz, əyləş görək, bu qızın mətbəxdə bacardığı bir şey varmı? - deyə gülə-gülə Ayaza baxdı.

Ayaz artıq boşqablara qoyulan yeməklərə baxıb çəngəli əlinə aldı. Bir cəngəl "Ratatua"dan ağzına qoyub iştahla yedi.

Santa sual etdi:

- Hə, necədir, əgər sənin xoşuna gəlməsə, həmin yeməkləri Amandinanın ciblərinə doldurub Fransaya yola salacağam.

Amandina gülümsəyib diqqətlə Ayazın nə cavab verəcəyini gözlədi.

- Çox dadlı və ləzzətlidir, - Ayaz "Ratatua"dan bir



cəngəl də ağzına qoyub marçıldada-marçıldada dedi.

Amandina sanki imtahan verirdi. Müəlliminin müsbət cavabını eşidincə, üzərindən elə bil yük götürüldü. Dərindən nəfəs alıb özündən razı halda yeməklərə baxdı.

- Bu yeməyin tərkibində hansı tərəvəzlər var? - Ayaz sual etdi. Lui Santa cavab verməyə macal tapmamış Amandina dilləndi.

- Bu yemək pomidor, soğan, badımcan, sukkini və bibərdən hazırlanıb.

- Çox yaxşı, - Ayaz "Jülyen", "Baget" və "Eskarqo" yeməklərindən də daddı.

Ayağa duranda Ayaz söz atdı.

- Lui Santa, səhər mən də gəlib sənin yanında yatacağam. Boğazına şərik olub bu yeməklərin axırına çıxacağam.

Lui Santa Amandinanın xəfifcə güldüyünü görüb, - deyəsən, onunla ikilikdə söhbətimiz nəticəsini verib, - deyə öz-özünə düşündü. Fikrində tam əmin olmaq üçün dedi:

- İndi gedin bizə evə, yatın, dincəlin, səhər görüşüb daha ətraflı söhbət edərik.

Amandina təəccüblü nəzərlə gözlərini Lui Santaya dikib sual etdi:

- Başa düşmədim, bizə deyəndə, nə demək istəyirsən? Yəni sənin şəxsi evin var?

Lui Santa əlini bacısının çiyninə qoyub şəstlə dedi:

- Amandina, Azərbaycan mənə doğmadır. Ayazgilin evi elə həm də mənim evimdir. Əfqan müəllim və onun ailəsi mənim üçün sizlər qədər əzizdir.

Amandina qardaşına baxıb mızıldandı.

Lui Santa onun üzündən öpüb dedi:

- Amandina, get Ayazla.

Sonra da yeməkləri salafan paketə qoyub Ayaza uzatdı.

- Ayaz, bu yeməkləri də apar evdə yeyərsən. Burda yatmağa ehtiyac yoxdur. Onsuz da sabah yox, birisi gün mən də çıxıram.

Ayaz gülə-gülə salafan paketi Santadan alıb qardaş nəvazişi ilə qucaqlaşdı. Artıq buzlar ərimişdi. Amandina Ayazla getmək üçün yır-yığış etdi. Sağollaşıb çıxarkən Santa asta səslə:



- Amandina, sən get, mənim Ayaza sözüm var, - deyib bacısına - sabaha qədər, - dedi.

Amandina çıxınca Lui Santa narahat baxışlarla ətrafı seyr edib dedi:

- Ayaz, Əfqan müəllimdən nə xəbər var?

Ayazı qəhər boğdu, xırıltılı səslə dedi:

- Hələ ki heç nə. MTN generalı asıb-kəsir, hədə-qorxu gəlir.

Lui Santa:

- Bu gün MTN müstəntiqi Cavad Tahirzadə yanıma gəlmişdi. Məndən Əfqan müəllimin əleyhinə izahat yazmağı tələb etdi. Amma mən onu qovdum.

Ayaz təşvişlə:

- Cavad Tahirzadə general Qiyas Çobanovun şillə vuranıdır. Məni də o dindirmişdi. İstədiyi izahatı yazmadığımdan, mənə işgəncə verirdi, söyüb təhqir edirdi. O, çox qəddar, ürəyində rəhm və mərhəmət olmayan “çekist”dir.

- Narahat olma, səhər bu biabırçılığa son qoyacağam, - qətiyyətlə bildirdi.

- Necə?

- Fransa Xarici İşlər Nazirliyində bir dostum işləyir. Onu Əfqan müəllim də tanıyır. Ötən il Parisə gələndə tanış etmişdim.

Ayaz hövsələsizlik edib tövşüyə-tövşüyə dedi:

- Dostun nə dedi ki?

- Dostum söz verdi ki, məsələ ilə bağlı Bakıdakı Fransa səfiri ilə danışacaq.

- Səncə, sizi başından eləməyib ki?

- Yox, sən nə danışırsan? O, elə oğlan deyil. Axşam saat 8-9 olardı, səfirliyin ikinci katibi, Mişel Şirak mənə zəng etmişdi. Kefimlə, sağlamlıq durumumla maraqlandı. Söz verdi ki, rəsmi Bakı ilə danışıb, məsələni yoluna qoyacaq.

Ayaz eşitdiyi xəbərdən sevincək olduğundan qucaqlayıb Santanın üzündən öpdü, - Əhsən, əla - amma tez də özünü ələ alıb təşvişlə dedi:

- Artıq sən burda qala bilməzsən, yığış gedək evə.



Lui Santa:

- Niyə ki?

- Çünki onlar gecə quldurları kimi bir şeydirlər. Sənə xətər yetirə bilərlər.

- Narahat olma. Nə qədər axmaq olsalar da, Fransa vətəndaşına xətər yetirmək kimi dəlilik etməzlər.

- Nəsə bir şey olsa, dərhal zəng et.

- Oldu.

Lui Santa mövzunu dəyişib getməkdə olan Ayaza:

- Qardaş, Amandinaya fikir vermə, o, çox çılğın, hissə qapılan və düşünmədən danışan qızdır. Nə sayıqlasa, mənim xətrimə bağışlayın.

- Narahatçılığa əsas yoxdur, Amandina Qiyas Çobanovdan və ya Cavad Tahirzadədən artıq olmayacaq ki, - söhbəti yekunlaşdırmağa çalışdı.

Lui Santa Ayazla sağollaşıb çarpayıya oturdu. İlk öncə gipsdə olan ayağını döşəyin üzərinə uzatdı, daha sonra başını yastığa qoydu. Yerini rahatladıqdan sonra yatmaq üçün gözlərini yumdu...





***

Qəddi-qamətli, gözəl simalı bu qadın indi solmuş gülə bənzəyirdi. Allah ona bir oğul, bir qız övladı versə də, müharibə hər ikisini əlindən alıb arxasız-köməksiz qoymuşdu. Pənah yenicə ailə qurub toy etdikdən üç ay sonra hərbi xidmətə yollanmışdı. Cəbhə də Tərtər-Ağdam istiqamətində gedən döyüşlərdə erməni snayperinə tuş gələrək şəhid olmuşdu. Bu dərd az imiş kimi, Ağdamın Sarıcanlı kəndinə gəlin köçən qızı Mədinə də nişanlısının toyu günü ermənilər tərəfindən qətlə yetirilmişdi. Ananın ürəyinə iki çalın-çarpaz yara vurulmuşdu ki, bəzən bu dərdə, iztiraba dözmədiyindən, bayılıb özündən gedirdi. Yanğısını ancaq göz yaşları və ağı deyib bayatı səsləndirməklə söndürməyə çalışırdı. Dərdli ana yenə də şəhid olan ciyərparalarını yadına salıb ağı deyirdi:

Bilirəm çətindir itirmək bala,
Öpüb üz-gözündən salırsan yola.

Nişanlısı sənə təsəlli ola,
Sənə əmanətdir şəhid balası.

Qaynamır qazanımız, yanmır ocağımız,
Nə vaxtdır eşitmir qulağım səsin.
Səni gözləyirdi bəylik otağın,
Dağlama qəlbimi şəhid anası,
Sənə əmanətdir hər nişanəsi.

Ana ağını bitirib başına örtdüyü qara şalı ilə göz yaşlarını sildi. Divanda yanında oturan oğul nişanəsi Turanın başını sığallayıb üzündən öpdü. Yenicə açılmış qızılgül kimi hələ də təravətini, gözəlliyini saxlayan gəlinin gətirdiyi çayı əlinə götürüb, onun qəmli-qüssəli gözlərinə baxmadan bir qurtum içdi. Bu zaman qapının da zəngi çalındı. Ana təəccübləndi:

- Yəqin azan, təzəndir, amma bir bax, gör kimdir, - Turanı qapını açmağa göndərdi. Az sonra dəhlizdə səs-küy qopdu. Şəhid anası gələni səsindən tanıdı. Bu, əmisi nəvəsi Ayaz idi. Tükəzban xala onu qarşılamaq



üçün ayağa durdu. Ayaz qucağında Turanla içəri daxil olub, ədəb-ərkanla Tükəzban xala ilə görüşüb-öpüşdü.

- Bu qız kimdi? - deyə Tükəzban xala ayaq üstə arxada dayanan qızı göstərdi.

Ayaz Turanı qucağından yerə qoyub dedi:

- Tükəzban xala, bu qız atamın dostu Lui Santanın bacısı Amandinadır.

Tükəzban xala heç nə başa düşməsə də özünü o yerə qoymadı. Qucaqlayıb qızın üzündən öpdü, oturmağa yer göstərdi. Ayaz Amandinaya üzünü tutub məlumat verdi. Bu ağsaçlı qadın bayaq üçüncü mərtəbədə ikən eşitdiyin bayatı deyən şəhid anasıdır. Oğlu və qızı ermənilər tərəfindən öldürülüb. Bu uşaq şəhidin oğlu, gəlin isə həyat yoldaşı idi.

Amandina gözləri bərəlmiş halda otağa göz gəzdirdi, şəhid ailəsinə təəccüb dolu nəzərlə baxıb dedi:

- Şəhidlər Xiyabanında olarkən ermənilər tərəfindən öldürülən azərbaycanlı qəbirlərini gördük. Axı mənə başqa şeylər deyiblər, fərqli videogörüntülər göstəriblər. Tükəzban xala eşitdiyi sözlərdən əsəbiləşdiyindən,

özünü saxlaya bilməyib qonağa səsini qaldırdı:

- Onu deyənlər və yazanlar amerikan, fransız, ya da ingilis ola bilər. Onlardır erməniyə silah və "noyom-nik" dəstəyi göstərib, bizləri qırdıran. Mənim oğlumu Livandan, Fransadan gələn qızlar snayperlə vurublar.

- Fransız qız, bu, ola bilməz, - Amandina qeyri-ixtiyari ayağa qalxdı. Şəhid anası və gəlini də ayağa durdular. Araya qanqaraçılıq düşəcəyindən narahat olan Ayaz Amandinanı sakitləşdirməyə çalışdı.

- Onları başa düşün. Yaddan çıxarmayın ki, Nitsa şəhərində Bastiliya qalasının alınmasının bayram edildiyi zaman 100-ə yaxın insanın öldürülməsi, 300-ə yaxın insanın isə yaralanması ilə nəticələnən terror aktından sonra fransız anaları da bax, bu Qarabağda oğlunu itirən şəhid anası kimi günahkar axtarışına çıxıb ittihamlar, qarğışlar yağdırıb.

Amandina səhvini başa düşüb üzrxahlıq etdi. Əyləşdikdən sonra sual etdi:

- Erməni qonşularınız nə istəyirlər?

- Təsəvvür edin ki, Fransanın ikinci ən böyük mə-



dəniyyət paytaxtı, gözəl memarlıq mərkəzi olan Lili şəhərini Belçika ərazisinə qatmaq istəyir. Tələbi yerinə yetirərsinizmi?

- Təbii ki, yox. Nə olsun ki, Lili şəhəri Belçika ilə sərhəddə yerləşir.

- Bax, ermənilər Dağlıq Qarabağın Ermənistanla sərhəddə yerləşdiyini əsas gətirərək, bu torpaqların Ermənistana birləşdirilməsini istəyirlər. Təəssüf ki, bəzi imperialist qüvvələr də ermənilərə dəstək göstərirlər.

Amandina Ayazın imperialist qüvvələr deyərkən Fransanı da nəzərdə tutduğunu başa düşsə də, bir söz demədi. Növbəti sualı verdi:

- O, Dağlıq Qarabağda hansı ləhcədə danışırlar.

Ayaz suala sualla cavab verdi.

- Amandina Lili şəhərinin əhalisinin az qala 80-85 faiz Belçika əsillidir, daha çox fuaman ləhcəsində danışırlar. Bu Lili şəhərinin Belçikaya birləşdirilməsi üçün əsas ola bilərmi?

- Əlbəttə ki, yox.

Ayaz Amandinanın təhsil aldığı Monpelye Texno-

loji Universitetində beyninə yeridilən saxta məlumat bazasını dağıtmaq üçün faktlara istinad etdi:

- Ruanda, Oradur, Xatın, Lidsa soyqırımlarından xəbərin varmı?

- Təbii ki, var.

- Xocalı soyqırımından necə?

- Dekan müavinimin dediyi hələ də yadımdadır. Orada ermənilər rus qardaşları ilə birlikdə azərbaycanlıların müqavimətini qıraraq şəhəri azad edə biliblər.

- Diplomat olmaq iddiasındasınız. Fransa Xarici İşlər Nazirliyinə təyinat aldığınızı deyirsiniz. Əgər gələcəkdə də məsələlərə hansısa dekan müavininin fikirlərinə əsaslanaraq baxsanız onda vay Fransa diplomatiyasının halına. O, dekan müavininə çatdırarsan ki, soykökündən olduğun ermənilərin Xocalıda törətdikləri qətliam miqyasına görə tarixdə mövcud olmuş soyqırımlardan daha amansız və dəhşətlidir. Bir gecədə 7 min əhalisi olan şəhər yer üzərindən silinib. Yüzlərlə insan öldürülüb, yaralanıb, girov götürülüb. Yalnız 63 uşaq süngü ilə qətlə yetirilib ki, onların ən kiçiyi iki



günlük, böyüyü isə 7 yaşında olub...

Amandinanın gözləri doldu. Alnını masaya söykəyib hıçqıra-hıçqıra ağladı.

- Ayaz, bu ki vəhşilikdir. İnsan da insana qarşı bu dərəcədə qəddarlıq edər?

- Ermənilər edə bilər.

Amandinanın qəzəbli səsi eşidildi:

- Əgər doğrudan da Fransa dövlətinin Dağlıq Qarabağda azərbaycanlıların qətliamında əli varsa, mən bir fransız olaraq üzr istəyirəm. Parisə qayıdan kimi dekan müavini Qreta Ziegleri isə məhkəməyə verəcəyəm.

Ayaz yalnız indi başa düşdü ki, Amandinanın Azərbaycana qarşı qəzəbli olmasının arxasında təhsil aldığı universitetin dekan müavininin məkrli təbliğatının xüsusi rolu olub. Yaxşı ki, Amandina Azərbaycana gəldi və həqiqəti öz gözləri ilə gördü.

Çayını içib fincanını nəlbəkiyə qoyan Tükəzban xala qanlı-qanlı Amandinanı süzüb dedi:

- Siz nə millətisiniz?

Amandina sanki təhqiredici ittihamlar eşidəcəyini

duyduğundan, bir neçə saniyəlik susmalı oldu. Ağzını açıb danışmaq istərkən Ayaz dilləndi:

- Tükəzban xala, bu qız ailə dostumuzun bacısıdır. Avropadan gəlib.

Amandina Ayaza baxıb gözləri ilə təşəkkürünü bildirdi. Tükəzban xala da artıq bir söz demədi. Yaranan sakitlikdən istifadə edən Ayaz söhbətin mövzusunu dəyişmək üçün dedi:

- Gəlin bacı, bəlkə süfrə açasınız, ailəliklə çörək yeyək?

- Hə, hə, lap başımı itirmişəm - deyən Mehin cəld ayağa durub mətbəxə keçdi. Amandina da gəlinin arxasınca otağı tərk etdi. Az sonra qadınlar Ayazın gətirdiyi qrili və kababları qazın üstündə qızdırıb süfrəyə gətirdilər. Masa arxasında əyləşib, söhbət edə-edə çörək yedilər. Şirin söhbət əsnasında gözlənilmədən Amandina Mehinə üzünü tutub dedi:

- Siz niyə qara paltardasınız?

Mehin əlindəki çörəyi süfrənin üzərinə qoyub, başını aşağı saldı. Tükəzban xala başındakı qara şalına əl



gəzdirib ədayla dedi:

- Çünki o, şahid olması ilə ölməzliyə qovuşan igid balamın qara bəxtli yadigarıdır.

Amandina Fransa təfəkkürünə və ənənəsinə uyğun olan daha bir suala cavab tapmağa çalışdı:

- Bəs qara paltarını dəyişmədiyinə görə indiki əri narazılıq etmir? Axı...

Amandinanın sözü ağzında qaldı.

- O, papaq deyil ki, bu başdan o başa qoyulsun. Mehinin sevdiyi, seçdiyi yalnız bir oğul olub ki, onu da erməni vəhşiləri əlimizdən aldılar.

Mehin əllərini dizləri üstünə qoyub gözlərini uzaq nöqtəyə dikdi. Göz yaşları yanağından süzülüb çənəsinə axdı. Amandina təsirləndi. Yerindən durub Mehinə yaxınlaşdı, onun boynunu qucaqlayıb:

- Mən sizi incitmək istəmirdim, bağışlayın.

Mehin köks ötürüb başındakı qara zolaqlı yaylığı ilə göz yaşlarını silib ümidlə dedi:

- Pənah cəbhəyə gedərkən, şəhid olacağı təqdirdə, haqq dünyasında ruhlarımızın qovuşacağı vədini ve-

rib, bax, təskinliyim budur.

Amandinanı təəccüb dolu dəhşət bürümüşdü. Bu, necə ola bilər? İnsan da öz həyatı ilə tarana gedərmi? Axı cavan ömrünü qara paltarda, qara günlər keçirməklə çürütmək olarmı?

Ayaz mövzunu dəyişmək üçün müdaxiləyə ehtiyac duydu:

- Gəldik ki, dərdinizi bir qədər söhbətlərimizlə yüngülləşdirək, amma...

Yerinə qayıdıb oturmaqda olan Amandina Ayaza üzrxahlıq edib üzünü şəhid ailəsinə tutub dedi:

- Günah məndədir. Ağılsız suallarımla sizin yaranızı təzələdim. Bəlkə xala qulağımı çəksin, hə, nə deyirsən Ayaz?

Amandinanın son cümlələri qəmgin üzlərdə təbəssüm yaratdı.

Ayaz xoş ovqatı bir qədər də dərinləşdirmək üçün məsləhət verdi:

- Amandina cərimələnsin, əl çantasında ən qiymətli nə varsa masanın üstünə qoysun.



Gözlər Amandinaya dikilincə, o, ayağa durub divanın üstünə qoyduğu çantasını götürüb açdı, bir xeyli qurcalandı. Ayaz söz atdı.

- Bizə papış tikmə, qiymətli olanı çıxart masanın üzərinə qoy. Yoxsa Turanla ikimiz zor gücünə cəriməni sənə ödətdirərik.

Gülüşmə qopdu. Amandina 300 avro çıxarıb Turanın cibinə qoymaq istədi. Tükəzban xala etiraz etdi:

- Bala, onu etmə, bizim pula-paraya ehtiyacımız yoxdur.

Amandina duruxdu, onu çıxılmaz vəziyyətdən Ayaz qurtardı.

- Tükəzban xala, xahiş edirik, qonaqdı, xətrinə dəyməyin. Amandina ürəkləndi, pulu uşağın cibinə qoydu.

Tükəzban xala da əmi nəvəsinin xahişindən sonra dinmədi.

- Bununla günahını yuya bilməyəcəksən, çıxart görək daha nəyin var? - Ayaz söz atdı.

Amandina yenidən çantasında qurcalandı.

- Tapdım, - Amandina dəyəri çox qiymətli olan ətiri

çıxarıb masa üstünə qoydu.

- Bu, şahzadə Yelizavetanın 60 illiyi münasibəti ilə şüşə brilyant və qızıldan hazırlanan "Royal Arms Diamond Edition Parfume" ətiri idi.

Ayaz:

- Oho, bu qızı topsuz-tüfəngsiz qarət etdik, - gülə-gülə bildirdi. Sonra da ciddi görkəm alıb ultimatum formasında dedi:

- Bundan sonra o, dilinə yiyəlik etməyin cəzasının ağır olduğunu başa düşər və bir daha səhvlər etməz.

Amandina kefini pozmayıb Turanı yanına çağırdı. Turan ürkək nəzərlə anasına baxdı. Onun razılığını aldıqdan sonra Amandinaya yaxınlaşdı. Qız Turanı qucağına götürüb dizləri üstündə oturdub üzündən öpdü.

- Nə qəşəng oğlandı, məni alsaydı, burada qalıb Mehinə mətbəxdə, ev-eşiyin yığışdırılmasında kömək edərdim.

Uşaq Amandinanın dediyindən diksindi. Onun dizləri üstündən yerə düşüb, nənəsinin yanına qaçıb ona qısıldı. Evdəkilər Amandinanın sözlərinə və Turanın



hərəkətlərinə güldülər. Ayaz qohumları ilə söhbətini xoş ovqatla başa vurmasından sevindi. Sağollaşmaq üçün ayağa durdu. Tükəzban xala narazılıq etdi:

- A bala, hara tələsirsiniz, oturun bir aş dəmləyək, yeyin, gedərsiniz?!

Ayaz:

- Hər şeyə görə sağ ol, xala, - yaxınlaşıb onunla, daha sonra Turanla öpüşüb Mehinə, - sağ ol, gəlin bacı, - deyib, qapıya tərəf addımladı. Amandina şəhid ailəsi ilə görüşüb-öpüşdü. Turanın başına əlini qoyub, - bax ha, o yan-bu yana boylanıb şorgözlük eləmə, sənə özüm gedəcəyəm.

Gülüşmə qopunca uşaq geri çəkilib nənəsinin ətəyinin arxasında gizləndi. Ayaz gödəkcəsinin yaxasını bağlaya-bağlaya dördüncü mərtəbəni pilləkənlərlə aşağı addımlamağa başladı. Aşağı düşəndə Amandinanın səsi eşidildi.

- Bilirsən nə istəyirəm?

- Təəssüf ki, məndə ürəkləri oxumaq istedadı yoxdur, desən bilərəm.

- Bu soyuq qış günündə pəncərə önündə oturub bir fincan çay içmək.

- Həzin musiqi lazım deyil?

- O da olsa, pis olmaz.

Ayaz bir şey başa düşmədiyindən, maraqlı nəzərlər-lə ona baxdı.

- Gedək evə istədiyini edərsən.

- Yox, evi istəmirəm, - Amandina ilk dəfə olaraq nazlı baxışlarla Ayazı süzdü.

Sonra da ədalı tərzdə təkid etdi.

- Dəniz qırağına gedək, qapalı, isti bir otaq olsun.

- Getsək, evdə narahat olacaqlar, bir də bu gün ax-şam fransız yeməklərinin bişirilməsi üçün tədarük gö-rülüb. Biz də orada olmalıyıq.

- Yox, mən dəniz qırağını istəyirəm, orada gecə yarısına qədər oturub söhbət etmək, o şəhid ailəsində üzləşdiyim qəmli simalardan, üzgün gözlərdən, ümu-milikdə, mənfi auradan çıxmaq istəyirəm.

- Onları unutmaq mümkün deyil, - Ayaz dərindən yanıqlı ah çəkdi.



Maşın magistral yola çıxdıqdan sonra arada sakitlik yarandı. Uzun çəkən bu darıxdırıcı sükutu Amandina pozdu:

- Deyəsən, səni işə saldım, yaxşı, gedək evə.

Ayaz narazı baxışlarla, deyilən narazı sözlərdən gü-lümsəyib dedi:

- Əgər dəniz qırağına getmək istəyirsənsə, gedək, amma babalı sənin boynuna, ittihamlara sən cavab verəcəksən.

Bu sözlərdən qırışığı açılan Amandina xoş əh-val-ruhiyyə ilə gülə-gülə dedi:

- Narahat olma, Laçi xasiyyətimə bələddir, bilir ki, sərsəri kimi harasa üz tutub getmişəm. Təbii ki, səni də arxamca sürüyüb aparmışam.

Ayazın susmaqdan və şıltaq fransız qızının istəyini yerinə yetirməkdən başqa çarəsi qalmadı. Dərnəgüldəki qaçqınlar üçün inşa olunan binalardan ayrılıb Binəqə-di-Novxanı yoluna çıxanda, artıq gün batmaq üzrə idi. Amandina maqnitofonu qoşub estrada musiqisi səda-ları altında zümzümə etməyə, hətta arada bir əl-qolu-

nu oynatmağa başladı. Ayaz narahat olmağa başladı. Nə də olmasa, MTN-dəki "vor-zakon"larla problemləri hələ də qalmaqda idi. Ehtiyat edirdi ki, "çekist"lər onu izləyər və şəklini çəkib şantaj edərlər. Ən azı reket saytlara, qəzetlərə ötürüb onu ölkədə məsxərə obyektinə çevirərlər. Ona görə də heç olmasa Amandinanın çırtma çalıb oynamasının qarşısını almaq üçün cibindən çıxartdığı 300 avronu qısa ətəkli şubasının cibinə qoydu. Gözlənildiyi kimi, Amandina rəqsini dayandırıb maqnitofonun səsini aldı.

- Bu, nə deməkdir, Ayaz?

- Puldur da, - Ayaz etinasız şəkildə dilləndi.

Amandina pulu geri qaytarmağa cəhd göstərdi. Amma Ayaz israr etdi:

- O ailəyə pulu mən verəcəkdim. Sən məni qabaqladın. İndi isə borcumu qaytarıram.

Amandina Ayazın sərt formada onun əlini geri itələməsindən payını götürdü. Dənizin kənarına çatana kimi heç biri dinmədi. Sükutu Ayaz pozdu:

- Siz bizim qonağımızsınız. Deməli, gözümüz üstə



yeriniz var. Nə zaman Parisə gəlsəm, onda mən tam şəkildə sizin ixtiyarınızda.

Amandina etiraz etdi:

- Parisə yox, Marselə gəl. Biz ki, Marseldənik.

Səhvini başa düşən Ayaz:

- Hə, yadımdan çıxmışdı. Marselə.

Amandina ciddi görkəm alıb Ayazdan xahiş etdi:

- Ayaz, bu yay gəl bizə. Səni rəfiqələrimlə tanış edəcəm.

Ayazın gülməyi Amandinanın gözündən yayınmadı.

- Niyə gülürsən?

- Niyə məhz rəfiqələrinlə?

- Onlar qəşəng, gözəl, ucaboy oğlan görən kimi paxıllıqlarından öləcəklər. Əgər özünü yaxşı aparsan, səni Vieux Port limanına gəzməyə aparacağam. Aralıq dənizinin sularında çimib, sizin Xəzər dənizi ilə fərqinin olub-olmadığını bilərsən.

- Çatdıq, - Ayaz maşını sağa verib istirahət mərkəzinin önündə saxladı.

Amandina sol əli ilə maşından düşməyə hazırlaşan Ayazın qolundan tutdu:

- Hə, nə deyirsən, Marselə gələcəksən?

- İmkanım olsa, gələrəm.

- Yox, bu, cavab deyil, söz ver!

Ayaz qırsaqqız olub ondan əl çəkməyən bu qızı razı salmaq üçün dedi:

- Yaxşı, söz verirəm, bu yay Marselə gəzməyə gələcəyəm.

Aldığı cavabdan məmnun olan Amandina maşının qapısını açıb aşağı düşdü. Dəniz havasını içinə çəkib ciyərləri dolusu nəfəs aldı. İki-üç dəqiqə sağa-sola gəzib kənarda dayanıb maraqla onun hərəkətlərini seyr edən Ayaza yaxınlaşıb onunla üzbəüz dayandı:

- Hə, sakit, isti otağa çıxırıq?

- Burda dayanıb ora-bura boylansan, çətin.

Ayazın maraqla kənarda dayanıb onu süzməsinin səbəbini indi anlayan Amandina güldü. Qoluna girib, - hara çıxırıq, - sual dolu nəzərlərlə Ayaza baxdı.

Ayaz pilləkənlə ikinci mərtəbəyə qalxıb xidmətçi-





nin nişan verdiyi sol tərəfdəki pəncərəsi dənizə baxan otağa daxil oldular. Geniş, səliqəli otağın yuxarı küncündə divan, kreslo, ortalıqda isə 4 nəfərlik stul və masa qoyulmuşdu. Amandina içəri keçib pəncərənin önündə dayandı.

Dənizə baxa-baxa əynindəki şubanı və şərfini çıxarıb divanın üstünə atdı. Geri çevrilib Ayazı gözləri ilə aradı. Ayaz xidmətçi oğlana çay, balıq, lülə və tikə kababları sifariş verib, əl-üzünü yumaq üçün hamama keçdi. Otaq isti olduğundan Amandina yun köynəyini və kalqotkasını da əynindən çıxartdı. Ayaz əl-üzünü dəsmalla silə-silə hamamdan çıxanda təəccübləndi. Sarı saçlara, ala gözlərə, cazibədar bədən quruluşuna malik Amandina görünüşü ilə az qala ağlını başından çıxarsın. Ətəyinin qısa olması qızın bərq vuran ağappaq ayaqlarının cazibədarlığını daha da baxımlı edirdi.

Ayaz bilirdi ki, fransız qızları sadə və zövqlü gözəllikləri ilə tanınırlar. Qəşəng olmağı və diqqət mərkəzinə çevrilməyi sevirlər, ancaq bunun üçün hazırlıq görmək, kosmetikadan geniş formada istifadə etməyi



sevmirlər. Budur, oxuduqlarını və eşitdiklərini əyani şəkildə Amandinanın timsalında görürdü. Ayazın ona laqeyd qalmadığını hiss edən Amandina soyuqqanlı şəkildə masanın yanından keçib əl-üz yuyulan otağa doğru getdi. Xidmətçi qapını döyüb çay, soyuq salatlar və kabablar gətirib süfrəyə düzdü. Amandina nazlı yerişi, ədalı baxışı ilə otağa daxil olub süfrə arxasında oturda. Qarşısındakı boşqabın boş olduğunu görüb söz atdı:

- Nəzakət qaydalarına riayət etmək digər insanlara hörmət etmək deməkdir. Təəssüf ki...

Ayaz gülümsədi. Boşqabına qoyduğu balıq tikəsinin üzərinə nar şərabı əlavə edib dedi:

- Daş qaldırmırsan, yer qazmırsan ki, sənə kömək edim. Yemək yeyirsən də, kömək lazımdır?

Amandina təslim olmadı:

- Yazılmamış qanunlar var, mədəni və ictimai davranış kodeksi. Təəssüf ki, bu masada davranış kodeksinə əməl edilmir.

Ayaz kefini pozmadan gülə-gülə Amandinaya bax-

madan dedi:

- Kabab ki soyudu, apar qaytar. Çək qabağına, yeməyini ye.

Amandina Ayazdan tərpəniş olmayacağını başa düşdüyündən, balıqdan, daha sonra isə lülə və tikə kablarından boşqabına qoyub yeməyə başladı.

Amandina yeməyə o dərəcədə girişmişdi ki, sanki aclıqdan çıxmışdı. Arada çəngəl və bıçağı kənara qoyub əli ilə marçıldada-marçıldada kabablardan içəri ötürürdü. Ayaz fikrə getdi, - bəs deyirlər fransız qızları az yeyir, mini-porsiya ilə kifayətlənir, həm də yemək mədəniyyəti incə və gözəldir. Yox, bu məsələdə yanlışlığa yol veriblər, - öz-özünə düşündü.

- Çox ləziz və dadlıdır, Marselə qayıdandan sonra da yalnız lülə və tikə kababları yeyəcəyəm, - Amandina boşqabı kənara itələyib, pürrəngi çayı qabağına çəkdi.

Ayaz qonağının razılıq etməsindən məmnunluğunu gizlətmədi:

- Amandina, bizlərə qarşı fikrinin və düşüncənin



dəyişməsi məni sevindirir.

Amandina ayağa durub divanda əyləşdi. Sağ ayağını sol ayağının üstünə aşırıb dedi:

- Ayaz, o mənim ən kobud səhvim idi. Axı mən sizlərdən üzr istədim.

- O mövzuya qayıtmaq fikrində deyiləm. Sadəcə, sevinirəm ki, sənin kimi gözəl, mədəni bir qızla dost olmuşam.

- Yalnız dostmu?

- Başqa cür nə ola bilər ki?

Amandina ayağa durub Ayaza yaxınlaşdı. Onun qolundan tutub divana tərəf çəkdi. Eyni cəld hərəkətlərlə də gedib qapını açarla bağladı.

- Səni zorlamaq fikrim var, hazırsanmı?

Ayaz susub narazı baxışlarla onu süzdü. Amandina isə köynəyinin düymələrini açıb Ayazın dizləri üstündə oturdu.

- Sənə vurulmuşam, mərdliyin, böyüklüyün, qürurun qarşısında köləyə çevrilmişəm. Məni qucaqla, öp, Ayaz...

Ayaz hiss etdi ki, bütün bədəninə istilik yayılır. Əlləri titrəməyə, boğazında xırıltı yaranmağa başlayır. Bir anlıq fikrə getdi, amma tez də özünü ələ aldı. Amandinanı dizinin üstündən qaldırıb divanda oturtdu. Özü isə ayağa qalxdı. Üzünü pəncərəyə tərəf tutub xahiş etdi:

- Amandina, köynəyinin düymələrini bağla və özünü ələ al.

Amandina iri göz çıxaran döşlərini köynəyi ilə örtüb gözlərini Ayazın kürəyinə dikdi. Ayazın yenidən səsi eşidildi.

- Amandina, sən bizim ailə dostumuzun, qısaca desəm, böyük qardaşımızın bacısısan. Deməli, sən həm də bizim namusumuz, qeyrətimizsən.

Arxadan Amandinanın səsi eşidildi:

- Marsel eşq və məhəbbət şəhəridir. Oğlan-qız münasibətləri 12-13 yaşlarından başlayır. Mənim də həyatıma 16 yaşımda bir oğlan daxil olub. 18 yaşım olanda həmin oğlanla iki dəfə öpüşmüşəm. Bu qədər.

- Onu mənə niyə danışırsan? Sən yetkin, həm də ağıllı, savadlı qızsan, həyatını necə yaşamağı özün



müəyyənləşdirirsən.

Amandina ayağa durub əllərini arxadan Ayazın belinə doladı.

- İnan ki, mənə toxunan olmayıb, qızam. Qızlığımı elə bu dəqiqə sənə verməyə hazıram.

- Sənə inanıram. Başa düşürəm ki, namuslu qızsan. Santa qardaşımızın bacısı belə də olmalıdır. Amma bil ki, mən sənə toxuna bilmərəm.

Amandina başını Ayazın kürəyinə söykəyib ağlaya-ağlaya dedi:

- Əminliklə deyə bilərəm ki, Avropada, mənim vətənim Fransada sizin kimi qeyrətli kişi ola bilməz. Belə bir fürsət Avropada hansısa kişinin əlinə düşsəydi, mütləq iyrənc hərəkətini həyata keçirərdi.

Amandina Ayazın çiynindən tutub üzünü özünə tərəf çevirdi. Onun gözlərinə baxmadan dedi:

- Kişiliyin, kişilik nümunəsinin necə olmasını mən sənin timsalında gördüm.

Ayaz onun alnından öpüb dedi:

- Amandina, heç də biz aydan arı, sudan duru deyi-

lik. Bizdə də kifayət qədər qeyrətsiz kişilər var. Qızlar var ki, pul xətrinə və ya beş-on dəqiqəlik kef məclislərində vaxt keçirmək üçün bədənlərini satırlar. Yaxşı ki, elə tarakanların sayı çox azdır.

Amandina köynəyinin düymələrini bağlayıb qətiyyətlə dedi:

- Həyatım bahasına da olsa, sənin iradəni qıracağam. Sənin ailən olmaq üçün Avropa Məhkəməsinə müraciət etmək lazım gəlsə, müraciət edəcəyəm. Həm də qorx ki, Avropa Məhkəməsinin üzvü mənim anamın qardaşıdır, yəni dayımdır.

- Yaman qorxdum, - deyə Ayaz gülə-gülə Amandinanın qolundan tutub stulda əyləşdirdi. Qapını açıb çaylarını təzələmək üçün xidmətçini səslədi. Kəklikotulu çay gəldikdən sonra hərəsi iki stəkan içib, evə getmək üçün ayağa qalxdılar.

***

Əfqan müəllim qapını döyüb içəri daxil oldu. Geniş otağın yuxarı başında oturan dolu bədənli, çənəsinin buxağı sallanan şişman kişi gözlərini qıyıb sərt nəzərlərlə ona baxdı. Əfqan müəllim yaxınlaşıb salamlaşmaq istədi. Ancaq şişman kişi əlinin arxası ilə ona işarə edib sağ tərəfdəki stulda oturmasını əmr etdi. Əfqan müəllim gözləmədiyi münasibəti təbii qarşıladığından narazı olmadı. Göstərilən stulda əyləşib sual dolu nəzərlə gözlərini şişman kişiyə dikdi. Boynu yoğun kişi oturduğu hündür kreslodan ayağa durub onunla üz-üzə əyləşdi. Bir neçə saniyə onun gözünün içinə sərt nəzərlə baxıb birdən dedi:

- Hə, cəriməni ödəyirsən, ya yox?

Əfqan müəllim bu üç gündə bu cür təkidli tələblərdən çox eşitmişdi. Amma hər dəfə, - imkanım yoxdur, -deyə bildirmişdi.

- Səninlə söhbətimizi, deyəsən, qısa etməli olacağıq. Özün cəhənnəmə, övladlarını, qohum-əqrəbanı da güdaza verməli olacaqsan.

- Mən bütün qohum-əqrəbanın daşınan-daşınmaz əmlakını da satdırsam, sizin tələb etdiyiniz 2 milyon manatı toplaya bilmərəm.

- Ə, bizə papış tikmək istəyirsən? Yalnız Bakıda və rayonlardakı 14 mağazanızın alış və satış sənədləri ilə tanış olarkən, ümumi mal dövriyyənizin 5 milyon manat təşkil etdiyi məlum olub.

- Dediyiniz rəqəm mal şəklindədir. Satılan malın 30 faizi bizimdir.

- Neçə ildir sahibkarlıq fəaliyyəti ilə məşğulsan?

- 10 ildir.

- Bu illərdə milyonlarla manat vergidən yayınma olub. Şirkətiniz vergi orqanlarına bəyənnamə təqdim etməyib, təqdim olunan bəyannamələrə gəlirlər və xərclər barədə bilə-bilə təhrif olunmuş məlumatlar daxil edilərək milyonlarla manat vergi dövlət büdcəsinə ödənilməyib. Sizlərin Fransadan Lui Santanın şirkətindən qaçaqmalçılıq yolu ilə kosmetika və parfümeriya malları gətirdiyiniz aşkarlanıb. Dayan-dayan, hələ qurtarmayıb, - deyə Qiyas Çobanov söz demək istəyən Əfqan müəllimin danışmağına imkan vermədi. Sizin cinayət əməlləriniz ilkin mühasibatlıq sənədləri, telefon danışıqlarınızın təhlili və dəqiqləşdirilməsi,



eləcə də, digər araşdırmalarla sübuta yetirilib.

Əfqan müəllim saxta ittihamlardan çox eşitmişdi. Ona görə də generalın birnəfəsə səsləndirdiyi saxta ittihamlara əhəmiyyət vermədi. Qısaca “Parfüm of Azərbaycan” şirkətinin fəaliyyəti açıq-aydın və şəffaf olub. Heç bir qaranlıq və qarışıq işimiz olmayıb - dedi.

Birdən yerindən dik qalxan Qiyas Çobanov Əfqan müəllimin sol əli ilə yaxasından tutub sağ ilə sifətinə bir şillə vurdu. Bununla kifayətlənməyib, onu boğmağa başladı. Əfqan müəllimin xırıltılı səsi eşidildi, daha sonra isə ağzından köpüklü su axmağa başladı. General əlini onun yaxasından çəkib, - tfu sənə, qoca çaqqal, - deyib yerə tüpürdü. Telefon zəngini eşidincə aparata yaxınlaşdı. Trubkanı qulağına tutub, - hə, nə lazımdır? Kimdir? Hə, yaxşı, qoş! - deyə köməkçisinə göstəriş verdi.

Danışmamışdan əvvəl isə giley-güzarı eşidildi:

- Bu Baş prokurorluğun süləngi küçükləri də burunlarını hara gəldi soxurlar. İndi başlayacaq... Əleykum salam, - deyən general Baş prokurorluğun Istintaqa nə-

zarət idarəsinin rəisi Yaşar Məmmədovla söhbətə giriş etdi. Amma dilucu giriş söhbəti gərgin söz atışmasına çevrildi. Əfqan təxmin etdi ki, söhbət onların şirkətindən, özü də Lui Santadan gedir. General Qiyas Çobanovun sərt, həm də əsəbi səsi eşidildi:

- Qanunu bizim gözümüzə soxmayın, o fransızı cəzalandırmaq lazım olsa, cəzalandıracağıq. Bizi səfirliklə-zadla da qorxutmayın. Xudahafiz.

Qiyas Çobanov zərblə trubkanı aparatın üstünə qoyub, halsız-heysiz döşəmədə çömbəltmə oturan Əfqan müəllimin üstünə qışqırdı:

- Ə, küçük, məni hansısa səfirliklə təhdid edirsən?

Əfqan müəllim çətinliklə də olsa ayağa qalxıb, əvvəlki stulda əyləşdi. Şalvarının arxa cibindən cib dəsmalını çıxarıb, ağzının və burnunun suyunu sildi. Generalın buzlaşmış sarımtıl sifətinə baxıb laqeyd tərzdə dedi:

- Bilmirəm, siz nədən danışırsınız?

- Səfirlik-zad hərləmirəm. O səfirin özünü gətirib soxaram qoduqluğa.



Əfqan müəllim hələ də bir şey başa düşmədiyindən, özündə cəsarət tapıb ötkəmliklə dedi:

- Nə nağıl danışırsınız? Pula, vara-dövlətə hərislik sizləri adam kimi danışmaqdan da məhrum edib.

Altmış illik həyatında ilk dəfə idi ki, kimsə, özü də taleyi qərarından asılı olan birisi general Çobanovu açıq şəkildə təhqir edirdi. İlk məqamda stula əl atdı. Beynindən keçirdi ki, stulu Əfqan müəllimin başına vursun. Amma nə fikirləşdisə, əlini stuldan çəkib, sərçənin üstünə cuman alıcı quş kimi Əfqanın üstünə şığıdı. Başına iki şillə vurdu. Ürəyi soyumadığından, onu stuldan itələyib yerə yıxdı və sinəsinə çöküb, boğmağa başladı. Əfqan müəllimin xırıldadığını görüb, əlini çəkib ayağa durdu. Bir anlıq Əfqan müəllimin nəfəs almadığını görüb qorxdu, onu tər basdı. Öz-özünə düşündü ki, birdən ölüb eləyər, zibilə düşər. Onsuz da özlərinə mini-hakimiyyət quran, vara-dövlətə, müxtəlif xarici avtomaşınlara, ev-eşiyə, obyektlərə sahib olan qəzet baş redaktorları, sayt rəhbərləri hər gün yeri gəldi-gəlmədi qabırğasına döşəyirlər. Həbs olunan

şəxslərdən işgəncələrə dözməyib həyatlarını itiriblərsə, səhərisi gün mətbuat qətl hadisəsini general Qiyas Çobanovun törətdiyini yazır. Bir növ əskisi tüstülü idi. Dəfələrlə rəhbərlikdə onu qınayıb, ehtiyatlı olmasını xəbərdar etmişdilər. Ona görə də gözlərini dikib Əfqan müəllimin nəfəs alıb-almamasına diqqət kəsildi. - Yox nəfəs alır, - deyə Əfqan müəllimin ayağına bir təpik vurdu. - Yaxşı, dur, tülkülük eləmə!

Əfqan müəllim gözlərini açıb, ətrafı seyr etdi. Başının üstündə caynaqlı bayquşun dayandığını görüb əti ürpəşdi. Gözlərini bir anlıq yumub-açınca bayquşu başının üstündə görmədi. Ətrafa göz gəzdirdi, təəccübləndi, o yox idi. Sağ əlini yerə dayaq verib dizləri üstə oturdu. Bir qədər də gücünü toplayıb ayağa qalxdı.

- Ə, nə gözlərini döyürsən, otur! - səsini eşidəndə, diqqətlə otağın yuxarısına boylandı. Generalın vücudunu görüncə, yəqin etdi ki, bayaq başının üstündə gördüyü bayquş yox, insan imiş. Qiyas Çobanov yenidən onun qolundan tutdu. Bu dəfə təhdid etmədi, itələyib zorla stulda otuzdurmadı. Sakit tərzdə oturmasını



məsləhət gördü. Özü də üzbəüz stulda əyləşdi. Dərhal da şad xəbər verirmiş kimi dedi:

- Rəhbərliklə danışdım, çətinliklə də olsa, cəriməni 1 milyon manata endirməyə razı sala bildim.

Əfqan müəllim dinmədi.

Qiyas Çobanov bunu razılıq əlaməti kimi qəbul etdiyindən, şirkət sahibinə minnət qoymaq üçün dedi:

- Cərimə ödəniləcəyi təqdirdə, istintaq hərəkətləri dayandırılacaq. Qəzənfər və şirkətinizin digər iki əməkdaşı azad olunacaq.

General elə danışırdı ki, sanki şərikli əmlakından pay umurdu. Əfqan müəllim dinləyib, fikrə getdi. Şirkətin direktor müavini Qəzənfər müəllimi, yaxın qohumları Şamilı və Musanı düşündü. Onlara verilən işgəncələr gözləri önünə gəldi. Sağ əli ilə gözlərini ovuşdurub, sərt səslə dedi:

- Düşünürsünüz ki, işgəncələr hesabına əzib sındırdığınız insanlar üzərində qalibsiniz? Səhv edirsiniz. Süleymana qalmayan dünya sizə də qalmaz!

- Yaman diliuzunluq edirsən, ha.

- Həqiqət acı olar, - deyiblər.

- On ilin vergisini vermək sizə niyə ağır gəlir?

- Şirkətimiz qanunvericiliyin tələblərinə uyğun olaraq vaxtlı-vaxtında bütün ödənişləri edib. İmkanımız daxilində Qarabağ əlillərinə, şəhid ailələrinə, imkansızlara ərzaq və maddi yardımlar göstərmişik...

- Yaxşı, basıb-bağlama! Xoşluqla kiməsə bir qəpik də verməzsən. "Donuzu çomaqla qovmasan, darıdan çıxmaz" məsəli sənin kimilər üçün deyilib. Döyülməsəniz-söyülməsəniz cibinizdən bir qəpik də çıxarmazsınız.

- Sizlərin zor metodunun acı nəticəsidir ki, iri və xırda sahibkarlıq subyektləri çökür, iş yerləri kütləvi şəkildə bağlanır, manat günü-gündən dəyərini itirir.

- Çox çərənləyirsən, - deyən Qiyas Çobanov ona səsini kəsməsini məsləhət gördü.

Əfqan müəllim dərk etdi ki, pulu almasalar, əl çəkməyəcəklər. Ona görə də, razılaşmağa məcbur oldu:

- 300 min manatı nağd şəkildə verərəm. Qalanının düzəldilməsi üçün evimizi, maşınımızı satmalı, müəyyən qədər də borc almalıyıq.



Əfqan müəllimin sındırılmasından məmnun qalan Qiyas Çobanov özündən razı halda ayağa durub əllərini belinə qoydu, amiranə şəkildə dedi:

- 300 min manatı gətizdir, axşamı evində, ailənin yanında ol. Bu, həm də digər əməkdaşlarınıza aiddir.

General tələbini söyləyib, Əfqan müəllimə baxdı. Əfqan müəllimin dinmədiyini görüb sözünə davam etdi.

- 700 min manata görə narahat olma, səhər 5-6 mağazanızı içində olan malı ilə birgə bizim deyəcəyimiz adamların adına keçirib, alqı-satqı yolu ilə sənədləşdirərik. Bununla da bizə olan borcunuz bağlanar.

Söhbət əsnasında daxili telefon zəng çaldı. Dəstəyi götürüncə, bayaqdan qan-qan deyib otaqda meydan sulayan general danışdıqca balacalaşdı, hərəkət etdikcə cılızlaşdı. Telefon danışığı ancaq, - baş üstə, oldu, gözüm üstə, - sözləri ilə müşayiət olundu. Deyəsən, nazir, ən azı isə hansısa nazir müavini idi. Telefon danışığını bitirib dəstəyi aparatın üstünə qoyunca, yenidən

şirə-pələngə dönən  Qiyas Çobanov ötkəmliklə dedi:

- O vurub ayağını şikəst etdiyiniz Santadı, nə zibildi aləmi vurub bir-birinə. Fransanın Xarici İşlər Nazirliyindən Azərbaycanın Xarici İşlər Nazirliyinə zəng olunub, Fransanın Azərbaycandakı səfiri Prezident Administrasiyasında qəbulda olub, bizim nazir müavini Həmid müəllimlə görüşüb. Mənə də deyirlər ki, işi bu gün yekunlaşdır, ya da rəsmi ittiham irəli sürüb sizi məhkəməyə göndərək. Biz isə sizinlə razılığa gəlmişik. Üç aylıq məhkəmə qərarına və digər tədbirlərə ehtiyac qalmadı.

Əfqan müəllim düşündü ki, milli təhlükəsizliyə ciddi təhlükə mənbəyi olan bu "çekist"lər öz yaramaz əməllərinə haqq qazandırmaq üçün yüz cür saxta ittiham uydurub, insanı gedər-gəlməzə yola salmaqdan da çəkinməzlər. Onlar üçün haqq yox, divan yox, ona görə də generalın tələbi ilə razılaşmalı idi. Düşüncələr içində ikən general telefonu ona uzatdı:

- Kimə və hara istəyirsən zəng et. Həm də fransız maymağa da zəng vur başa sal ki, gen yerini dar eləməsin. Bizim də səbrimizin sərhədi var.



Əfqan müəllim bir söz demədən telefonun dəstəyini götürdü. Əvvəlcə Mətinə, daha sonra isə Ayaza zəng etdi. Lui Santanın nömrəsini yığanda özündən asılı olmadan tərs-tərs Qiyas Çobanova baxdı. General belə münasibətlərlə çox rastlaşdığından, tövrünü pozmadı. Telefon söhbətinin necə yekunlaşacağından agah olmaq üçün diqqətlə danışığa qulaq kəsildi. Tərslikdən Santa da söhbətə asıb-kəsməklə, hədə-qorxu ilə başladı. Əfqan müəllim Santanı müxtəlif işarəli sözlərlə sakitləşdirməyə çalışdı. Deyəsən, Santa Əfqan müəllimin sirli, tapmacalı dili ilə danışmasından payını götürdü. Başa düşdü ki, telefon danışıqlarına qulaq asırlar. Ona görə də, söhbətin sonuna yaxın generalın da razı qaldığı fikirlər söylədi.

***

"Çekstlər"in cəngindən qurtulduqları axşam ailə üzvlərinin, qohumların və yaxın dostların iştirakı ilə düzənlənən yeyib-içmək məclisindən sonra Əfqan

müəllim Mətini çağırıb ondan Xanış kişidən, onun uşaqlarından xəbəri olub-olmadığını soruşdu. Mətin başını aşağı salıb, günahkarcasına işlərinin həddindən artıq çox olması səbəbindən, baş çobanla maraqlana bilmədiyini söylədi. Cavabdan bərk əsəbiləşən Əfqan müəllim hər kəsin gözü önündə onu danladı, vədə xilaf çıxmaqda, soyuqqanlı olmaqda qınadı. Tapşırıq verdi ki, şirkətin Lökbatan qəsəbəsindəki bazasından çardağın üstünə örtmək üçün çadır götürsün, yaxşı da bazarlıq edib yola çıxsın. 500 manat da cibinə pul qoydu. Mətin tapşırıqdan o qədər məmnun və sevincək olmuşdu ki, evə getmiş, hazırlıq görmüş və tez də yatmışdı.

Mətin səhər yuxudan durduqdan sonra ilk işi Əfqan müəllimin göstərişlərini yerinə yetirmək oldu ki, onları da qısa zamanda yerinə yetirdi. Əsnad üçün bazadan tonal kremi, xoş qoxulu sabunlar və “Calvin Klein” və “Bvlgari” brend ətirləri götürdü. Vaqifin də xahişini yaddan çıxarmamışdı, onun üçün də müxtəlif ətirlər götürüb paketə qoymuşdu.

Hazırlığını başa vurduqdan sonra Ayaza zəng vurdu. Niyyəti onunla yol yoldaşı olmaq idi. Amma Ayaz Amandina şəhərlə tanış etməyə təhkim olunduğunu bildirərək ona rayona tək getməli olduğunu, ya da səfərini təxirə salıb, sabaha saxlamağı məsləhət gördü. Ancaq Mətin bu günün işini sabaha saxlamaq fikrində deyildi. Ona görə də - Allah, Məhəmməd, ya rəsulillah, - deyib maşının mühərrikini işə saldı. 20 Yanvar dairəsini keçib, Bakı-Şamaxı magistral avtomobil yoluna çıxanda, içində bir ağırlıq hiss etdi. “Prado”nun yan şüşəsini aşağı endirib, təmiz hava qəbul etməklə narahatlığını aradan qaldırmağa çalışdı. Bir anlıq beynindən keçirdi ki, Ayazın məsləhətini eşidib geri qayıtsın, səhər onunla birlikdə rayona çıxsın. Amma tez də fikrindən vaz keçdi. Bu gün Əsnadı, o sarışın gözəli görmək fürsətini qazanacaq. Bu istək və ümidlə də maşının sürətini artırdı. Şəhərgaha çatanda saatına baxdı. 12-yə 15 dəqiqə qalırdı. Deməli, 30-40 dəqiqə sonra Çayqovuşan meşəsinə çatacaq. Yenidən Boz dağı, İncə dərəsini görəcək, onları ölümün cəngindən xilas edən ailə üzvləri ilə söhbət edəcək, Əsnadla üz-üzə gəlib

ona vəd etdiyi ətirləri verə biləcək. Acı çayına çatanda, ətrafa boylandı, ruha qida verən gözəl mənzərəni seyr edib, ciyərləri dolusu hava uddu. Düşündü ki, Allah bu füsünkar gözəlliyi böyük tabloda yaradarkən, bütün zövqləri nəzərə alıb. Havanın şaxtalı-qarlı olmasına baxmayaraq, müxtəlif rəngli quşlar ağacların budaqlarında sanki rəqs edirlərmiş kimi, tullanıb-düşürdülər.

Mətin gözəlliyə o qədər məftun olmuşdu ki, qeyri-ixtiyari maşını saxlayıb, mənzərəyə diqqət kəsilmişdi. Gözlənilmədən qarşısında altı ceyran peyda oldu. Onlar meşədən çıxıb sürətlə Ahu dağın ətəklərinə istiqamət aldılar. Ceyranlar o qədər sürətlə qaçaraq gözdən itdilər ki, Mətin onların hansının ana, hansının bala olduğunu müəyyənləşdirə bilmədi. Sadəcə, onların arxasınca baxıb başını buladı. Maşına qaz verib qışlağa doğru getməyə başladı. İncilli çəminə çatanda, uzaqdan Xanış kişinin alaçığı göründü. Diqqətlə baxanda qırmızı ətəkli, boz gödəkcəli bir qızın talvardan qaçaraq, alaçığa girdiyini gördü. Yerişindən və ədalı hərəkətlərindən Əsnad olduğunu təxmin etdi.





Maşın alaçığın qarşısına çatanda, Əsnad yeni geyimdə və saç düzümündə həyətə çıxdı. Deməli, Əsnad onu görmüş, paltarını dəyişmək və saçına, üzünə əl gəzdirməklə ədalı, qürurlu görünüşünün dəyişmədiyini nümayiş etdirməyə çalışmışdı. Mətin sevindi, düşündü ki, qəlbinə hakim kəsilən bu işvəli-nazlı qızın da ürəyində ona qarşı eşq qığılcımı var. Mətin maşını saxlayıb açarı buraraq mühərriki söndürdü. Qapını açıb yerə düşüncə, - salam Əsnad, - deyə bildirdi.

- Əleyküm salam, xoş gəlmisiniz, Əfqan müəllim necədir, o gavur necədir, yolda maşını batırmadın ki? - birnəfəsə suallar yağdırdı.

Mətin Əsnadın anası kimi xariciyə gavur deməsinə güldü. Sifətindəki o təbəssümü saxlamaqla, - hamısı yaxşıdır, o gavur da yaxşıdır, lap dumbul kimidir, - dedi.

Əsnad ağzını açıb, nəsə demək istəyirdi ki, alaçığın qapısı ağzında Nərgiz xalanın səsi eşidildi:

- Az, gəl keç bu yana, bəsdir uşağı şit-şit, əttökən sözlərinlə yordun!



Anasının peyda olması, deyəsən, Əsnadın ürəyincə olmadı. Yanına saldığı əllərini ovuşdura-ovuşdura Mətinə baxdı. Mətin irəli yeriyib, doğma anası ilə görüşürmüş kimi, Nərgiz xalaya salam verib öpüşdü. Xanış dayının, Vahidgilin harada olması ilə maraqlandı. Nərgiz xala doğmalarından biri hesab etdiyi Mətinin qolundan tutub, alaçığa dəvət edə-edə dedi:

- Vahidlə Xalid sürünü dağa aparıblar. Vaqif də hərbi qeydiyyatdan keçmək üçün dədəsi ilə hərbi komissarlığa gedib.

Kişi xeylağı olmadığı üçün Mətin alaçığa keçməkdə tərəddüd etdi. Bunu Nərgiz xala da başa düşdü. Narazı tərzdə ona iradını bildirdi:

- Bala, sən bizim üçün yad deyilsən. İkincisi də, məsəl var deyirlər ki, qapını kimin açması əsas deyil, başlıca şərt qapını kimin döyməsidir.

Bu sözlərdən sonra Mətinin içəri keçmək üçün hansısa bəhanə söyləməyə cəsarəti qalmadı. Alaçığa keçib gödəkcəsini çıxartdı, yuxarı başda qoyulan döşəyin üstündə bardaş qurub oturdu. Az sonra Nərgiz xala gə-

tirib süfrə saldı. İstədi etiraz etsin, aclığının olmadığını söyləsin, amma xətirlərinə dəyəcəyindən ehtiyat etdiyindən, susdu. Nərgiz xala çay gətirəndə, - Vaqifgil gəldilər, - deyə xəbərdə verdi. Elə bu anda qapı açıldı, Xanış kişi, arxasınca isə Vaqif içəri daxil oldular. Mətin ayağa durub ev sahibləri ilə görüşüb-öpüşdü. Süfrə arxasında oturub çay içə-içə ordan-burdan, şəhərdəki yaşayışdan, dolanışıqdan söhbət etdilər. Əsnad dərin boşqablarda toyuq çığırtmasını onların qabağına qoyanda, Mətinin ağzı sulandı, udqundu. Təklif gözləmədən lavaşdan kəsib iştahla yeməyə başladı. Doyandan sonra başa düşdü ki, bərk acıbmış. Başını qaldırıb, ətrafa göz gəzdirdi. Ev yiyələrinə təşəkkür etdi:

- Çox dadlı idi, sağ olun.

Xanış kişi:

- Sağlıq günlərin olsun, halal xoşun.

Əlində çay içəri daxil olan Nərgiz xala üzünü Mətinə tutub dedi:

- A bala, heç demədin o gavurun ayağı necə oldu?

Mətin suala cavab verməyə macal tapmamış, Xanış



kişinin acıqlı səsi eşidildi:

- Ay arvad, o, gavur deyil ey, fransızdır, fransız.

- Neynim ey, rəhmətlik Sayat nənəm xaricilərə gavur deyərdi. Bizim də dilimizə onun dediyi bitib qalıb. Bir də gavura gavur deyərlər də.

Mətinlə Vaqif şaqqanaq çəkib bərkdən güldülər. Xanış kişinin də dodağı qaçdı. Elə təbəssümlə də, - yaxşı, indi kompüter əsridir, Nikolayın dövrü deyil, - özünü savadlı göstərməklə ömür-gün yoldaşına məsləhət verdi. Süfrə yığışdırıldıqdan sonra həyətə çıxdılar. Mətin Bakıdan gətirdiyi çadırı, bazardan-dükandan aldığı xam-xırtı boşaltmaq üçün Vaqifi köməyə çağırdı. Çadır Xanış kişinin xoşuna gəldi. Ətirlər də Vaqifin ürəyincə oldu. Mətin Əsnada çatacaq hədiyyələri necə təqdim edəcəyini düşündü. Bayaqdan qız gözə dəymirdi. Narahat olmağa başladı. Ətrafı gəzmək bəhanəsi ilə Vaqiflə alaçığın arxasına, qoyun sürüsünün tövləsinə, gərmələrin saxlandığı talvara baxdı. Sanki qız əppək olub göyə çəkilmişdi. Yenidən maşının yanına qayıtdılar. Mətin başqa çıxış yolu tapmadığından, paketə qoy-

duğu xüsusi hədiyyəni götürüb, Nərgiz xalaya yaxınlaşdı:

- Bu da Əsnadın istədiyi ətirlərdir.

- Bu canıyanmış səni bolluca xərcə salıb, - deyə Mətinə hədiyyəyə görə təşəkkür etdi.

Mətin Xanış kişinin də eşidə biləcəyi bir səslə dedi:

- Nərgiz xala, sizlərin boynumuzda o qədər haqqınız var ki, bu cür xırda hədiyyələr o haqqın yüzdən-mindən birini ödəyə bilməz.

- A bala, sağ əlin verdiyini sol əl bilməməlidir, - deyiblər. Biz o acılı günləri unutduq. Siz də bir yeyib, yüz sadağa verin, Allaha şükürlər edin.

Xanış kişi söhbətə el məsəli ilə qoşuldu:

- Dost min nəfərdirsə, azdır, düşmən bir nəfərdirsə, çoxdur. Biz sizə dost əli uzatmışıq, o əli sıxsanız da sağ olun, sıxmasanız da.

Mətin Xanış kişinin sözlərindən qızardı. Dili topuq vura-vura dedi:

- Xanış əmi, bizim üçün çox xoşdur ki, sizinlə dost olmaq şansını qazanmışıq. Yaxşı deyiblər, həyatda ən



böyük səhvi etdiyin zaman, bununla yanaşı, bir xeyir gəlir. Bizim üçün də fəlakət gəldiyini düşündüyümüz zaman, sizinlə qarşılaşmaqla böyük xəzinə tapmış olduq.

Mətin sözünü bitirib yenidən Əsnadı görmək üçün ətrafa boylandı, qız yox idi. Bu qız hara qeyb oldu - düşündü. Ümidsiz vəziyyətə düşdü. Dərk etməyə başladı ki, Əsnad onun üçün əlçatmazdır. Qız onun sevgisinə cavab verməyəcək. Nə qədər gec deyil, bu sevdadan əl çəksin. İstədi maşına minib bu yerlərdən birdəfəlik uzaqlaşsın, amma tez də fikrindən daşındı.

Xanış kişinin səsi eşidildi.

- Keç alaçığa, Nərgiz xalan bir çay dəmləsin, çay içək.

Mətin gözlənilmədən dirəniş göstərdi:

- Yox, Xanış əmi, gecdir, mən Bakıya qayıtmalıyam.

- Bu nə sözdür, ağıllı ol?! Vaqif kabab bişirmək üçün hazırlığa başlayıb. Həm də bu gün bacısının ad günüdür.

Mətin qeyri-ixtiyari sual etdi:

- Əsnadın?

- Hə.

- Təbrik edirəm, böyük qız olsun, gözü dolusu görəsiniz.

- Xoş sözlərə görə sağ ol. İndi isə mümkündürsə, gedin qonşu qışlaqdan qoyunlara vermək üçün qurd dərmanı gətirin.

Mətin dinmədi. Xanış kişi bunu razılıq əlaməti kimi qəbul etdiyindən Vaqifi səslədi.

- Oğul, Mətinlə gedin Cüneydin qışlağına, oradan qurd dərmanı alın gətirin.

Vaqif yaxınlaşıb əlindəki baltanı və bıçağı dədəsinə uzatdı.

- Əti kabablıq doğradım. İstiotunu və duzunu da siz vurun, gəlib Mətin qardaşla bir kabab çəkək. Bir də yaxşı oldu, Əsnad da oradadır, onu da gətirərik.

Xanış kişi təəccüblə sual etdi:

- Əsnad orada nə edir ki?

- Nə bilim, Cüneydin qızlarının yanına gedib, bəzə-



nib-düzənmək üçün.

Mətin söhbəti eşidincə gülümsədi. Deməli, Əsnad onun üçün, onun gəlişinə görə üz-gözünə, saçına əl gəzdirir. Ay səni Əsnad, indi başa düşdüm ki, bayaqdan hara yoxa çıxmısan, - ürəyində danışa-danışa mühərriki işə saldı. Yola çıxanda, Mətin Vaqifin üzünə baxmadan sual etdi:

- Əsnad Cüneydin qışlağına tək necə gedib?

- Tək niyə ki, bayaq Cüneyd dayının arvadı Şəbnəm xala bizə gəlmişdi, ona qoşulub gedib.

Mətin bir söz deməyib, rolu sağa burub meşədən çıxdı. Məşədi Əlibaba bağına çatanda, gözlənilmədən çoban itləri maşını əhatəyə alıb, hürməyə başladılar. Canavar ağızlı itlər az qalırdılar ki, maşının ön şüşəsini sındırıb, içəridəkilərə hücum etsinlər. Mətin bir neçə dəfə siqnal versə də itlər əl çəkmir, maşının bərabəri ilə qaçaraq, hürməkdə davam edirdilər. Birdən itlər səslərini kəsdilər. Mətin maraqla ətrafa boylananda, sağ tərəfdə əli çomaqlı 13-14 yaşlı uşağın itlərə acıqlandığını gördü. Maşını saxlayınca həmin uşaq onlara

yaxınlaşıb, ədəb-ərkanla salam verdi.

Vaqif maşından düşüb uşaqla irəli gedib ağaclıqda gözdən itdi. Az sonra əlində qəzet bükülüsü geri qayıtdı. Onunla yanaşı olduqca gözəl bir qız da gəlirdi. Əyninə yaşıl ətək, zoğalı rəngli yun jaket geyinən qız qıvrım saçlarını daramış, üz-gözünü zövqlə bəzəmişdi. Mətin qızın son dərəcə gözəl görünüşündən əridi, dili-dodağı qurudu, gözləri bərəlmiş halda heyran-heyran ona baxdı. Qənirsiz bu gözəl kimdir? - deyə özlüyündə düşünüb diqqətlə qıza baxdı və təəccüblə - bu ki Əsnaddır, - deyə əllərini roldan çəkib, maşının kreslosuna söykəndi.  Bir anlıq bu vəziyyətdə qaldıqdan sonra, əlini uzadıb, mühərriki işə saldı. Yəni getməyə hazırdır. Amma Vaqiflə Əsnad maşına minməyə tələsmirdilər. Mətin nə baş verdiyini öyrənməyə çalışdı. Yan şüşəni aşağı endirib, sol güzgüdən arxaya boylandı. Vaqif əl-qolunu ölçə-ölçə, bacısına nəyisə başa salmağa çalışırdı. Əsnad isə gözlərini bir nöqtəyə zilləyib susurdu. Mətin ilk öncə, elə başa düşdü ki, Vaqif bacısının üz-gözünə kosmetika çəkdiyindən əsəbiləşərək



onu danlayır. Amma diqqətlə qulaq kəsiləndə, Əsnadın – minsəm Şəbnəm xala və onun qızları bir dastan düzəldəcəklər, minə bilmərəm, - deməklə Vaqifi piyada alaçığa getməyə məcbur etdiyini eşitdi. Vaqif isə, çıxılmaz vəziyyətlə üzləşmişdi. Nə edəcəyini bilmirdi. Bu məqamda Şəbnəm xala bayaqkı uşaqla peyda oldu.

- A Vaqif, a bala, məni də aparın, Nərgizlə söhbətim var - deyə bildirdi.

Deyəsən, bu istək Əsnadın ürəyincə oldu.

- Hə, yaxşı olar, - Əsnad Vaqifə maşının qapısını açaraq Şəbnəm xalanın oturmasına işarə vurdu. Vaqif dərhal arxa qapını açdı. Əvvəlcə uşaq, daha sonra Şəbnəm xala, arxasınca Əsnad maşına oturdular. Vaqif qapını örtdükdən sonra keçib qabaqda əyləşdi. Maşın yerindən tərpənəndə, Mətin güzgüdən arxaya baxıb, Əsnadı görməyə çalışdı. Əsnad başını aşağı salıb, əlləri ilə sifətini tutmuşdu. Sanki ətrafdakılardan küsmüşdü, dindirsən, hıçqırtı ilə ağlayacaqdı. Mətin yenə də fikrə daldı. “Bu qız necə də sadəlövh və saf qızdır. Yetkin bir qız olmasına baxmayaraq, yəqin ki, heç sevgi-məhəb-

bətin  nə olduğunu da bilmir”.

Mətin ürəyində Əsnadla bağlı o qədər mülahizə yürütdü ki, alaçığa necə çatdıqlarını bilmədilər. Vaqifin səsi onu xəyaldan ayırdı.

- Düşək, ayaqüstü çay içək, sonra quzu kababını çəkək.

Mətin:

- Necə məsləhətdir, - deyib maşından düşmək üçün qapını açdı.

Birdən telefonun işığı yanıb-söndü. Mətin əlini uzadıb, telefonu götürdü. Amma zəng yox idi. Sadəcə, telefonun ekranında işıq yanıb-sönmüşdü. Bir xeyli telefonu qurcalamalı oldu. Bu məqamda səs eşitdi:

- Atam deyir içəri gəlsin.

Mətin başını qaldırıb, səs gələn tərəfə baxdı. Bu, Əsnad idi. Dərhal kitablardan oxuduğu tarixi aforizm yadına düşdü: “Əlinə fürsət düşübsə, onu qoru. Əgər bu fürsət sənin həyatını dəyişə bilərsə, onun baş verməsinə şərait yarat”.

- Əsnad, səni ad günün münasibətilə təbrik edirəm.





Növbəti 20 yaşını birlikdə qeyd etməyimizi arzulayıram. Hə, nə deyirsən?

Əsnad oğrun-oğrun ətrafa göz gəzdirdi. Kimsənin gözə dəymədiyini görüb ürəkləndi:

- Tapmaca mənlik deyil. Açıq de görüm, nə demək istəyirsən?

- Bər-bəzəkli, kompliment sözlərdən uzaq olaraq, demək istəyirəm ki, səni sevirəm.

Əsnad söz atdı:

- Yəni şəhərli oğlanlar ülvi, təmiz sevginin heç olmasa nə olduğunu bilirmi?

- Mən də sənin kimi kənddə doğulmuşam. Çay sahilində, meşə qoynunda, dağ-dərə ətəyində boy atmışam. Valideynlərim rayon mərkəzindən kəndə gələndə, maşını qəzaya düşdü, həyatlarını itirdilər. Mən və bacım başsız, qısa desək, yiyəsiz qaldıq. Amma xalamız oğlu Əfqan müəllim bizi yanına çəkdi, üç yox, beş övladı olduğunu bildirdi. Məni oxutdu, əsgəri xidmətdən sonra yanında işə götürdü, ev aldı, maşınlı etdi.

- Bəs bacın necə oldu?



- Mənzər üçün də toy etdi, ərə verdi. Hazırda bir qızı, bir oğlu var.

Mətin sözünü bitirib, diqqətlə Əsnadın nə cavab verəcəyini gözlədi. Onun susduğunu görüb, hədələyici tərzdə hücuma keçdi:

- Əgər başqasına könül vermisənsə, mən iki sevənin arasında tikan olmaq istəmərəm. Elə indicə buranı tərk edib, Bakıya gedərəm.

Əsnad eşitdiyi sözlərdən tutuldu. Elə bil göz yaşı ovcunun içindəymiş. Gözlərindən süzülən yaşı əli ilə silib dedi:

- Həyatımda ilk dəfədir oğlanla söhbət edirəm, o da ki, sənsən.

Mətin qızı ağlatdığına görə peşman oldu.

- Bağışla, bilmədim ki, bu qədər kövrək qəlblisən.

Əsnad gözünün yaşını yun jaketinin sağ qolunun ucu ilə silib dedi:

- Hardan bildin ki, bu gün mənim ad günümdür?

- Əsnad, söz arasına söz qatma. Mənə bir söz de.

- Bəzənib-düzənməyim sənə nəsə demir?

- Şübhələnmişdim. Amma insan taleyini fərziyyələrlə müəyyənləşdirmək olmaz.

- Xatman kəndində 4-cü sinifdə oxuduğum zaman müəllimimin dediyi bir söz hələ də yadımdan çıxmayıb: “Yer üzərində sənin yolunda canını verməyə hazır olan ən azı iki nəfər var”. Sənin həyatını ilk görüşümüzdən ən qiymətli varlıq bilən iki nəfərdən biri mənəm, ikincisinin kim olduğunu ancaq özün bilirsən.

Mətin:

- İkincisi Mənzər, bacımdır, - deyib əlində tutduğu mobil telefonu ona uzatdı. - Al, bu, sənə çatacaq, ad günü hədiyyəsidir.

Əsnad telefonu görüncə duruxdu. Təəccüblə Mətinə baxıb dedi:

- Mən telefondan istifadə edə bilmirəm. İkincisi də Xalid qağam deyir ki, buralarda telefon tutmur.

- Rayon mərkəzində, eləcə də, qonşu kəndlərdə telefon tutur, danışmaq mümkündür.

- Başımı telefonla aldada bilməzsən. Hər həftə səni gözləyəcəyəm. Gəlməsən, küsəcəm.



Əsnad sözünü bitirib qaçaraq alaçığa getdi. Qızın işvə-nazla bəyanat səsləndirməsi Mətində xoş hisslər yaratmışdı. O özünü hər kəsin qibtə edəcəyi ən xoşbəxt insan hesab edirdi. Elə Əsnadla olan söhbətin xoş təsiri altında alaçığa keçib, bəh-bəhlə çayını içdi. Söhbətə qoşulub, ölkədə və dünyada baş verən hadisələrdən bəzən qeybət, bəzən isə özlərinin düşüncələrinə əsaslanan fikirlərini söylədilər.

Xanış kişinin - Vaqif, durun, axşama hazırlıq görün, - deməsi söhbətə yekun vurdu. Kişilər ayağa durunca, qadınlar baş-başa qaldılar. Söz yox ki, bu da onlar üçün günortadan yarımçıq qalan qeybət-söhbətlərinin davam etdirilməsi üçün bir fürsət oldu.

***

Günorta naharından sonra yağlı yeməyin ağırlığı otaqda əyləşənləri bir növ süst etmişdi. Danışmağa, nəsə deməyə taqətləri olmadığı hiss olunurdu. Əfqan müəllim gözlərini bərq vuran çılçırağın işıqlarına dikmiş, Lui Santa əllərini ovuşdurur, bəzən isə əl barmaq-

larını bir-birinə keçirib, sağa-sola əyirdi. Qəzənfər, Şamil və Musa isə televiziyada uşaqlar üçün yayımlanan cizgi filminə tamaşa edirdilər. Əlində çay içəri daxil olan Nəzakət xanım bir anlığa otağa nəzər yetirdi. Çayı və mürəbbəni masanın üstünə qoyub ərinə baxdı. Amma Əfqan müəllimin fikirli olduğunu sezdiyindən, onu danışdırmağa cəsarəti çatmadı. Gücü əlində televizorun pultu olan kiçik qardaşı Şamilə çatdı:

- Elə bil uşaqsan, "Maşa və Ayı"ya baxırsan. Bu camaatın da zövqünü nəzərə al da.

Nəzakət xanımın sözləri otaqda qaraqabaq, sanki bir-birindən küslü olan kişilərin simasında təbəssüm yaratdı.

Əfqan müəllim gözlərini tavandan çəkib, ömür-gün yoldaşına baxdı:

- Yəni deyirsən Türkiyə və Braziliya seriallarına baxaq?

Atmacanın onun ünvanına atıldığını anlayan Nəzakət xanım özünü o yerə qoymadı. Ərinin çöhrəsindəki təbəssümü bir qədər də artırmaq üçün istedadını



genişləndirməyi vacib hesab etdi:

- Adın çıxınca, canın çıxsın, məsəli səbəbsiz yerə deyilməyib ki. Kişilər var ki, teleseriallara futboldan çox baxırlar.

Çay içmək üçün divandan durub, masaya yaxınlaşan Əfqan müəllim gülə-gülə dedi:

- Ay Nəzakət, indi o sözü kimə atırsan? Bəlkə şübhələri aradan qaldırmaq üçün konkret ünvan göstərəsən.

Otaqda gülüşmə qopunca, Nəzakət xanım ərini sakitləşdirməyə çalışdı:

- Narahat olma, səni demirəm.

- Gəl bir məni de, - Əfqan müəllim şübhəli nəzərlərlə Nəzakəti süzdü. Nəzakət xanım isə nazlı baxışları ilə ömür-gün yoldaşına baxıb, özündən razı görkəm aldı. Nə də olmasa, Əfqan müəllimin simasındakı narahatçılığı, gərginliyi qismən də olsa, aradan qaldıra bilmişdi. Ab-havanı olduğu kimi saxlamaq üçün söhbəti uzatmadı, artıq çay içmək bəhanəsi ilə masa ətrafına toplaşan kişiləri baş-başa qoymaq üçün otağı tərk etdi.

Lui Santa neçə gün idi ki, onu narahat edən məsələni açmaq üçün fürsət yarandığını başa düşdüyündən, biznes ortaqlarına ani nəzər yetirib, üzünü Əfqan müəllimə tutdu:

- Biz yalnız biznes partnyorları deyilik, həm də dostlarıq.

Əfqan müəllim Santanın sözlü adama oxşadığını hiss etdiyindən, ona fikrini sərbəst deməsi üçün imkan yaratmağa çalışdı:

- Biznes əlaqələrimizin dostluğa çevrilməsinin başlıca səbəbi də bizim bir-birimizi başa düşməyimizdir.

- Bilirsiz, Əfqan müəllim, ortada inkar edilməsi qeyri-mümkün olan həqiqət var, bunu, sözsüz ki, siz də bilməmiş deyilsiniz.

- Nədi o həqiqət?

- Onlar sizi rahat buraxmayacaqlar, hətta tələb etdikləri pulu versəniz də.

Əfqan müəllim qaşlarını dartıb, dodaqlarını büzdü. Eşitdiyi sözlərdən təəccübləndiyindən, sağına-soluna boylandı.



Santa dostunun xasiyyətinə bələd idi və yanaşı oturduqlarına görə, sol əlini onun çiyninə qoyub dedi:

- Dostum, insanı məst edən ətirlərin əhatəsində deyilsən, diqqətli ol.

- Tapmaca tapmağa halım yoxdur, açıq de görüm, nə demək istəyirsən?

- Pulu verməyək, müxtəlif bəhanələrlə yayınaq. Düşünmə ki, sizə pulu vermək istəmədiyimdən bunu deyirəm, əsla. Artıq pul Fransadan Azərbaycanın bankına köçürülüb, səhər istədiyiniz vaxt alacaqsınız...

Qəzənfər və Musanın təşviş dolu nəzərlərlə gözlərini ona dikdiklərini hiss edən Santa, - xətrinizə dəymədim ki? - deyə alicənablıqla dostlarına nəzər yetirdi.

Əfqan müəllim Santanın narahatçılığını görüb - Yox, yox sən öz fikrini deyirsən. Amma bir iş var ki, onlar başa düşsələr ki, biz oyun oynayırıq, vəziyyətimiz ağır olacaq. Sonra da əlindəki stəkanı nəlbəkiyə qoyub, biznes ortağına təşəkkür etmək üçün dedi:

- Sağ ol, bu müddətdə kifayət qədər səni öz dərdlərimizlə yüklədik.

- Elə düşünmə, eyni hərəkəti sən də edərdin, axı biz bu günün, dünənin dostları deyilik, uzun illərin sınağından çıxmışıq.

Əfqan müəllim bir söz deməyib, susdu. Arada yaranan sakitliyi yenə də növbəti təklifi ilə Santa pozdu.

- Şirkəti satın, gedəyin Parisə, orada siz daha rahat və təhlükəsiz yaşayarsınız. Canınız da bu qanqsterlərdən qurtarmış olar.

Eşitdiyi xəbərdən təşvişə düşən Qəzənfər müəllim əsəbi halda dedi:

- Siz nə danışırsınız? Tutaq ki, Əfqan müəllim ailəsini götürüb, getdi. Bəs biz və digər qohumlar necə olacağıq?

Şirkətin baş mühasibi olan Musa müəllim də təklifə narazılığını bildirdi:

- Əfqan müəllim getsə, bizi yenə də işgəncə maşınına çağırıb, sorğu-sual edəcəklər.

- Paris heç də biznes mühiti üçün ürəkaçan deyil. Yaxşı olsa idi, dünyaca tanınmış aktyor Jerar Depardiyer başını götürüb Rusiyaya qaçmazdı, - deyə Qəzənfər



müəllim özünü Fransa həyatına bələd olan mütəxəssis kimi göstərməyə çalışdı.

Lui Santa təklifinin bu dərəcədə ciddi narazılıq yaradacağını gözləmirdi. Dostlarını sakitləşdirmək üçün dedi:

- Mən, sadəcə, təklifimi dedim, dəyərləndirmək və qərar vermək sizlikdir.

Bayaqdan yerində sakit oturub, çayını içə-içə dostlarının mübahisəsini dinləyən Şamil yerində qurcalandı. Əfqan müəllimə baxıb, onun Santanın söylədiklərinə reaksiyasını təxmin etməyə çalışdı. Bir şey anlaya bilmədiyindən, gözlənilmədən - mənə elə gəlir ki... - deyib susdu.

Əfqan müəllim Qəzənfər və Musanın Şamilin söhbətə müdaxiləsindən narazı qaldıqlarını çöhrələrindən hiss etsə də, onlar kimi düşünmədi, qayınına ürəyini boşaltmağa şərait yaratmağa çalışdı.

- Şamil nə demək istətəyirsən, fikrini açıq de.

- Lui Santa haqlıdır, pulu verməyək. Məndə məlumat var ki, artıq ölkə rəhbərliyi onların cinayətkar

əməllərindən xəbərdardır. Yəqin ki, yaxın günlərdə ciddi tədbirlər görüləcək.

- Deyəsən, sənin o şəbəkədə adamların var, heç xəbərimiz yoxmuş, - deyə çöhrəsindən əsəbilik yağan Qəzənfər müəllim söz atdı.

Şamil Qəzənfərin əsəbi olmasının səbəbini yaxşı anladığından, ona cavab vermədi, eşitdiklərini çatdırmaq üçün əllərini masa üzərinə çarpaz qoyub dedi:

- Məmməd kişi var ey, kəndimizin keçmiş kolxoz sədri, onun oğlu Cəfər mənim uşaqlıq dostumdur, həm də tələbə yoldaşımdır...

Qəzənfər müəllim hövsələsizlik edərək:

- Hə, nə olsun ki? - deyə ironiya ilə söz atdı.

- O olsun ki, Cəfər MTN-də işləyir. Məhz saxlandığımız zaman o, bizə yemək bağlamasını çatdırmışdı.

Musa müəllimin başı ilə deyilənləri razılıq formasında təsdiqləməsi Şamili ürəkləndirdi:

- Dünən onunla bir yerdə idik, MTN-dəki hərc-mərclikdən, generalların cinayətkar əməllərindən danışdıq...

Əsəblərinə hakim kəsilə bilməyən Qəzənfər müəllim yenə də hövsələsizlik edib, Şamilə qabardı:



- Əgər həqiqətən də yaxın münasibətləriniz varsa, niyə demədin ki, bizdən əl çəksinlər.

- Onun özünü qarışqa kimi ayaqlarının altına atıb, məhv edərlər.

- Yəqin oranın süpürgəçisidir.

Qəzənfər ayağa durub, əlini yelləyə-yelləyə pəncərəyə yaxınlaşdı. Pərdəni aralayıb, küçəyə baxdı. Əfqan müəllimin səsi eşidildi:

- Sakit olun, özünüzü ələ alın Qəzənfər müəllim.

Əfqan müəllimin narazı səsini eşidincə, Qəzənfər müəllim səhvini anladığından geri çəkilib, üzrxahlıq etdi:

- Bağışlayın, bir az yersiz hərəkət etdim.

- Narahat olma, gəl əyləş, - deyə Əfqan müəllim gərginliyi aradan qaldırmağa çalışdı. Qəzənfər müəllim haqlı olduğunu sübut etmək üçün yaxınlaşıb Əfqan müəllimin bərabərində dayanıb dedi:

- Başa düşün ki, onların qara siyahısındayıq, istədiklərini almasalar, bizi rahat buraxmayacaqlar.

- Təşvişə düşmə, istəsən problem aradan qaldırılana qədər şirkətin icraçı direktoru vəzifəsindən gedə bilərsən.

Təmkinlə, ancaq sərt formada deyilən sözlər Qəzənfər müəllimdə soyuq duş effekti yaratdı. Dərindən köks ötürüb, çətinliklə də olsa, stula əyləşdi.

- Yaxşı deyiblər, - ağıllı insan düşündüyü hər şeyi söyləməz. Görünür, mən ağılsızam, beynimə gələn narahatçılığımı dilə gətirdim, - deyə Əfqan müəllimin sözlərindən bərk incidiyini nümayiş etdirdi. Bunu Əfqan müəllim də başa düşdü.

- Deyəsən, mənim sözümdən incidin?

- Niyə ki, çoxdan verməli olduğun qərarı, ələ düşən fürsəti bəhanə gətirib, indi verirsən.

- Nahaq elə fikirləşirsən. Şirkətin rəhbəri kimi sənədlərdə mənim adım olsa da, mənim də rəhbərim, ağsaqqalım sənsən. Sadəcə, səni quzğunların caynağından xilas etməyin başqa yolunu görmürəm.

Qəzənfər müəllim deyilən sözlərdən bir qədər toxtaqlıq tapsa da, tam sakitləşə bilmədi. Əfqan müəllimin düşündüklərini tam açması üçün dedi:



- Əfqan müəllim, aqillərdən birinin gözəl bir kəlamı var: “Ən çətini əzab çəkdiyini heç kəsə deyə bilməməyindir”. Amma mən çəkdiyimi demək məcburiyyətindəyəm.

Əfqan müəllim Qəzənfər müəllimin danışarkən səsinin titrəməsindən onun həyəcanlı olduğunu başa düşüb narahat oldu. Onu sakitləşdirmək üçün dedi:

- Siz mənim ağsaqqalımsınız. İzahat verməyə borclu deyilsiniz.

- Borcumdur ki, sizləri gözlənilən təhlükədən xəbərdar edim. Mənim 64 yaşım var. Günümü görüb, bir növ ömrümü də yaşamışam. Narahatlığım sizlərdəndir, gənclərdəndir.

- Biz onların tələb etdikləri pulun əsas hissəsini vermişik. 450 min manat qalır ki, onu da verəcəyik, amma bir qədər sonra.

- Çobanov çox qorxulu “çekist”dir. O, tapşırıqları yerinə yetirmək üçün ən qəddar üsullardan istifadə edir.

Əfqan müəllim:

- Onun necə insan olduğunu xatırlatmayın, axı mən də üç gün onun işgəncə maşınının sərnişinlərindən olmuşam.

Qəzənfər müəllim, - hmmmm, edib gülümsədi. Sonrada dərindən ah çəkib, dedi:

- O harın, vəhşi məxluq bizə xətər yetirməsin deyə ağsaqqal məsləhətimi verdim. Santanın sözü olmasın, qərar sənindir.

- Santa da, siz də düz deyirsiniz. Şamilin də dediklərində bir həqiqət var. Mən də Baş prokurorluqdakı dostumdan eşitmişəm ki, onların axırlarına çox qalmayıb. Ona görə də, iki-üç həftə müxtəlif bəhanələrlə pulun verilməsini uzadaq. Qəzənfər müəllim, şirkətə gəlsələr, siz də çalışın özünüzdən nəsə inandırıcı bir şey uydurub, onları başınızdan rədd edin.

- Necə məsləhətdir, - Qəzənfər müəllim çiyinlərindəki ağır yükü yerə qoyub, rahatlanırmış kimi dərindən nəfəs alıb xoş təbəssümlə Əfqan müəllimə baxdı.

Nəzakət xanımın əlavə çay süzmək üçün əlində



çaydan içəri daxil olması ilə biznes ortaqları söhbətin mövzusunu dəyişdilər. Az sonra isə Santanın söylədiyi lətifələr, Musa müəllimin danışdığı məzəli əhvalatlar əllərin bir-birinə vurulmasından yaranan şappıltı, bəzən isə şux gülüşlə müşayiət olundu.

***

Amandina Ayazla təklikdə qalmaq üçün əlindən gələni edirdi. Amma alınmırdı. Hər dəfə ya adam çox olurdu, ya da qadınlar onu mənasız söhbətlərinə cəlb edirdilər. Sanki dəniz sahilində düzənlənən məclisdən sonra Ayaz ondan aralı durmağa çalışırdı. Qısa salam-kalamdan sonra aradan çıxırdı. Şəhərə çıxıb gəzmək istəyi də Ayaz tərəfindən müxtəlif bəhanələrlə rədd edilirdi. Bu da Amandinanı üzürdü. Onunla təklikdə qalmaq, nə baş verdiyini öyrənmək fürsəti isə baş tutmurdu. Amandina indi başa düşmüşdü ki, sevgi nədir. Dərk etmişdi ki, ən böyük dərd elə sevgidir, bəzən gecələri səhərədək gözləmək, bəzən heç yatmamaqdır. Amandina bütün qəlbi, vücudu ilə Ayaza vurulmuşdu.

Amma qarşılıqsız, ən pisi isə söhbət etmək, ürəyini sıxan hisslərini dilə gətirmək üçün Ayaz ona imkan yaratmırdı. Nəhayət, gözlənilməz imkan yarandı. Şam yeməyindən sonra Mətin yaxınlaşıb sual etdi:

- Amandina, sabah nə işin var?

Əvvəlcə heç nə başa düşməyən Amandina sual dolu nəzərlərlə Mətinə baxdı. Deyəsən, Mətin də Amandinanın onu düzgün başa düşmədiyini hiss etdi. Ona görə də anlaşılmazlığı aradan qaldırmaq üçün açıq söhbətə keçdi:

- Səhər rayondan qız dostum gələsidir, qısa müddətə. Çox istərdim ki, Ayaz və sən birlikdə gəzintiyə çıxaq.

- Məndən asılı nə varsa, hazır. Amma Ayaz necə, razıdırmı?

- O öz uşağımızdır, ağzı nədir ki, razı olmasın.

Mətin fikrini tamamlayıb, pəncərə önündə ayaq üstə dayanıb, kiminləsə telefonla danışan Ayazı əli ilə yanına çağırdı. Ayaz şəhadət barmağını qaldırıb, yəni bir dəqiqəyə gəlirəm işarəsini verdi. Amandina gözucu



Ayaza baxıb, ondan cavab gözləyən Mətinə dedi:

- Elə mən də evdə darıxıram, gəzsək bir az kefimiz açılar.

- Əla.

- O qız sizin üçün bu qədər qiymətlidir?

- Həyatım qədər, bəlkə də ondan da qiymətli.

- Sevdiyiniz qızdır?

- Elədir ki, var?

- Adı nədir?

- Əsnad.

Bir anlıq əlini başına qoyan Amandina fikirli-fikirli dedi:

- Əsnad, sizləri ölümdən xilas edən ailənin qızıdır, düz tapdım? Lakin o qız, onun atası, qardaşları haqqında mənə danışıb.

- Elədir ki, var. "Hər işdə bir xeyir var" məsəli mənim kimilər üçün deyilib.

Hər ikisi güldü. Ayazın onlara yaxınlaşaraq:

- Yenə kimi məsxərəyə qoyub gülürsünüz, ay itoynadanlar, - Ayaz gülə-gülə söz atdı.

Mətin eyni təbəssümlə cavab verdi:

- Səndən başqa kim olacaq ki, evin içində boynunda şərf gəzirsən.

Ayaz qeyri-ixtiyari əlini boynuna toxundurdu. Şərfi hələ də çıxarmadığını görüncə güldü:

- O qədər fikirli oluram ki, bəzən evimizin yolunu da səhv salıram.

Mətin Ayazın fikirli olmasının MTN-nin şirkətə olan hücumu ilə bağlı olduğunu düşündüyündən, onun halına acıdı. Ciddi görkəm alıb əlini Ayazın çiyninə qoyaraq dedi:

- Ayaz, bu məsələni buraxaq böyüklərimizin öhdəsinə.

Ayaz narahat baxışlarla Amandinanın çöhrəsinə nəzər yetirib, üzünü böyük qardaşı kimi hər zaman dəyər verib hörmət etdiyi Mətinə tutdu:

- Bəli, o, böyüklərin işidir. Amma kiçiklərin də dərdi-səri, problemləri var. Ən ağrılısı çəkdiyin dərdi, əzabı heç kəsə deyə bilməməyindir.

Mətin Amandinanın gözlərini süzdürüb köks



ötürərək başını bulamasından başa düşdü ki, Ayazın fikirli, dərdli olmasının səbəbi bu qızla bağlıdır. Təxminləri özünü doğrultdu.

- Sənin düşüncələrin depressiyaya düşməkdən yaxşıdır, - Amandina Ayaza söz atdı.

Ayaz gülümsəyib gözaltı Amandinaya baxıb dedi:

- Kiçik xanım, sevdiklərini və sahib olduqlarını itirdikdə depressiyaya düşürlər. Mən isə şükürlər olsun ki, nə sevdiklərimi, nə də sahib olduqlarımı itirməmişəm.

- Deməli, sizi sıxan vicdan əzabıdır.

- Təəssüf ki, ehtimalınız yanlışdır...

Mətin söz-söhbətin genişlənməsinin qarşısını almaq üçün Ayazın sözünü kəsib əmredici tərzdə dedi:

- Ayaz, hər mübahisədə qalib gəlməli deyilsən, bir az centlmen ol, qızın dediklərini qəbul et.

Ayaz gülümsəyib ətrafa nəzər saldı. Onların söhbətinə diqqət verənin olmadığına arxayın olduğundan, Amandinanın sağ əlini ovcunun içinə alıb sağ ayağını, daha sonra isə başını sinəsinə tərəf əyib təzim etdi.

- Bu, mən tərəfdən centlmenlik, - deyib artıq qırışı-

ğı açılan Amandinaya baxdı.

- Paho, Ayazın centlmen davranışı mənə orta əsrlərdə Avropa saraylarında zadəgan məclislərindəki davranışları xatırlatdı, - deyə Mətinin şən səsi eşidildi. Sonra da şübhəli nəzərləri ilə hər ikisini başdan-ayağa qədər süzüb dedi:

- Mən bu mübahisənin mərkəzində məhəbbət işartıları görürəm. Özü də bu, yaxşı haldır.

Mətin Ayazın və Amandinanın susduğunu görüb bir qədər də dərinə getdi:

- Ayaz, bilirsən, Viktor Hüqo nə deyib?

- Çox şey deyib və yazıb. Hansını nəzərdə tutursan?

- Viktor Hüqo məhəbbət barədə deyib ki, "məhəbbət ağac kimidir, öz-özünə bitərək, varlığımızın ən dərin qatlarına kök atır və bəzən ürəyimizin xarabalığında da çiçəkləyib, yaşamaqda davam edir".

- Əhsən, bu gözəl sözlərə görə. Amma Viktor Hüqodan fərqli olaraq, bizimlə bağlı fikirlərində yanılırsan.

Mətin ağzını açıb söz demək istədi.

- Mətin, lazım deyil, - deyə Amandina onu fikrindən



daşındırdı. Mətin ürəyində tam yəqin etdi ki, Amandina cavabsız sevgiyə mübtəla olub. Ayaz isə onu başa düşdüklərini anladığından üzüsulu aradan çıxmağa çalışdı. Mətin ona mane oldu. Əlindən tutub dedi:

- Dediklərin yaxşı-pis öz fikirlərindir. Özün bilərsən, amma məni də dinlə.

Ayaz Mətinin son cümləsindən narahat olduğundan, təşviş dolu nəzərlərlə gözlərini döyə-döyə ona baxdı.

- Eşidirəm, nə sözün, nə tapşırığın?

- Sabah səhər Əsnad Bakıya gəlir. Sən və Amandina bizim qonağımızsınız.

- Yəqin yeyib-içmək olacaq?

- Yemək-içmək elə-belə olmayacaq, tələbim də var.

- Buyur.

- Bütün istedadını ortaya qoymaqla məclisdə mənim haqqımda xoş sözlər deyib tərifləyərsən.

Ayaz ucadan gülüb dedi:

- A kişi, şikəst qızımızı ərə vermirik ki, qapıdan yola salana qədər hey tərifləyək. Maşallah, qədd-qamətli, gözəl-göyçək oğlansan. Əsnadın minnəti olsun ki, ona

diqqət ayırırsan.

- Nə deyirəmsə, onu edərsən.

- Yaxşı, sən deyən olsun.

- Deməli, danışdıq. Sabah saat 10-da sizi “Neftçilər” metrosunun qarşısında gözləyəcəyəm.

Ayaz bir anlıq fikrə gedib acizanə xahiş etdi.

- Mən Amandina ilə saat 11-də hara desən ora gələrəm. Çünki səhər 9-da Fransadan gələn malı gömrükdə qəbul etməliyəm.

- Başqası gedə bilməz?

- Yox. Mal mənim adıma göndərilib.

Mətin Amandinanın da fikrini öyrənmək üçün ona üz tutdu:

- Sən nə deyirsən?

- Mən hansı dövlətdə və xalqın əhatəsində olduğumun fərqindəyəm.

- Nahaq elə düşünürsünüz, sözünüzü deyin.

- Ayaz nə zaman imkan və vaxt tapsa, o zaman gələrik.

- Çox yaxşı, danışdıq, səhər sizin zənginizi gözləyirəm, - deyən Mətin sağollaşmamışdan əvvəl üzünü Amandinaya tutub böyük təcrübəyə malik mütəxəssis kimi mövqeyini bildirdi. Bəzən insan sevsə də, boynuna almaq istəmir, çox çətin olur dərk etmək, qəbul etmək. Görünür, Ayaz da hələ sənin dərdindən dəli-divanə olduğunu boynuna almaq istəmir.



Ayaz başını bulayıb güldü, artıq getməkdə olan Mətini yola salmaq üçün onunla bərabər qapıya doğru addımladı. Amandina isə sabahkı gəzintiyə hazırlaşmaq üçün öz otağına keçdi.

***

Mətin bütün vücudu, qəlbi ilə sevdiyi Əsnadı yaxın dəqiqələrdə görəcəyini düşüncə içində xoş duyğular yaranırdı. Sevinirdi, nə yaxşı ki, ötən həftə qışlağa gedəndə, telefon nömrəsini Əsnada vermişdi. İki gün əvvəl də Əsnad Xırdalan şəhərinə xalasının yanına gəldiyini ona telefonla söyləmişdi. Çox söhbətdən-danışıqlardan sonra Əsnad onunla görüşmək təklifi ilə razılaşmışdı. Ancaq problem vardı. Əsnad görüş yerinə

xalası ilə gəlirdi. İndi də Mətin fikirləşirdi ki, bu qadını yanlarında necə sürüyəcəklər. Ayazı və Amandinanı necə başa salacaq ki, Əsnadın təkbaşına şəhərə gəzməyə çıxması qeyri-mümkün məsələ olduğundan, xalasını yanına qoruyucu kimi götürüb. Bu narahat suallar içində baş sındırınca, telefonuna zəng gəldi. Mətin tez zəngi söndürüb, yenidən qızın nömrəsini yığdı. Əsnadın səsini eşidincə:

- Haradasınız, metrodan çıxırsınız? Hə, bu dəqiqə sizi qarşılayıram, - Mətin danışa-danışa maşından düşüb, "20 Yanvar" metrostansiyasının pilləkənlərinin önünə yaxınlaşdı. Əsnadla xalası ona yaxınlaşdı. Mətin onlara salam verib maşınına dəvət etdi. Amma Əsnadın xalası:

- Mən sizin kölgəniz olub, arxanızca dolaşmayacağam ki, - deyə Mətini sıxan problemlərdən qurtuluş yolunu göstərdi.

Əsnad dirəniş göstərdi:

- Səkinə xala, gedək bizimlə, 5-10 dəqiqə söhbət edək, sonra gedərik evə.



Səkinə xala Mətinin yalvarış dolu çöhrəsinə baxıb, sanki onun ürəyindən keçənləri duydu.

- Əsnad, bala, 5-10 dəqiqə söhbətlə bir-birinizi başa düşməzsiniz. Mətinə etibar edirəm. O, halal uşağa oxşayır.

Mətin Səkinə xalanın sözlərindən ürəklənib dedi:

- Xala, mən öz həyatıma qıyaram, amma Əsnadın dırnağına belə xətər dəyməsinə imkan verməərəm. Bilmək istəyirsinizsə, eşidin, mən Əsnadı sevirəm, onunla ailə qurmaq istəyirəm.

Mətinin sözlərindən Səkinə xala təsirləndi. Üzünü Əsnada tutub dedi:

- Qızım, sizə xoşbəxtlik arzulayıram. Mən isə gedirəm. Yeni Yasamalda əminəvəsi Ruhəngizgilə. Nə zaman söhbətinizi bitirsəniz, mənə zəng edərsiniz.

Mətin:

- Etimadınıza görə, sağ olun. Səkinə xala, gəlin əyləşin, hara lazımdırsa ora aparım.

- Yox bala, siz mənə görə narahat olmayın. Metroya minib "İnşaatçılar"da çıxacağam. Oradan isə Ruhən-

gizgilinin evinə iki-üç dəqiqəlik yoldur.

Səkinə xala sözünü bitirib, metroya tərəf addımladı. Mətin bir anlıq onun arxasınca baxıb, Əsnadın nə düşündüyünü müəyyənləşdirmək üçün ona nəzər yetirdi. Əsnadın başını aşağı dikib, ayaqqabısı ilə torpağı eşələdiyini görüncə, ürəyindən, onun çiyinlərindən tutub silkələmək, - nə olub, nə baş verib? - demək keçdi. Amma qızın xətrinə dəyəcəyinə ehtiyat etdiyindən, özünü ələ aldı. Maşının arxa qapısını açıb nəvazişlə - buyurun, əyləşin, - dedi. Əsnad, sanki kiminsə görüb ağız büzəcəyindən ehtiyat edirmiş kimi, hürkək baxışlarla ətrafa göz gəzdirib maşına mindi. Mətin başını bulayıb gülümsədi. Ürəyində, - ay səni Əsnad, - söyləyib, maşına əyləşərək, mühərriki işə saldı. Maşın yerindən tərpənincə, güzgüdən arxaya boylandı. Əsnad yumaq kimi bükülüb arxa oturacağa söykənmişdi.

- Əsnad, necəsən, atan-anan, qardaşların necədir? Əsnadın dillənmədiyini görən Mətin, - məndən küsmüsən, niyə danışmırsan? - deyə gileyləndi. Amma yenə də Əsnaddan səs çıxmadı. Mətin narahat oldu.



Maşını sağa verib, yolun kənarında saxladı. Geri çevrilib, - Əsnad, nə baş verib, niyə danışmırsan? Bəlkə mən səhv etdim, de, danış, - deyə qızı danışdırmaq üçün cəhd etdi. Diqqətlə baxanda hiss etdi ki, Əsnad için-için ağlayır. Gözləri qaraldı, dünya başına fırlandı.

- Bu nədir, axı mən nə qəbahət iş tutdum? - ürəyində özünü qınadı. - Özümü pis hiss edirəm Əsnad, nə baş verdi. Əsnad, sən mənim qaranlıq zülmətdə ümid işığımsan. Bu işığın nuru sayəsində yetimliyi unudacağımı, səninlə ailə qurub, xoşbəxt yaşayacağımı düşünürəm.

Daşdan-qayadan səs çıxdı, Əsnad dillənmədi.

Vəziyyətdən çıxmaq üçün Mətin şou yaratmaqdan başqa çıxış yolu görmədi. Maşının qapısını açıb bir ayağını yerə qoyaraq ətrafdan keçənlərin eşidə biləcəyi bir səslə qışqırdı:

- Ey şəhər əhli, mən Əsnadı sevirəm, - dedi. Çoxları ona baxıb, etinasız halda başlarını bulayaraq ötüb keçdilərsə də, bir yaşlı qadın - a bala, ayıbdır, sevirsənsə, ata-ananı elçi göndər, al - deyib Mətinə öyüd-nəsihət

verməyə çalışdı. Mətin qadına təşəkkür edib, bayaqkı sözünü yenidən təkrarlamaq üçün hazırlaşdı. Mətin, ayıbdır, eşidən-bilən, görən olar, otur maşına, - deyə Əsnad təkid etdi. Mətin isə Əsnadın yumşaldığını görüb, bir qədər də şounu davam etdirməyə çalışdı. Bu dəfə Əsnad gülə-gülə, - Mətin, dəlilik eləmə, sür gedək burdan, - deyib israr etdi. Hətta uşaq şıltaqlığı ilə ayaqlarını maşının döşəməsinə də döyəclədi. Mətin artıq hərəkətin şitlik yaradacağını anladığından, Əsnadın tələbini yerinə yetirdi. Amma tam təslim olmaq fikrində deyildi. Əsnadı bir qədər də təəccübləndirmək üçün pafosla dahilərdən sitat gətirdi:

- Əsnad, Bixter adlı dahi deyirdi ki, "bir qadın ya sevər, ya da nifrət edər, ortası yoxdur". İndi sən məni sevirsən, yoxsa nifrət edirsən? Fikrini de, istəsən geri qayıdıb, səni Səkinə xalanın yanına apararam.

Deyəsən, Mətinin sözləri Əsnada təsir etmişdi. Başını qaldırıb Mətinin güzgüdən ona dikilən gözlərinə baxdı. Tez də üzünü yana çevirdi.

- Hə, sevirsən, yoxsa nifrət edirsən?-Mətin yenidən



sual etdi.

Əsnad özünü toplayıb, səsi titrəyə-titrəyə Mətinin ümid çırağını yandıran sözlər dedi:

- Mən burdayamsa, bu, sənə nəsə demir?

- Tam yox.

- Evə qayıdanda deyərəm. İndi hara gedirik?

Mətin qızı başa düşdüyündən, çox da çək-çevir etmədi. Əsas o idi ki, Əsnad sakitləşmiş, başını qaldırıb, ətrafa boylanmağa başlamışdı.

- Bulvara gedirik, ora daha sakit və şirin söhbətimiz üçün daha münasibdir. Qonağımız da olacaq.

- Qonağımız? Yox Mətin, elə etmə, ayıbdır.

- Narahat olma, qonağımız biz ailə qurandan sonra evimizə tez-tez gəlib-gedən insan olacaq. Əfqan müəllimin oğlu Ayaz, bir də o gavur dediyin vardı ha, onun bacısı.

- Bacısı?

- Hə, Amandina, o, Bakıdadır.

Əsnadın susmasını Mətin razılıq əlaməti kimi başa düşdü. Dənizkənarı Milli Parka çatana qədər heç biri

dinib-danışmadı.

- Çatdıq, Əsnad, yerin rahatdırsa, düşməyə bilərsən. - Mətin maşını dayanacağa verib saxlayarkən, zarafatyana söz atdı. Əsnad istədi zarafata zarafatla cavab versin, amma utandı bunu özünə ayıb bildi. Mətin mühərriki söndürüb yerə düşüncə, o da qapını açıb aşağı endi. Ürkək ceyran kimi sağına-soluna, mavi dənizə, bərq vuran palma ağaclarına baxdı. Mətin, - gəl gedək, - deməsəydi, bəlkə də Əsnad saatlarla yerindən tərpənməz, ətrafına boylana-boylana qalardı.

Mətin Əsnadın təəccüblə dənizə baxdığını görüb dedi:

- Xoşuna gəlir?

Əsnad dinmədi. Mətin söz atdı.

- Sən yüz faiz məndən narazısan?

Əsnad ala gözlərini süzdürərək, ilk dəfə Mətinin gözlərinin içinə dik baxaraq dedi:

- Axı mən səndən niyə narazı qalmalıyam ki?

- Nə bilim?! Bayaq elə, indi də belə. Sual verirəm, cavab vermirsən.



- Anam deyir ki...

- Hə, anan nə deyir ki?

- Anam deyir ki, oğlan məktub yazıb öz sevgisini qıza çatdırmırsa və bunu çöldə-bayırda deyirsə, deməli, o, yalan danışır. Yəni sevmir.

Mətin bərkdən gülüb dedi:

- Ay sənin ananın qadasını alım, belə onun başına dönüm. Əvvəla, ona görə ki, sənin kimi gözəl, amma sadəlövh qızı dünyaya gətirib, ikincisi də, biləsən ki, ananın atandan aldığı sevgi məktubunu bu gün whatsapp, facebook və instaqram əvəzləyib.

Əsnad bir söz deməyib, xəfifcə gülümsədi. Bunu Mətin görməsin deyə, üzünü dənizə tərəf çevirdi. Mətin ağzını açıb, söz demək istəyirdi ki, telefonu zəng çaldı. Ayaz idi. Mətin telefonu qulağına tutub, Ayazla salam-kalamdan sonra giley-güzar etdi, harda olması ilə maraqlandı.

- Üzrxahlıq qəbul olunmur, yarım saata burda ol, - deyən Mətin telefonu qapadı. Telefonunu cibinə qoyub, saatına baxdı, - birə işləyir, bəlkə gedək bir çay

içək, bir dişləm də çörək yeyək, nə deyirsən?

Əsnadın etiraz etmədiyini görən Mətin "Sahil" restoranını əli ilə göstərib, ora getməyi təklif etdi. Artıq buzlar ərimişdi. Əsnad danışır, suallar verirdi. Bəzən xaricdən gətirilib bulvarda əkilən ağacları Mətinə göstərib, onların adı, növü ilə bağlı mübahisələr də edirdi. Ancaq mübahisə Mətinin xeyrinə bitirdi. Haradan gətirildiyi, yaşı və adı yazılmış lövhəni Əsnada əyani şəkildə göstərib, oxutdurduqdan sonra Əsnad gülüb əllərini yuxarı qaldırırdı. Arıq, hündür boylu, qıvrım saçlı Əsnad gözəlliyi ilə bərq vururdu. Qızın ala gözləri ağ gül kimi gözəl simasına xüsusi yaraşıq verirdi. Mətin hiss etdi ki, bəzən ətrafdan keçənlər müxtəlif bəhanələrlə geri çevrilib, Əsnadın qəddi-qamətinə, gözəl çöhrəsinə tamaşa edirdilər. Bu, Mətini narahat etməyə başladı. Az qaldı ki, gözlərini onlara dikən insanlara acıqlansın, amma tez də özünü ələ aldı. Hətta xarakterindəki qısqanclıq hissinə görə özünü qınadı. Yadına sevgi ilə bağlı bir fikir düşdü: sevib xoşbəxt olmaq istəyirsənsə, qorxaqlıqdan və qısqanclıqdan azad olmağı bacarmalısan.



- Nə fikirləşirsən? - Əsnadın səsi eşidildi.

Mətin özünü ələ alıb:

- Heç, düşünürəm ki, bu qız nə vaxt ekzotik dünyadan ayrılacaq və biz yolumuza davam edəcəyik?

Əsnad gülümsəyib söz atdı:

- Bəlkə kimsə, nəsə yadına düşdü, onun xiffətini çəkirsən?

Mətin:

- Mənim sevincim də, xoşbəxtliyim də qarşımda olduğu halda, başqa nəyisə düşünməyim ağılsızlığım olmazmı?

Əsnad ağzını açdı və - a..., - deyib susdu. Mətin güldü:

- Hə, anan nə deyib? Yaxşı, ananın sənə göstərdiyi yolu, verdiyi məsləhəti saxla, çörək yeyəndə deyərsən.

Əsnad hövsələsizlik etdi:

- Yox ey, anam deyirdi ki, oğlan, həqiqətən, sevirsə, görüşərkən, qıza baxıb gülümsəməlidir. Sən isə müəmmalı xəyallar aləmindəsən.

- Əsnad, bilmirəm, anan nə səbəbə o məsləhəti sənə verib, amma mənim deyəcəyim odur ki, sevgi düşüncələrdən başlayır. Nə isə, bu barədə kifayət qədər danışmağa vaxtımız olacaq. İndi isə gedək. İndilərdə Ayaz və Amandina da gələsidir.

Onlar restorana çatıb ümumi zala daxil oldular. Sakitlik idi. Bu isə daha sərbəst və rahat söhbət etmələri üçün imkan demək idi. Qapı önündə onları qarşılayan ofisiant yuxarı başda pəncərəyə yaxın masanı göstərdi.

Paltolarını çıxarıb, üzbəüz əyləşdilər.

- Ürəyin nə istəyir seç, - Mətin menyunu ehmalca Əsnadın qabağına itələdi.

Əsnad utanırmış kimi başını aşağı saldı:

- Mənə fərq etməz, siz nə yesəniz, mənə də ondan, - deyə uşaq şıltaqlığı ilə dilləndi.

Mətin gülümsədi, başını bulayıb, özü ofisianta sifarişləri verdi.

Ofisiant sifarişləri qəbul edib otaqdan çıxınca, - burda tez-tez olursan? - Əsnad şübhəli nəzərlərlə ətrafa göz gəzdirib, sual etdi.



- Olur da, hərdən.

- Kiminlə?

- O qədər maraqlıdır sənin üçün?

- Düzünü bilmək istəyirsənsə, hə.

Bu qızın heç bir saxtakarlıq etmədən hisslərini büruzə verməsi Mətinin qəlbində xoş duyğular oyatdı. Onun düşündüklərini alt-üst etmək üçün saxtakarlıq etməli, yalan danışmalı oldu:

- Təqribən bir il öncə tələbə yoldaşlarımla burada olmuşam.

- Oğlanlar, ya qızlar?

- Təbii ki, oğlanlar.

- Heç inanmağım gəlmir.

- Nə edim ki, inanasan?

- Borclu deyilsən.

- Sevgi həm də sədaqət deməkdir, hörmət etməkdir. Başqa sözün var, yoxsa anan belə vəziyyətlə bağlı nəsə deyib, xatırlamırsan ki?

Hər ikisi güldü. Arxadan Ayazın səsi eşidildi:

- Oh, qardaşım yenə də gülür.

Mətin tanış səsə tərəf çevrildi və ayağa qalxaraq, yaxınlaşmaqda olan Ayaza əl verib salamlaşdı. Amandinaya da - xoş gördük, necəsiniz? - deyib, artıq ayaq üstə dayanıb onlara baxan Əsnadı Ayazla, daha sonra Amandina ilə tanış etdi. Ayaz özünü şən göstərməyə çalışsa da, əslində, gərgin durumda olduğunu açıqca büruzə verirdi. Bu, onun sözlərini ifadə etməyə çalışarkən pauzalar etməsi, qırıq-qırıq sözlər deməsindən hiss olunurdu. Eyni ilə Amandina da etik qaydalara riayət edərək Əsnadın kefini-əhvalını soruşub, ona müxtəlif suallar verməklə özünü söhbətcil göstərməyə çalışsa da, yanaqlarının pörtməsi və əllərinin titrəməsi ilə tikan üstündə oturmuş adam təsiri bağışlayırdı. Sanki bu iki şəxs yol boyu maşında bir-birini qınamış, tənqid etmiş, hətta bir-birinə əl-qol atmışdılar. Mətin onları başa düşürdü. Amma onların qərarlarına təsir etmək gücündə deyildi. Sadəcə, Əsnadın burada olduğu məqamda şən əhval-ruhiyyənin olmasını istəyirdi.

Ofisiant içəri daxil olub masaya əvvəlcə salatlar, göy-göyərti, sonra isə tikə, lülə, balıq kabablarını və



albalı şirəsini düzdü. Mətin masa arxasında canlanma yaratmaq üçün, - Hə, dostlar, bismillah edin, - deyib çəngəllə lülə və tikədən götürüb, nimçəsinə qoydu. Ayaz kababa əl uzadarkən, gözaltı Amandinaya baxdı. Fransız qızı bir anlıq kabablara nəzər yetirib, çəngəli götürdü. Lülə, tikə və balıq kabablarının hərəsindən bir tikə götürüb, nimçəsinə düzdü. Yeməyə başlarkən, başını qaldırıb üzbəüz oturduğu Ayaza baxaraq gülümsədi. Ayaz da qımışdı. Bu, Mətinin gözündən qaçmadı. Məclisə xoş ovqat qatmaq üçün söz atdı.

- Hə, nə olub, yenə gözləşib, qımışırsınız?

Ayaz:

- Bu, bizim sirrimizdir?

- Heç gözləməzdim. Sən məndən sirr saxlayırsan?

- Yaxşı, dərinə getmə.

Ayaz təslim oldu. Əli ilə Amandinanı göstərib dedi:

- O qız, əvvəllər kimsə ona qulluq göstərməsəydi, qarnına yemək yeməzdi, indi isə özünə xidmətə öyrəşib, ona gülürəm.

Mətin pomidor dilimindən ağzına qoyub çeynədik-

dən sonra udqunub dedi:

- Yüz faiz sənin zəhmətinin bəhrəsidir.

Amandina özünə həmfikir tapıbmış kimi Mətinə baxıb söz atdı:

- Kobudluq və etinasızlıq kimdə ola bilər, təbii ki, Ayazda.

- Hə, Ayaz bircə ay Fransada olsa, vay oranın qızlarının halına. Hamısı xasiyyətlərini dəyişəcəklər.

Mətinin ağzı söhbətə qızışdığından, Əsnada diqqət ayıra bilməmişdi. Sanki yatmışdı, indi ayıldı. Əsnadın nimçəsi boş idi. Əllərini çarpazlayıb gözlərini söhbət edənlərə dikmişdi. Mətin özünü qınadı, istədi Əsnaddan üzr istəsin, amma "Əsnad, sən niyə yemirsən" deməklə kifayətləndi. Sonra da əlindəki çəngəl-bıcağı kənara qoyub, əlavə etdi:

- Bu çəngəl-bıçaq da ağzımızın ləzzətini qaçırıb.

Ayaz da Mətini başa düşdüyündən, çəngəl-bıçağı kənara qoyub, əli ilə yeməyə başladı. Mətin ürəyində Ayaza, - əhsən,- deyib üzünü Əsnada tutdu:

- Əsnad, sən də əlinlə ye. Burdakılar özümüzün-



külərdi.

Əsnad ürəkləndi, yavaş-yavaş kabablardan götürüb nimçəsinə qoyur, daha sonra iştahla yeyirdi. Artıq Amandina da onlara qoşulmuşdu. Hətta fransız qızı kababı əllə yeməyin daha dadlı olduğunu uca səslə söylədi. Mətin ona dəstək verdi:

- Yemək süfrəsində çəngəl-bıçaq hoqqasını kimin çıxardığını bilsəydim, ona etirazımı bildirərdim.

Ayaz Amandinanı təbəssümlə süzüb dedi:

- Elə mən də həmin ixtiraçını axtarıram.

Yeməyi yeyib, pürrəngi çaylarını içdikdən sonra dostlar restoranı tərk edib gəzməyə çıxdılar. Qarlı-şaxtalı hava olduğundan sahildə kimsə gözə dəymirdi. Dəniz isə hələ də səs-küylü idi, ləpələr şahə qalxıb sahilə çırpılırdı. Amandina Ayazla qoşa addımlayırdı. Qız hər vəchlə çalışırdı ki, Ayaza yaxın olsun, ona sıxılsın. Amma Ayaz Mətindən və Əsnaddan ayıbdır, - deyib Amandinanın ümidlərini alt-üst edirdi. Ayaz gözlənilmədən geri çevrilib Amandina ilə üz-üzə dayandı:

- Məni bağışla.





- Sən neynəmisən ki?

- Bağışla ki, sənin sevginə cavab verməyə cəsarətim çatmadı.

Amandina Ayazın uca boyuna, enli çiyinlərinə, dəniz ləpələrini xatırladan təlatümlü ala gözlərinə baxıb dedi:

- Ayaz, səni görəndən sonra sevginin dəhşətli virus olduğunu dərk etmişəm. Həm də başa düşmüşəm ki, sevgi həm də dərk edilməyəcək qədər xoş duyğudur.

- Biz bu duyğunu dostluqla da yaşaya bilərik.

- Bu, mənə kifayət etmir.

- Bizim adət-ənənəmiz, səninlə evlənməyimizə imkan vermir, məni bağışla.

Bir an sonra Ayaz hiss etdi ki, Amandina sakitcə ağlayır.

- Özünü ələ al, - deyən Ayaz kənardan keçənlərin diqqətini özlərinə cəlb etməmək üçün Amandinanın əlindən tutub, üzü dənizə baxan oturacağa dəvət etdi.

Amandina oturub dizlərini bükdü. Dərsini bilmədiyi üçün müəlliminin qarşısında günahkarcasına daya-

nan şagird kimi, gözlərini dənizə dikdi. Hərdən burnunu çəkməsi onun hələ də sakitləşmədiyini göstərirdi. Ayaz bu qaçdı-tutdu oyununa son qoymaq üçün qətiyyətli addım atmağa məcbur oldu.

- Amandina, bir az qürurlu ol, axı sən qızsan.

- Sevgi xoşbəxtlik, ümid, səadət, bir sözlə, həyat deməkdir. Bu gözəl həyatı əldə etmək üçün qüruru və mənliyi sındırmağa dəyər.

- Ancaq özünü düşünmə, mənim də dediyin o gözəl həyatda gözüm var.

- Bilirəm.

- Onu da bilirsən ki, sevmədən evlənmək, inanmadan ibadət etmək kimi bir işdir. Bir də məlumatın olsun ki, mən yaxın günlərdə nişanlanacağam, toyum olacaq.

Eşitdiyi xəbər Amandinada soyuq qış günündə soyuq duş effekti yaratdı. Ayağa durub, həyəcanla üzünü Ayaza tutub dedi:

- Ola bilməz.

- Həqiqətdir Amandina. Bunu Lui Santa da bilir.

Mətin və Əsnadın yaxınlaşması ilə Amandina nəm-





li gözlərini əl çantasından çıxardığı yaylığı ilə silib, dili topuq vura-vura dedi:

- Ayaz, seçiminə hörmətlə yanaşmaq məcburiyyətindəyəm. Amma yaddan çıxarma ki, heç bir qız, heç zaman səni mənim qədər sevə bilməyəcək.

Ayaz sanki indi sərt danışdığını başa düşdü. Gərginliyi bir qədər azaltmaq üçün dedi:

- Amandina, bizlərdə belə bir məsəl var: xəyallar və gerçəkliklər yarışar. Xəyallar həmişə öndə gedər, amma hər zaman gerçəkliklər qazanar. Mən gerçəkliyi dedim. Artıq qərar sənindir.

- Siz azərbaycanlıların belə bir məsəli də var: qılınc yarası sağalar, söz yarası sağalmaz. Sənin sözlərin mənə ömürlük sağalmaz yara vurdu. Bu yaranın ağrıları ilə də Azərbaycanı tərk edirəm. Sağ olun. Parisdən Laçiyə zəng edib, hər şeyi ona başa salacağam.

Ayaz onları tərk etməyə hazırlaşan Amandinadan acizanə xahiş etdi:

- Amandina, bir ayaq saxla, gedək xudmani bir yerdə oturub, ikilikdə söhbət edək.



- Yox, artıq gecdir.

Amandina fikrini tamamlayıb, Əsnadla əl verib öpüşdü. Mətinə, daha sonra isə Ayaza - hər şeyə görə sağ olun, - deyib onlardan aralandı. Amma dərhal da geri dönüb, Ayazla üz-üzə dayanıb, ağlamsınan səslə dedi:

- Sən mənə söz vermisən, vəd vermisən ki, yayda Fransaya gələcəksən, unutmamısan ki?

Ayaz ürkək baxışlarla Amandinanı süzüb dedi:

- Yox.

- Lap yaxşı. Əgər yayda gəlməsən, o biri il gəl, ailə quracağın qız icazə verməsə, növbəti il gəl. Bütün ömrüm boyu səni gözləyəcəyəm.

Amandina sözünü bitirincə, bir daha üzrxahlıq edib iti addımlarla taksi dayanacağına üz tutdu. Ayaz isə kökündən qopan ağac kimi oturacağa çökdü. Mətin onun yanında oturub təskinlik verməyə çalışdı. Ayaz isə bir anlıq fikrə gedib, birdən yerindən dik qalxdı üzünü Mətinə tutub dedi:

- Bu, olmalı idi. Amma bu məqamda olmasını

istəməzdim. Əsnad, Mətin, məni bağışlayın.

Mətin də oturacaqdan ayağa duraraq, sağ əlini Ayazın çiyninə qoyub, - narahat olma, öz qayğına qal, - deyə bildirdi.

Ayaz isə özünü sakit göstərməyə çalışdı.

- Hər şey yaxşıdır, - deyib onlarla sağollaşmağa hazırlaşdı.

Mətin məsləhət verdi:

- Birbaşa evə get.

Ayaz sağollaşıb, parkdan çıxmaq üçün pilləkənlərə doğru addımladı. Mətin və Əsnad sakit şəkildə onun gedişini izləyib, bir-birinə baxdılar.

- Mətin, artıq gecdir, mən getməliyəm, - bu sözləri deyərkən Əsnad həyəcandan titrəyirdi.

Mətin onun əlindən tutub, özünə tərəf çəkdi:

- Gəl bir az gəzək.

Əsnad cəld hərəkətlə əllərini geri çəkib, - belə etmə, - gəl gedək deyə ona etiraz etdi.

- Əsnad, nə olub, niyə əllərin əsir, dodaqların titrəyir, bəlkə soyuqdan üşüyürsən?



- Heç yaxşı olmadı.

- Nəyi deyirsən?

- Gərək o fransız qızın getməsinin qarşısını alaydıq.

- Buna ehtiyac yox idi.

- Niyə?

- Çünki Ayaz belə istəyirdi.

- O, çox cazibədar, gözəl qızdır. Yəqin Ayazın tələbləri başqadır.

- Tələbi-filanı yoxdur, sadəcə, ailə dəyərləri ona Amandinanın sevgisinə qarşılıq verməyə imkan vermir.

- Amma mən düşünürəm ki, Ayaz sevsəydi, ona heç nə mane ola bilməzdi.

- Hiss edirəm ki, Ayaz Amandinaya qarşı etinasız deyil, bəlkə də sevir, amma ailədaxili qaydalar ona fransız qızı kimi düşünməyə imkan vermir.

- Heç olmasa, biz gərək incik qızı Fransaya yola salmağa gedəydik, bu, heç yaxşı olmadı, - Əsnad köks ötürdü.

- Bununla Ayazın xətrinə dəymiş olardıq, istəsəydi,

özü onu yola salardı.

Mətin söhbəti dəyişmək üçün Əsnadı soyuqdan qoruyurmuş kimi, qucaqlayıb əllərini kürəyinə doladı.

Əsnad çırpınıb Mətinin qolları arasından çıxmağa çalışdı. Ancaq xilas ola bilmədi. Bir neçə saniyə sonra isə susdu. Əsnad düşünürdü, ona elə gəlirdi ki, Mətinlə birlikdə göylərdədir və həyatının ən gözəl anlarını yaşayır. Mətin də xoş duyğular aləmində var-gəl edirdi. Əsnad onun üçün uzun illər xəyalında canlandırdığı, axtardığı və birlikdə olmaq istədiyi bir mələk idi.

- Əsnad, gələn həftənin bazar günü sizə elçiliyə gələcəyik. Artıq ucundan-qulağından Əfqan müəllimə demişəm.

Əsnad başını Mətinin sinəsindən yana əyib, onun gözlərinə baxdı.

- Bəlkə tələsməyəsən? - sanki Mətinin fikrinin nə dərəcədə ciddi olduğunu öyrənmək üçün sual etdi.

Mətin isə fikrində israrlı idi:

- Əsnad, səbrim qalmayıb. Artıq bu əzaba son qoymağın vaxtıdır.



Əsnadın gözləri gülürdü. Az qaldı sevincindən Mətinin üzündən öpsün. Amma tez də fikrindən vaz keçdi. Hətta belə bir fikrə düşdüyünə görə ürəyində özünü qınadı.

Mətin Əsnadın susduğunu görüb onu silkələdi:

- Hə, nə deyirsən? Gələn həftə elçiləri qışlağa göndərim? - deyə onun fikrini öyrənməyə çalışdı.

- Biz artıq qışlaqdan köçürük.

Mətin əli ilə Əsnadın çənəsini yuxarı qaldırıb, sual etdi:

- Hara gedirsiniz?

- Kəndimizə, Ağsu rayonuna.

- Ağsuya?

- Hə, biz Ağsudanıq, Xatman kəndindən, axı sənə demişik. Sadəcə, dolanışığımız tərəkəməlikdən çıxdığı üçün köçəri həyat keçirmişik.

- Qardaşların necə olacaq?

- Xalid evlənib qışlaqda qalacaq. Dədəm, anam, Vaqif və Vahid kəndə nənəmin yanına köçəcəklər. Bizim orada bağlı-bağçalı ikimərtəbəli evimiz var.

Mətin bir söz deməyib, pencəyinin yan cibindən bir telefon çıxarıb Əsnada uzatdı.

- Al, istifadə edərsən. Sənə zəng edəndə, bax, bu yaşıl düyməni basarsan.

Əsnad etiraz etmədi, telefonu alıb orasına-burasına baxaraq, əl çantasına qoydu. Mətin bununla kifayətlənmədi. Cibindən çıxartdığı brilyant qaşlı üzüyü ovcunda saxladığı Əsnadın sağ əlinin barmağına taxdı.

- Nişan üzüyüdür, necədir, xoşuna gəlir?

- Yaxşıdır, amma bura yeri deyil. Elimizin-obamızın adəti var axı.

- Əlbəttə, mən də qara zurnanın sədaları altında toy çaldırmaq, bəy durmaq istəyirəm.

Əsnad gülümsəyib, - inşallah, bəy havasına da oynayarsan, - şıltaqlıqla barmağına taxılan üzüyü çıxarıb Mətinə verərkən dedi.

Qeyri-rəsmi nişanlanan cütlüyə ayrılmaq çətin olsa da, buna məcbur idilər. Çünki 30 dəqiqə sonra Səkinə xala Əsnadı "20 Yanvar" metrostansiyasının qarşısında gözləyəcəkdi.



***

Külək qar dənəciklərini maşının sağ pəncərəsinə çırpır, dərhal da əriyən qar şüşədən aşağıya doğru süzülüb damcı-damçı asfaltın üzərinə axırdı. Sağ dirsəyini maşının qapısına söykəyib əlini gicgahına dirəyən Əfqan müəllim bu prosesi maraqla izləyirdi. Maşını idarə edən Ayaz atasının Xatman kəndindən çıxandan dinib-danışmadığını, dərin fikir içində gözlərini pəncərə şüşəsindən çölə dikdiyini görürdü. Bu narahatçılığın səbəbinin MTN-dən edilən növbəti zəng olduğunu təxmin etmişdi. Xanış kişinin həyətində olduqları zaman qəfil telefon zənginin olması və atasının kiminləsə sərt danışmasını Ayaz eşitmişdi. Hiss etmişdi ki, telefon danışığından sonra atası tez-tez saatına baxır, Mətinlə Əsnadın nişanlanmaları ilə bağlı təbriklərini qısa deyir, süfrədəki təamlara isə, demək olar ki, əl uzatmır. Yol boyu atasından telefonda kiminlə və nə danışdığını soruşmaq istəsə də, buna cəsarət etmədi. Gözlədi... gözlədi ki, atası nə baş verdiyini ona söyləyəcək.

Əfqan müəllim isə susurdu. Ağsunun çətin dolaylarını keçib, Şamaxı-Bakı yoluna çıxana qədər heç kim dinmədi.

Sükutu maşının arxa oturacağında oturan Nəzakət xanımın pıçıltısı pozdu. Anasının öz-özünə danışmasından bir şey anlamayan Gülsüm təəccüblə:

- Ay ana, səhərdən öz-özünə danışırsan, sənə nə olub?

Bayaqdan mürgü vuran Seyran səsə gözlərini açıb, sağa-sola boylandı. Bacısının anasını suala tutduğunu görüncə, onun üstünə acıqlandı:

- Sən də hər sözdə bir əmma axtarırsan...

Dildən pərgər olan Gülsüm qardaşına sözünü tamamlamağa imkan vermədi:

- Deyəsən, yuxudan kal oyandın, yum ağzını, sənə söz veriləndə danışarsan.

- Ana, bu qız mənim əsəblərimlə oynayır, onu başa sal!

Seyran kömək üçün anasına müraciət etdi. Sonra da öz-özünə - adama deyən lazımdır, ərin gəlmir, sən hara





gəlirsən, qaxıl otur xarabanda da, - əsəbiliklə deyindi.

Gülsüm kiçik qardaşının acı sözlərini cavabsız buraxmaq istəmədi. Əllərini anasının çiyni üstündən maşının sağ küncündə oturan Seyrana uzadıb, ona qarğış yağdırmağa başladı:

- Allah sənin kimi qardaşdansa mənə bir cüt lal-kar bacı verəydi. Gözünə girir Mətinin nişanına gəlməyim? Əcəb eləmişəm, axmaq, dəli.

Seyran ağzını açıb, Gülsümün cavabını vermək istəyirdi ki, Nəzakətin acıqlı səsi eşidildi:

- Bəsdirin, eşşək boyda oldunuz, dil tapmağı da bacarmadınız.

Ayaz da bacısına qahmar çıxdı:

- Seyran, sən axı kişisən, bir balaca centlmen ol. Bütün günü söz güləşdirirsiniz. Olmaz belə...

Bu məqamda Əfqan müəllimə telefon zənginin gəlməsi Ayazın sözünü yarımçıq qoydu. Əfqan müəllimin, - hər şey yaxşıdır... Hə, hə elə Mətinin nişan mərasimindən gəlirik Mətin... hə, o qaldı yeni qohumlarının yanında... Fransada nə var, nə yox? - deməsindən



Əfqan müəllimin Lui Santa ilə danışdığı məlum oldu. Ayaz atasının - Amandina.... sağ olsun, mən də, Nəzakət də, Ayaz da, ona salamlar deyirik. Gülsüm ondan ötrü darıxdığını deyir, - sözlərini eşidincə, qeyri-ixtiyari atasına tərəf başını çevirib, telefona baxdı. Sanki oradan Amandinanı görəcəkdi. Bu, arxadan Ayazın hərəkətlərini izləyən Nəzakət xanımın gözlərindən yayınmadı. Ağzını açıb, Ayazı tənbeh etmək, danlamaq, ora-bura boylanmasının artıq əbəs olduğunu söyləmək istədi. Amma onsuz da əsəbi olan, hirsini-hikkəsini tökməyə məqam axtaran Əfqandan çəkindi. Səbrini basıb, Ayazı başa salmaq üçün fürsətini gözlədi. Budur, gözlənilən fürsət yaranıb. Yaşadıqları binanın qarşısına çatınca, Əfqan müəllim maşından düşüb, tələsik addımlarla evə qalxdı. Nəzakət Ayazın başının üstünü kəsdirib, onu danlamağa başladı:

- Ayaz, özünü yığışdır. Sən artıq subay-salıq oğlan deyilsən, burdan vurub, oradan çıxasan.

Ayaz tövrünü pozmadan anasının pörtmüş sifətinə baxıb dedi:

- Yenə nə olub, ay ana?

- Özünü tülkülüyə vurma, yaxşı bilirsən, nə olub. Atan telefonda Amandinanın adını çəkən kimi çiçəyin çırtladı. Az qalmışdın ki, telefonu atanın əlindən alıb, o ləçərə xüsusi salamlarını çatdırasan...

Nəzakət xanımın az qala qışqıra-qışqıra onu tənbeh etməsinə dözməyən Ayaz asta səslə anasına iradını bildirdi:

- O nə sözdür ana. O qız təmiz, vicdanlı qızdır.

Oğlunun Amandinanı müdafiə etməsindən qeyzlənən Nəzakət xanım sərt formada:

- Bir o təmizdir, bir də Türkiyədən vurub, Dubaydan çıxan o yiyəsiz qızlar, - deyə bildirdi. Sonra üzünü Gülsümə tutub, - a...z, kənddən qoyulan xım-xırtı götür, çıx yuxarı, nə gözlərini döyürsən? - deyə acıqla bildirdi. Gülsüm anasının onu da tənbeh edəcəyindən qorxuya düşdüyündən, tez əl-ayağa düşdü, maşının baqajını açıb oradan qatıq və şor bankalarını götürdü. Ağ mələfəyə bükülmüş quzu ətinə gücünün çatmayacağını başa düşdüyündən, - Ayaz, bunları da sən gətirərsən - dedi. Amma Ayaz - mənim işim var, bir az evə gec gələcəyəm - deyib, onlardan aralandı, yaşadıqları binanın yaxınlığındakı parka girib gözdən itdi.



Gülsümün səsi eşidildi:

- Ay ana, heç yaxşı etmədin.

Nəzakət xanım geri çəkilmək fikrində deyildi, qızına səsini qaldırdı:

- Nəyi pis, nəyi yaxşı edirəm, özüm bilərəm. Bu gün-sabah Ayazı Şəmistan müəllimin qızına nişanlayacağam. O gün Xalidənin də ağzını aradım, razıdırlar, bizi gözləyirlər.

Gülsüm anasını sakitləşdirmək üçün növbəti cəhdini etdi:

- Allah xoşbəxt eləsin, amma bu söz-söhbəti evdə edərsən də, axı ayıbdı, qonşular eşidirlər...

Deyəsən, Nəzakət xanım əndazəni aşdığını indi anladı. Başını qaldırıb aşağıdan yuxarı eyvanlara boylandı, kimsənin gözə dəymədiyini görüncə sakitləşdi. Üzünü Seyrana tutub sakit səslə dedi:

- Gülsümə kömək et, maşında heç nə qalmasın.

Sonra da qarda ayağı sürüşməsin deyə asta addımlarla binanın giriş qapısına tərəf addımladı. Bayaqdan kənarda dayanıb baş verən mübahisəni laqeyd tərzdə müşahidə edən Seyran anasının zəhmli səsini eşidincə özünü yığışdırdı, yaxınlaşıb maşından deyinə-deyinə əti, yağı götürüb baqajı bağladı.

Evə qalxanda Əfqan müəllimin səsi eşidildi.

- Ayaz necə oldu?

Nəzakət:

- Qonşu Cabbar müəllimin oğluna qoşulub, harasa getdi - cavabını eşidincə Gülsümlə Seyran bir-birinə baxıb gülümsədilər. Nəzakət xanım otaqdan dəhlizə keçib Seyrana tapşırıq verdi:

- Çörəyini ye, sonra da bacını apar qoy evlərinə. İndi uşağın qışqırığı aləmi dağıdır.

Gülsüm deyəsən, getmək istəmirdi. Anasının Seyrana verdiyi təlimatı eşidincə:

- Ay ana, narahat olma, indi zəng edərəm, Vasim Babəki də götürüb gələr bura, - deyə bildirdi.

Nəzakət xanım etiraz etmədi, kənddən pay qoyu-



lan, əti, yağı, südü uşaqlarının əlindən alıb soyuducuya qoymaq üçün, mətbəxə keçdi. Bu zaman qapının zəngi çalındı. Divanda oturub fikrə gedən Əfqan müəllim diksindi, elə bil yuxudan ayıldı, fəqət, yuxu deyildi, bu, həqiqət idi. Əfqan müəllim düşündü ki, yəqin "çekistlər"dir, onunla haqq- hesab çürütməyə gəliblər. Çünki üç gün idi ki, MTN-dən zəng edilsə də, telefonu qaldırmırdı. Nəhayət, Mətinin nişan mərasiminə yığışdıqları zaman general Çobanovun telefonunu açmışdı. General onu təhdid edib, borcunu bağlamaq üçün ona bir gün vaxt vermiş, əks-təqdirdə, Ayazı və Mətini həbsə atıb çürüdəcəyi ilə hədələmişdi. Uşaqlara görə təşviş və narahatlıq keçirdiyindən nişanda özünü çox pis hiss etmişdi. Gərmə sobasının istiliyindən və içkinin təsirindən xoşhal olan Musa, Şamil, Xalid və Xanış kişinin qardaşı Mübariz çöldə şaxtalı-boranlı havanın olmasına baxmayaraq, sanki yaz-yay imiş kimi, köynəklərinin yaxasını belə sinələrinə qədər açıb deyir-gülür, hərdən də kabablardan yeyib, səbəbkarların şəninə təbrik dedikləri halda, o, beynində uşaqları gözləyən

bəladan necə xilas etməyi düşünmüşdü. İndi isə ona elə gəldi ki, gözlənilən təhlükə qapısının önündədir. Fikirləşdi ki, MTN-çilər içəri girən kimi, onu təhqir edəcək, Nəzakət xanımın, uşaqlarının gözü önündə yerə yıxıb, MTN-in zirzəmisində olduğu kimi, yumruqla, təpiklə döyəcəklər, sonra da Ayazı qandallayıb aparacaq, Mətinin isə harda olması barədə sorğu-sual edəcəklər. Bunu fikirləşdikcə, Əfqan müəllimi soyuq tər basdı, əlləri əsməyə, bədəni titrəməyə başladı. Zəng bir də çalındı və Nəzakət xanım yaxınlaşıb qapını açdı. Gələn Ayaz idi. Əfqan müəllim Ayazın səsini eşidincə, dərindən nəfəs aldı. Divandan durub ürəyi sıxıla-sıxıla otaqda var-gəl etdi. Eyvana çıxdı. Qışın sərt sazağı vücudunu üşütdü. Qollarını açıb, ciyərləri dolusu hava udmağa çalışdı. Nəzakət xanımın - Əfqan müəllim, telefonunuza zəng gəlir, - səsini eşidincə, eyvanın otağa açılan qapısını açıb, - kimdir ki? - deyə soruşdu. Nəzakət xanım telefonu ona uzadarkən, - Tahir. MTN yazılıb - deyə bildirdi. Əfqan müəllim hiss etdi ki, əlləri titrəyir, ürəyi təlaşla döyünür. Tez özünü ələ alıb,



telefonu Nəzakət xanımdan alıb qulağına tutdu.

- Əleyki salam... harada?.. Niyə ki.... olmazmı səhər MTN-ə gəlim... yaxşı gəlirəm.

Əfqan müəllim söhbətini bitirib, əllərini sinəsində çarpazlayib, narahat baxışlarla gözlərini onun ağzına dikən Nəzakət xanıma baxdı.

- Paltomu ver.

Nəzakət xanım onun qarşısını kəsib, titrək səslə soruşdu:

- O MTN-çi Tahir nə deyirdi, hara gedirsən?

Əfqan müəllimdən səs çıxmadığını görüncə, Nəzakət xanım yenidən dilləndi:

- Əfqan, qurban olum, evimizi yıxma, de görüm, hara gedirsən?

Anasının ağlayaraq atasına yalvarmasına yan otaqdan Gülsüm, Seyran və Ayaz dəhlizə çıxdılar. Vəziyyəti belə görən Əfqan müəllim Nəzakəti sakitləşdirməyə çalışdı:

- Nəzakət, narahat olma, yarım saata bir nəfər var, onunla görüşüb qayıdıram.

- O bir nəfər kimdi? "MTN Tahir" nə deməkdir?

Ayaz "MTN Tahir" sözünü eşidincə, atasına sual etdi:

- MTN-in müstəntiqi Tahir?

Əfqan müəllim yalan danışmaq istəmədi:

- Hə.

Ayaz:

- Elə isə mən də səninlə gedirəm.

Ayaqqabısını geyinməkdə olan Əfqan müəllim oğluna məsləhət verdi:

- Yox, sən evdə ol. Bir də ki, görüş yerimiz MTN olmayacaq.

Ayaz atasının etirazına baxmayaraq asılqandan gödəkcəsini götürüb geyindi. Əfqan müəllimlə üzbəüz dayanıb dedi:

- Əgər görüş yeri başqa məkandırsa, deməli, sənə xətər yetirmək planlaşdırılır.

Əfqan müəllim sərt şəkildə Ayaza acıqlandı:

- Nə dedimsə, onu da et, evdə ol. Yarım saata gəlməsəm, Qəzənfərə və Şamilə xəbər edərsiniz.



Gülsüm ağlaya-ağlaya Əfqan müəllimin boynunu qucaqlayıb yalvardı:

- Qurban olum ata, qoy Ayaz da səninlə getsin.

Əfqan müəllim qızının uzundən öpüb,ona təskinlik verdi:

- Ağıllı balam, narahat olma, beş-on dəqiqəyə gəlirəm.

Sonra da qapını açıb, liftə yaxınlaşdı. Liftin kabinəsinə minməmişdən əvvəl, sanki əzizlərini sonuncu dəfə görmək istəyirmiş kimi, geri çevrilib onlara baxdı. Həyat yoldaşının və uşaqlarının gözlərindən süzülən yaşı görüncə, ürəyi az qaldı yerindən qopsun. Hiss etdi ki, onun da gözləri dolub. Özünü ələ almağa, görüşqabağı toxtaq olmağa çalışdı. Əfqan müəllim liftə minincə, Ayaza elə gəldi ki, bir daha atasını görə bilməyəcək. Ürəyi sıxıldı, gözləri doldu. Gülsümün içini çəkdiyini və tez də səsini boğduğunu duydu. Hiss etdi ki, anasının da gözləri yaşarıb. Elə həmin an da yan otağın qapısının cırıltısı eşidildi. Bildi ki, anası ağlamağını gizlətmək üçün o biri otağa keçdi. Bu məqamda, ev

telefonu zəng çaldı. Ayazı tər basdı. - Yəqin MNT-dəndir, ona atasının həbs olunduğunu demək istəyirlər. Asta addımlarla evin küncünə qoyulan mizin üstündəki telefon aparatına yaxınlaşdı. Mobil telefonuna zəng gəlməsi ona əl uzadıb ev telefonunun dəstəyini götürməkdə bir anlıq da olsa, tərəddüd yaratdı. Masanın üstündəki telefonuna nəzər yetirdi, Mətin idi. Eyni vaxtda, anasının, daha sonra isə, Gülsümün telefonuna zənglər gəldi. Evin qapısı döyüləndə, Ayaz çaş-baş qaldı. Bilmədi telefonlara cavab versin, yoxsa qapını döyənin kim olduğunu öyrənsin.

- Ata gəldi, - Gülsümün sevincək səsi Ayazı bir qədər də təəccübləndirdi. Özünü toplayıb, Mətinin zənginə cavab verdi. - Necə? Təmizləmə olub... Kim dedi, hardan bildin?.. Televiziyadan?, - Ayaz gözaltı, dəhlizdə əllərini atasının boynuna dolayıb, hələ də için-için ağlayan Gülsümlə atasına baxdı. Əlini uzadıb, masanın üstündəki pultu götürüb, televizoru açdı. Kanalları bir-bir dəyişsə də, Mətinin söylədiyi məlumatı dəqiqləşdirmək üçün proqram tapa bilmədi. Acgözlüklə televiziya proqramlarının altından qaçan titrlərə nəzər yetirdi. Budur, nəhayət, tapdı. Həqiqətən də, neçə müddətdir onlara acılar yaşadan, həyatlarını az qala cəhənnəm əzabına çevirən qurumun rəhbəri vəzifəsindən azad edilib, bir neçə əməkdaşı isə həbs olunub. Oxuduqları Ayazın içindəki uğultunu sakitləşdirdi, daxilinə rahatlıq gəldi, beynindəki ziddiyyətləri aradan qaldırdı. Ayaz:

- İnanırdım, əmin idim ki, dövlətimiz o quldurları dayandıracaq - deyib Mətinlə sağollaşdı. Atasına yaxınlaşıb, onunla üz-üzə dayandı. Əfqan müəllim qonaq otağının giriş qapısında əllərini sinəsində çarpazlayıb, dalğın nəzərlərlə dayanıb gözlərini ona dikən Nəzakət xanıma, daha sonra isə uşaqlarına baxıb dedi:

- Qurban olum, babalarımızın goruna, onlar səbəbsiz yerə “dünən fərman verən, bu gün can verir” məsəlini elə-belə deməyiblər. Doğrudan da, bu gün səhər məni və əzizlərimi həbsə atmaqla hədələyən general, bir saat əvvəl, özü əlləri qandallanaraq zindana atılıb.

Ayaz bayaqdan beynində dolaşan suala cavab tap-

maq üçün, artıq dəhlizdən otağa keçməkdə olan atasına müraciət etdi:

- Səninlə bu gecə vaxtı kim idi görüşən, nə istəyirdi?

Divanda oturan Əfqan müəllim Nəzakət xanıma:

- Bir yaxşı çay gətir - deyib, üzünü oğluna tutdu:

- Mənimlə görüşən Cavad Tahirzadə idi. Onun quyruğu qapı arasındadır, vəziyyəti ağırdır. Yəqin ki, bu gün-sabah, onu da həbs edəcəklər. O, bizə qarşı etdiyi qansızlığa görə bağışlanmasını, haqqında prokurorluğa şikayət etməməyi xahiş etdi. 135 min manat pulu da geri qaytardı. Dedi ki, guya ona bu qədər pul çatıb, onu da halallıq almaq üçün geri qaytarır.

Əfqan fikrini tamamlayıb, dəhlizdə küncə qoyduğu salafan paketi Ayaza göstərdi. Ayaz atasının göstərdiyi səmtə baxıb:

- Yəni halal-haramdan dəm vuran o quldurु bağışlayacaqsan? - deyə soruşdu.

Əfqan müəllim Nəzakət xanımın gətirdiyi çaydan bir qurtum içib, oğlunun sualını cavablandırmaq üçün



sözünə atalar misalı ilə başladı:

- Oğul, "əvvəlin yaxşı gəlincə, axırın yaxşı gəlsin" deyiblər. Tahirzadə, Çobanov və digərlərinin axırları heç də yaxşı gəlmədi. Onlar, onsuz da, layiq olduqları cəzanı alacaqlar. Biz isə sakit həyatımızı yaşamaqda davam edəcəyik.

Nəzakət söz atdı:

- Deməli, verdiyin pullar batdı, eləmi?

Əfqan müəllim:

- Bəli, - deyib əlavə etdi:

- Sizinlə masa ətrafında oturub, çay içə-içə şirin söhbət etməyimizi milyonlara, milyardlara dəyişmərəm. Ağrılı-acılı günləri yenidən xatırlamamaq üçün o söhbətə bir daha qayıtmaq istəmirəm.

Əfqan müəllim söhbətin mövzusunu dəyişmək üçün üzünü Ayaza tutub dedi:

- Mətinə zəng et və de ki, sabah Çayqovuşana gedəcəyik, qoy qohumlarını da götürüb ora gəlsin.

Ayaz Mətinə zəng etmək üçün telefonunu götürəndə, Nəzakət xanımın səsi eşidildi:

- Bu həftə Şəmistan müəllimgilə elçi gedib qızını oğlumuza istəyərik, hə, nə deyirsən, ay Əfqan?

Ayaz anasına baxıb gülümsədi, atasının nə cavab verəcəyini gözləmədən, qarşı otağa keçib Mətinin nömrəsini yığdı.

***Son, Bakı – 2017-ci il***